Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 150 (8173) ŞƏNBƏ, 13 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## 1969 AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: 2019
### qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf



# HEYDƏR ƏLİYEV epoxasından İLHAM ƏLİYEV erasına

## 14 iyul Böyük tarixi dönüşün parolu, 15 iyun müstəqil dövlətçiliyin əbədi məşəlidir

**Bəşəriyyət bütün tarixi boyu dahilərin çiyinləri üstündə irəliyə doğru inkişaf etmişdir. Böyük dühalar mənsub olduqları ölkənin gələcək inkişaf yollarını əvvəlcədən görə bilmiş, həmin ali məqsədə çatmaq üçün xalqı mübarizəyə səfərbər etməyi bacarmış, ən çətin ictimai-siyasi proseslərə rəhbərlik missiyasını uğurla həyata keçirmişlər. Uzaqgörənlik, möhkəm siyasi iradə, aydın milli mövqe və dönməz mübarizə əzmi belə tarixi şəxsiyyətlərin əsas xüsusiyyətlərini təşkil edir.**

Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizin taleyində və inkişafında müstəsna dərəcədə böyük rolu və xidmətləri olan qüdrətli tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasının 50 illik böyük bir inkişaf dövrü Ulu Öndər Heydər Əliyevin adı, rəhbərliyi, mübarizəsi və dövlətçilik idealları ilə üzvi surətdə əlaqədardır. Heydər Əliyev Azərbaycan xalqının əbədiyaşar Ümummilli Lideri və müstəqil dövlətçiliyinin rəmzidir.

Görkəmli dövlət xadimi Heydər Əliyev 14 iyul 1969-cu il tarixdə Azərbaycan Respublikasında dövlət rəhbərliyinə gəlmişdir. Bu tarix Azərbaycan Respublikasının taleyində böyük dönüşün və yeni bir epoxanın başlanğıcı olmuşdur. Azərbaycanda böyük inkişaf və intibah da həmin şərəfli tarixdən başlanmışdır.

*Xalqın və ölkənin taleyindəki roluna və əhəmiyyətinə görə 14 iyul 1969-cu il tarixi yalnız 15 iyun 1993-cü il tarixi ilə müqayisə oluna bilər.*

*14 iyul 1969-cu il 15 iyun 1993-cü ilin möhkəm təməlidir.*

*14 iyul 1969-cu il hadisəsi Azərbaycan xalqını iqtisadi-mədəni gerilikdən, o vaxta qədərki torpaqlarımızı itirilmə təhlükəsindən xilas etmiş, ərazi bütövlüyümüzə təminat vermiş, ölkəmizin hərtərəfli inkişafının hərəkətverici qüvvəsinə çevrilmişdir.*

*Bu mənada 14 iyul 1969-cu il Azərbaycanın salnaməsinə tarixi dönüş ili kimi daxil olmuşdur.*

Ardı 4-cü səh.

## Milli ruh və azərbaycançılıq məfkurəsinin 50 illik yüksəlişi

**Heydər Əliyevin Azərbaycan Respublikasına hakimiyyətə gəlməsinin 50 ili tamam olur. Ulu Öndər 1969-cu ilin 14 iyulunda Bakı şəhərində keçirilmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumunda yekdilliklə Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə seçildi.**

Bu tarixi hadisə Azərbaycanın gələcək inkişaf yoluna üfüqdən doğan günəşin şəfəqləri kimi aydın işıq saçdı. Həmin tarixdən bizi ayıran ötən 50 ilin parlaq və şanlı səhifələri Ulu Öndərin mənalı və şərəfli ömür yolu ilə ayrılmaz vəhdət təşkil edir. Həyat və fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşayan Ümummilli Lider Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərdi. Ulu Öndər Azərbaycana birinci və ikinci rəhbərliyi dövründə möhkəm təməlləri olan dövlət quruculuğunun əsaslarını yaratdı. Harada yaşamasından, hansı vəzifə tutmasından asılı olmayaraq Heydər Əliyev üçün Azərbaycanın mənafeyindən kənarda heç nə mövcud deyildi. Çünki o, ən böyük azərbaycanlı idi.

1969-1982-ci illər ərzində Azərbaycanın gələcək müstəqilliyi üçün zəmin hazırlayan Ulu Öndər respublikada milli ruhun və azərbaycançılığın sovet ideologiyası çərçivəsində sıxışdırılmasının qarşısını almaqla onun dirçəldilməsi istiqamətində böyük işlər gördü, mövcud imkanlardan bacarıqla istifadə etdi. Təhlil və araşdırmaların təsdiq etdiyi kimi, xalqın tarixi yaddaşının özünə qaytarılması ideoloji təməl prinsipləri əsasında milli ruhun yeni yüksəlişini təmin etdi. Hər bir azərbaycanlının qəlbində illərdən bəri sönməyən milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün respublikada sağlam mühit formalaşdırdı.

Ardı 3-cü səh.

## Şəxsiyyət zirvəsi

**Hər bir xalqın dünya miqyasında tanınmasının, şöhrət qazanmasının çox aydın və danılmaz şərtləri var. Həmin şərtləri tarixi reallıqlar da dönə-dönə təsdiq etmişdir. Həqiqət ondan ibarətdir ki, bütün xalqların cəmiyyətdə mövcud olmasına, fəaliyyət göstərməsinə, ilk növbədə arxalandığı, sosial-iqtisadi inkişafı üçün vəsilə saydığı təbii və mənəvi şərtlər, maddi-mənəvi abidələr kifayət etmir.**

Ölkənin müasir sivilizasiyanın parametrlərinə cavab verə bilməsi dövlət idarəçiliyini yüksək bacarıq və təşkilatçılıq qabiliyyəti ilə tənzimləyən fenomen şəxsiyyətdən də çox asılıdır.

### İntibah yolunun başlanğıcı

Ötən əsrin ortalarında - 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə başçılıq etmək qisməti Ulu Öndər Heydər Əliyevə nəsib oldu. Artıq həmin vaxtdan 50 il ötür. 50 il əvvəl onun xalqımızı müstəqilliyə, azadlığa qovuşduran əsl rəhbər xarizmasına çevriləcəyinə, ölkəni bu günlərə gətirib çıxaran tarixi yolun təməlini qoyacağına hamı inana bilməzdi. Çünki bu şəxsiyyətin vətəni, xalqı üçün böyük xariqələr yarada biləcək potensial imkanlarını insanlar hələ görməmişdilər. Bu keyfiyyətlər tədricən, zaman-zaman onun işgüzar fəaliyyətinin nəticələri kimi üzə çıxdı.

Ardı 5-ci səh.

## Monteneqronun Prezidenti zati-aliləri cənab Milo Cukanoviçə

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monteneqro arasındakı dostluq və əməkdaşlıq münasibətləri ardıcıl şəkildə inkişaf edərək xalqlarımızın rifahına bundan sonra da töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına Albaniya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Mart ayında Bakı şəhərində Sizinlə görüşümüzü, eləcə də Sizin dost və səmimi qonaqpərvərliyinizi məmnuniyyətlə xatırlayıram. Zati-aliləri, icazə verin, Albaniya ilə Azərbaycan arasında mövcud olan çox gözəl dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində səylərimi davam etdirəcəyimi Sizə bir daha bildirim.

Eyni zamanda, Albaniyanı enerji dəhlizlərinin mühüm şəbəkəsinə çevirən TAP və İAP boru kəmərləri layihələrinə göstərdiyi dəstəyə görə Azərbaycana xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bu layihələrin uğurlu icrasının ölkələrimiz arasında qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar açacağına əminəm.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Sizin üçün münasib olan vaxtda Zati-alinizlə Tirana şəhərində görüşmək arzusu ilə,

***İlir META,***
***Albaniya Respublikasının Prezidenti***

## Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş tədbir keçirilib

### Tədbirdə "Ulu Öndər" sənədli filminin və eyniadlı mahnının təqdimatı olub

Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyi ilə bağlı iyulun 12-də Bakıda "Ulu Öndər" sənədli filminin və eyniadlı mahnının təqdimatına həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirin məqsədi Azərbaycanda dövlət gənclər siyasətinin banisi olan Heydər Əliyevin ölkə gənclərinə göstərdiyi xüsusi diqqət və qayğını bir daha nümayiş etdirmək olub.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli HƏSƏNOV tədbirdə çıxış edərək deyib ki, Ulu Öndər Heydər Əliyev bütün fəaliyyəti boyu öz qlobal düşüncə tərzi, müdrik və uzaqgörən siyasəti, nadir liderlik keyfiyyətləri, güclü milli iradəsi, xüsusi idarəçilik istedadı və rəhbərlik bacarığı ilə Ümummilli Lider səviyyəsinə yüksəlmiş və adı dünya tarixinə düşmüş görkəmli siyasi və dövlət xadimi, qüdrətli tarixi şəxsiyyət olmuşdur. Heydər Əliyev fitri istedadını, dərin zəkasını, bilik və bacarığını daim bütün azərbaycanlıların qəlbində yaşayan milli dövlətçilik ideyalarının gerçəkləşməsinə yönəltmiş, öz dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarmış və dinamik inkişafını təmin etmiş BÖYÜK AZƏRBAYCANLI idi.

Ardı 2-ci səh.

## Azərbaycan zamanələrin və sivilizasiyaların nadir ahəngdarlığını göstərən bir məkandır

### Şəki Xan Sarayı təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsidir

Azərbaycan ilk dəfə deyil ki, bütün dünyanın diqqətini öz üzərinə cəmləyir. Belə görüşlərin hər biri ölkəmizin ən yeni tarixini yazmaqla yanaşı, düşüncələrdə də öz izini qoyur, yeni səhifələr açır. İyulun 7-də UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında çox sevindirici, önəmli bir hadisə baş verdi.

Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi. Bu, "İçərişəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" ilə bağlı müvafiq qərarlardan sonra üçüncü tarixi abidəmizdir ki, belə bir mötəbər təşkilatın Ümumdünya İrs Siyahısına daxil edilir.

UNESKO-nin Qeyri-Maddi Mədəni İrs Siyahısında isə xalqımıza aid 13 mənəvi sərvət var. Prezident İlham Əliyevin bu münasibətlə xalqımıza təbrikində qeyd edildiyi kimi, həmin hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.

Elə UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi də bunun möhtəşəm nümunəsi sayıla bilər.

Ardı 10-cu səh.

## BTC-dən başlanan yol geniş dəhlizlərə qovuşur

### Kəmərin tam sistem kimi istifadəyə verilməsindən 13 il keçir

2006-cı il iyulun 13-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tam sistem kimi istifadəyə verilməsi çətin mübarizələrdən keçmiş bu nəhəng layihənin qələbəsi demək idi.




Bu münasibətlə Türkiyənin Ceyhan şəhərində keçirilən təntənələrdə Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının, səhmdar şirkətlərin rəhbərlərinin, hörmətli qonaqların iştirakı ölkəmizin yaratdığı regional və beynəlxalq tərəfdaşlığın möhkəm təməl üzərində qurulduğunu göstərdi.

BTC Ulu Öndər Heydər Əliyevin dərin zəkası, gərgin mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində araya-ərsəyə gəlmişdir və öz yaradıcısının adını şərəflə daşıyır. Belə ki, BTC-nin çəkilişi ideyası ortaya çıxandan layihənin gerçəkləşməsinə mane olmaq istəyən qüvvələr müxtəlif bəhanələr gətirərək işləri əngəlləməyə çalışırdılar. İstər xaricdəki bədxahlarımız, istərsə də layihənin ölkə daxilindəki əleyhdarları Azərbaycanın xətti doldurmaq üçün yetərincə neftinin olmadığını, marşrutun düzgün seçilmədiyini, seysmik cəhətdən təhlükəli zonalardan keçdiyini, ekologiyaya böyük zərbə vuracağını söyləyərək onun özünü doğrultmayacağını deyirdilər.

Ardı 10-cu səh.

# Parlamentin növbədənkənar sessiyası başa çatdı





İyulun 12-də Milli Məclisin növbədənkənar sessiyasının sonuncu plenar iclası keçirildi. Əvvəlcə spiker Oqtay Əsədov Milli Məclisin Sədr müavini Bahar Muradova başda olmaqla parlament nümayəndə heyətinə ATƏT Parlament Assambleyasının illik sessiyasında uğurlu işinə görə təşəkkür etdi.

ATƏT PA-nın illik sessiyası zamanı komitələrin iclaslarında Azərbaycan nümayəndə heyətinin fəaliyyəti, qətnamə layihələrinin müzakirəsi zamanı təklif etdiyi düzəlişlərin qəbulu, Ermənistan nümayəndə heyətinin düzəlişlərinin isə rədd edilməsi barədə ətraflı danışan Bahar Muradovanın sözlərinə görə, sessiyada məqsəd Dağlıq Qarabağ münaqişəsinin hazırkı durumu və status-kvonun dəyişməsinin zəruriliyi barədə məlumat vermək, sessiyanın gündəliyindəki məsələlərə dair təkliflər irəli sürmək, eyni zamanda ATƏT-in rəhbər qurumuna Azərbaycanın nümayəndəsinin seçilməsi idi: “ATƏT PA-nın yekun Bəyannaməsində Azərbaycanın ərazi bütövlüyü barədə məsələlərin yer almasına nail olmalı idik. Azərbaycanın maraqlarını ifadə edən bir çox məsələ həm məruzədə, həm də məruzə əsasında hazırlanan bəyannamədə əksini tapmışdı. Düzəliş və təkliflərimiz təqdim olunmuşdu. Aparılan intensiv işin nəticəsi sessiyanın ilk günündə hiss olunmağa başlandı”.

Milli Məclis Sədrinin müavini qeyd etdi ki, diqqətdə olan Siyasi Komitənin iclasında müzakirə edilən və bəyannamənin 22-ci maddəsində yer alan məsələdir: “22-ci maddədə ilk dəfə Gürcüstan, Moldova, Ukrayna və Azərbaycandakı münaqişələrə eyni prizmadan yanaşılması əksini tapıb. Hər zaman Dağlıq Qarabağ münaqişəsi ayrı qeyd edilirdi. Ermənistan Dağlıq Qarabağ münaqişəsinin unikal məsələ olduğunu bildirirdi. İlk dəfə bu münaqişələr vahid maddədə toplandı və bir prizmadan qiymətləndirildi. ATƏT PA razılaşdırılmış format daxilində 4 ölkədə münaqişələrdə sülh əldə etmək məqsədilə danışıqları aktivləşdirməyə çağırır. Bu, sessiyadakı bəyannamə ATƏT-in vahid mövqeyini göstərdi. Bundan sonra ATƏT-in bu sənədinə istinad etməyə məcburdurlar. Bu sənəd ATƏT Nazirlər Şurasına təqdim olunub. Burada Dağlıq Qarabağ sözünün olmaması, münaqişə ölkələrinin adının, Azərbaycanın adının göstərilməsi vacib məqamdır. Məruzədə isə hətta işğal altındakı 7 rayonun da adı sadalanır”.

Bahar Muradova onu da diqqətə çatdırdı ki, ermənilər dəfələrlə bəyannamədən Azərbaycanın adının çıxarılmasına çalışıblar: “Cəmi 6 ölkə Azərbaycanın adının həmin maddədən çıxarılmasına səs verdi, 47 ölkə isə bunun əleyhinə çıxdı. Mən bu dəstəyə görə hər kəsə təşəkkür etmək istəyirəm. Münaqişələrin ölkələrin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində artıq Azərbaycanın adını bu siyahıdan çıxarmaq mümkün olmayacaq”.

Bahar Muradova deputat Azay Quliyevin yenidən ATƏT PA-nın vitse-prezidenti seçilməsinin də böyük uğur olduğunu bildirdi.

Milli Məclisin Sədri Oqtay Əsədov əldə olunan nailiyyətləri yüksək qiymətləndirdi.

Sonra gündəilkdəki məsələlərin müzakirəsi başladı. Əvvəlcə “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında” və “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” qanunlarda dəyişiklik edilməsi barədə layihələr üçüncü oxunuşlarda müzakirə edildi. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə və Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli ikinci oxunuşda müzakirədən sonra qanun layihələri ilə bağlı heç bir təklifin olmadığını dedilər. Qanun layihələri təsdiq olundu.

Xatırladaq ki, bu qanunlarda dəyişikliklərin məqsədi dövlət büdcəsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ayrılan transfertin 150 milyon manat azaldılaraq, həmin vəsaitin xüsusi müdafiə təyinatlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi, sosial paket çərçivəsində DSMF-nin gəlirlərinin 350 milyon manat, xərclərinin isə 200 milyon manat artması nəticəsində qanunda müvafiq düzəlişlər edilərək gəlirlərin xərclərdən artıq olan hissəsi (150 milyon manat) həcmində dövlət büdcəsindən transfertin azaldılması, DSMF-nin xərclərinin 200 milyon manat, işsizlikdən sığorta fondunun xərclərinin isə 15 milyon manat artması səbəbindən icmal büdcə xərclərinin yuxarı həddinin cəmi 215 milyon manat artırılmasıdır.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsini üçüncü oxunuşda müzakirəyə təqdim etdi. Bildirdi ki, bu qanuna təklif olunan dəyişikliklər hakimlərin sosial müdafiəsinin yüksəldilməsi məqsədinə xidmət edir. Qanun layihəsi qəbul edildi.

Komitə sədri Ziyad Səmədzadənin məlumatından sonra “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihələri də üçüncü oxunuşda təsdiq olundu.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” layihəyə də ikinci oxunuşda müzakirədən sonra heç bir təklif olmayıb. Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin sözlərinə görə, qanuna edilən dəyişikliklərə görə əmək pensiyalarının minimum məbləği 1 oktyabr 2019-cu il tarixdən artırılaraq 160 manatdan 200 manata çatdırılacaq. Həmçinin digər dəyişikliyə görə pensiyalar ildə bir dəfə indeksləşdiriləcək. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Üçüncü oxunuşda təsdiq edilən məsələlərdən biri də “İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi oldu. Dəyişikliklər özünüməşğulluq tədbirlərinin təşkilinin maliyyələşdirilməsi üzrə xərclərin artırılması məqsədi daşıyır.

“Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi barədə üçüncü oxunuşda Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov məlumat verdi. Bildirdi ki, əvvəlki oxunuşda müzakirə zamanı heç bir təklif daxil olmamışdır. Qanun layihəsi təsdiq olundu. Qeyd edək ki, dəyişikliklərin məqsədi təbii su mənbələrindən götürülən suya görə güzəşt və azadolma hallarını müəyyən etmək, o cümlədən su obyektlərindən yanğından mühafizə ehtiyacları üçün istifadənin təkmilləşdirilməsidir.

“Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsinə əsasən məcəlləyə 146.4-cü maddənin əlavə edilməsi təklif olunurdu. Bu maddədə qeyd edilir ki, Dövlət Mənzil Fondunun bu məcəllənin 146.1-ci maddəsinə aid edilməyən yaşayış sahələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda özəlləşdirilməsinə yol verilir. Qanun layihəsi üçüncü oxunuşda təsdiq olundu

Daha sonra “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi üçüncü oxunuşda təsdiqləndi. Komitə sədri Əli Hüseynli dedi ki, dəyişiklik sarı kəsişmə toru və daimi sağa dönmə nişanının qanunvericiliyə salınması ilə bağlıdır.

“Publik hüquqi şəxslər haqqında”, “Avtomobil nəqliyyatı haqqında”,”Dövlət satınalmaları haqqında” qanunlara, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər də üçüncü oxunuşda təsdiq olundu.

Komitə sədri Hadi Rəcəbli “Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında” və “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Həmkarlar ittifaqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Gənclər siyasəti haqqında”, “Əmək pensiyaları haqqında”, “Təhsil haqqında”, “Daşınar əmlakın yüklülüyü haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” layihələri üçüncü oxunuşda müzakirəyə təqdim etdi. Dəyişikliklər “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli qanununa uyğunlaşdırmaq məqsədi daşıyır. Hər iki məsələ, o cümlədən bunlarla əlaqəli olan “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi üçüncü oxunuşda təsdiq olundu.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Gömrük Məcəlləsində, “Balıqçılıq haqqında”, “Yeyinti məhsulları haqqında”, “Taxıl haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” və “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında”, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında”, “Arıçılıq haqqında”, “Reklam haqqında” və “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” qanun layihələri barədə məlumat verdi. Qanun layihələri “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli qanununa uyğunlaşdırma məqsədi daşıyır. Hər iki məsələ üçüncü oxunuşda təsdiq olundu.

Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov “Azərbaycan Respublikası hökuməti ilə Monteneqro hökuməti arasında fövqəladə hallar sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə qanun layihəsi haqqında məlumat verdi. Saziş bu il mayın 3-də Bakıda imzalanıb. Qanun layihəsi təsdiq olundu.

Deputatlar “Antikorrupsiya Orqanlarının və Ombudsmanların əməkdaşlığı üçün İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Mərkəzinin (RCCACO) Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” qanun layihəsinə də müsbət münasibət bildirdilər.

Komitə sədri Əli Hüseynli “15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında” qanun layihəsi barədə məlumat verdi. Qeyd etdi ki, dəyişikliklər texniki xarakterlidir. Qanun layihəsi təsdiq olundu.

İclasda daha sonra birinci oxunuşlarda “Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Notariat haqqında”, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə”, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” və “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” və “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” qanun layihələri təsdiq olundu.

Dövlət bayrağı ilə bağlı məsələnin müzakirəsi zamanı çıxış edən Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 ili tamam olur. Məhz Heydər Əliyev XX əsrin sonlarında üçrəngli bayrağımızı əbədi olaraq zirvələrə yüksəltdi. Bu gün dövlət bayrağımız bütün beynəlxalq təşkilatlarda dalğalanır. Müstəqilliyinin əvvəllərində Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran Siyavuş Novruzov ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirdi. Qeyd etdi ki, ulu öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş nailiyyətlərin əsasını qoyub. Onun sözlərinə görə, hazırda Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir və bu gün Azərbaycan dünyanın nüfuzlu dövlətləri sırasındadır.

Deputat Məlahət İbrahimqızı da Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərindən və bu gün Ulu Öndərin ideyalarının layiqincə davam etdirilməsindən söz açdı.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı “Uşaq hüquqları haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Gənclər siyasəti haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” və “Məişət zorakılığının qarşısının alınması haqqında”, “Sosial xidmət haqqında”, “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” qanun layihəsi haqqında (birinci oxunuş) məlumat verdi. Dəyişikliklər “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli qanununa uyğunlaşdırma məqsədi daşıyır.

Müzakirələr zamanı deputat Bəxtiyar Əliyev təkliflərlə çıxış etdi. Yekunda qanun layihələri təsdiq olundu.

İclasda son olaraq “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi birinci oxunuşda təsdiq olundu.

Bununla da növbədənkənar sessiyanın iclası başa çatdı. Parlamentin növbədənkənar sessiya dövründə operativ işlədiyini deyən spiker deputatlara təşəkkür etdi. Milli Məclisin Sədri Oqtay Əsədov parlamentin növbədənkənar sessiyasını bağlı elan etdi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***

# Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş tədbir keçirilib

## Tədbirdə “Ulu Öndər” sənədli filminin və eyniadlı mahnının təqdimatı olub







*Əvvəli 1-ci səh.*

Vətənə məhəbbət, Azərbaycan xalqına və dövlətinə bağlılıq onu bütün həyatı boyu fərqləndirmişdir. İstər sovet hakimiyyəti dönəmində fəaliyyət göstərdiyi bütün sahələrdə, istərsə də müstəqillik dövründə Heydər Əliyev daim öz doğma Azərbaycanına ləyaqətlə xidmət etmiş, ölkəni geridə qalmış aqrar respublikadan güclü elmi-texniki potensiala malik, dinamik inkişaf edən sənaye dövlətinə çevirmiş, onun sosial-iqtisadi və mədəni tərəqqisini təmin etmiş, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması, milli elitanın formalaşdırılması, sağlam və intellektual gənc nəslin yetişdirilməsi istiqamətində misilsiz nailiyyətlər qazanmışdır.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində və inkişaf yoluna çıxarılmasında böyük xidmətlərindən danışan Əli Həsənov vurğulayıb ki, 1990-cı illərin əvvəllərində, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda vətəndaş qarşıdurmasının vüsət aldığı, etnik separatizmin baş qaldırdığı, torpaqlarımızın işğal olunduğu, ölkənin daxildən və xaricdən ciddi xaos və anarxiyaya sürükləndiyi, sosial-siyasi böhranın gündən-günə dərinləşdiyi bir vaxtda Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq Moskvadan geri qayıtmış, doğma vətənində milli vətəndaş birliyinin yaradılması, dövlətçiliyin xilası və qorunması, ölkənin müstəqilliyinin bərpası istiqamətində əsl tarixi missiya həyata keçirmişdir. Prezidentin köməkçisi demişdir: “Nə qədər ağır və çətin olmasına baxmayaraq, Heydər Əliyevin 1990-1993-cü illərdəki fəaliyyəti - *öz xalqının milli azadlıq və müstəqillik uğrundakı mübarizəsinə qoşulması və faktiki olaraq müstəqillik uğrunda mübarizə hərəkatına rəhbərlik etməsi dövrü* Azərbaycan dövlətçiliyinin və milli tariximizin parlaq səhifələrini təşkil edir. 1993-cü ildə Azərbaycan dövlətçiliyinin çətin sınaqlar qarşısında dayandığı, məhvolma təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda Heydər Əliyev xalqın çağırışına səs vermiş, onun tələbi və dəstəyi ilə yenidən ölkə rəhbərliyinə qayıtmış və xüsusi qurtuluş missiyası həyata keçirərək milli dövlətçiliyin XİLASKARINA çevrilmişdir”.

Sonrakı 10 il müddətində - 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasında Heydər Əliyevin rəhbərliyi ilə milli inkişafın əsaslarının yaradıldığını qeyd edən Prezidentin köməkçisi demişdir ki, daxili sabitlik, qanunçuluq, sosial ədalət, milli həmrəylik təmin olunmuş, Azərbaycanın daxili və xarici siyasətinin, dövlət idarəçiliyinin, yeni iqtisadi, siyasi və sosial münasibətlərin, demokratik dövlət quruculuğu və vətəndaş cəmiyyətinin əsasları formalaşdırılmış, bütün sahələr üzrə ölkənin inkişaf strategiyası hazırlanmış və həyata keçirilmişdir. Heydər Əliyev bu mərhələdə həlledici tarixi xidmət və uğurlu fəaliyyət göstərərək həm də müstəqil Azərbaycan dövlətinin BANİSİ və QURUCUSUNA çevrilmişdir. Hazırda Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti “öz doğma xalqına sədaqətli xidmətin və onun yolunda hər cür fədakarlığa hazır olmanın” əsl nümunəsinə çevrilmişdir.

“Ulu Öndərin öz dəyərini həmişə saxlayacaq uzaqgörən siyasəti, parlaq dühası və zəngin irsi Azərbaycanın uğurlu inkişafının təməlində dayanır”, - deyən Əli Həsənov diqqətə çatdırıb ki, bu gün dinamik inkişaf edən, region və dünya siyasətində, əksər transmilli layihələrdə öz dəstxətti ilə seçilən müasir müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin yadigarı və şah əsəridir. Hər bir vətənsevər azərbaycanlının Ümummilli Liderin unudulmaz və əziz xatirəsi qarşısındakı müqəddəs borcu müstəqil və qüdrətli Azərbaycan dövlətini qorumaq və daha da inkişaf etdirməkdən ibarətdir.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışını bu sözlərlə bitirib: “Ulu Öndər Heydər Əliyevin xilaskarlıq, quruculuq və liderlik missiyasının, milli dövlətçilik təfəkkürünün, peşəkar idarəçilik təcrübəsinin, zəngin siyasi irsinin və onun birbaşa xidmətləri sayəsində tamamlanaraq milli ideologiya səviyyəsinə qaldırılmış azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və hərtərəfli inkişaf etdirilməsi Azərbaycan elitası qarşısında dayanan əsas vəzifələrdəndir”.

Sonra “Ulu Öndər” sənədli filminin və eyniadlı mahnının təqdimatı olub.

Gənclər və İdman Nazirliyinin təşəbbüsü və sifarişi ilə “MZ Prodakşn” tərəfindən istehsal olunmuş filmin ssenari müəllifi və rejissoru Əməkdar incəsənət xadimi, professor Rafiq Quliyev, redaktoru İradə Sultanova, prodüseri Üzlüfət Qasımovadır. Filmdə Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildən 2003-cü ilədək həyat və fəaliyyətinin müxtəlif dövrünü əhatə edən kadrlar yer alıb, Ulu Öndərin Azərbaycan gənclərinə verdiyi tövsiyələr səsləndirilib.

Azərbaycan Milli Konservatoriyasının tələbələrinin ifa etdikləri “Ulu Öndər” mahnısının musiqisi konservatoriyanın rektoru, Xalq artisti, professor Siyavuş Kərimiyə, sözləri Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar mədəniyyət işçisi, professor Rafiq Yusifoğluya məxsusdur.

# Azərbaycan-Böyük Britaniya əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub

İyulun 12-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və ölkəmizin Böyük Britaniyadakı səfiri Tahir Tağızadə Britaniya parlamentində olublar.

AZƏRTAC xəbər verir ki, parlamentdə keçirilən görüşdə Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans, Britaniyada nüfuzlu siyasi analitik Leonel Zetter, Azərbaycan-Böyük Britaniya və Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbəri Cavanşir Feyziyev iştirak ediblər.

Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, Britaniyadakı ictimai-siyasi vəziyyət, Brexit və Brexit-dən sonra Azərbaycanla ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

## 1969 AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2019



# Milli ruh və azərbaycançılıq məfkurəsinin 50 illik yüksəlişi

*Əvvəli 1-ci səh.*

Həmin dövrdə qarşıya qoyulan bu məqsədlərin həyata keçməsi üçün Azərbaycanın iqtisadi potensialının artırılmasının, onun Sovet İttifaqı məkanında birincilər sırasına çıxarılmasının əhəmiyyətini görən Heydər Əliyev genişmiqyaslı dəyişikliklərə başladı. Eyni zamanda iqtisadi və sosial sahələrdə dərin struktur islahatları apardı. Xalqın maddi rifah halının yaxşılaşması üçün yeni mərhələyə keçməyə şərait yaratdı. Ümummilli Lider qəti əmin idi ki, iqtisadi cəhətdən azad olmayan ölkənin siyasi müstəqilliyindən söhbət açmaq absurddur. Heydər Əliyevin qətiyyəti sayəsində sovet hökuməti Azərbaycanla bağlı hərtərəfli tərəqqini və dayanıqlı inkişafı nəzərdə tutan mühüm qərarlar qəbul etdi. Azərbaycanın inkişafı üçün tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar həmin dövrdə və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyən edirdi.

Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyevin bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə apardığını vurğulayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir ki, sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olurdu: *"Sovet dövründə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan uğurla, sürətlə inkişaf edib. 1969-cu ildə o, Azərbaycan Respublikasının rəhbəri seçiləndə Azərbaycan sovet məkanında ən geridə qalmış respublikalardan biri idi. Bunu sosial-iqtisadi göstəricilər də təsdiq edir. On üç il ərzində yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan sovet məkanında ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. O illərdə iki donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Azərbaycan ümumittifaq xəzinəsinə daha çox vəsait verirdi, nəinki alırdı. Məhz o illərdə Azərbaycanda sənaye inkişafı böyük templərlə təmin olunurdu. Yüngül sənayedə, ağır sənayedə, neft sənayesində böyük işlər görülmüşdü. O vaxt yaradılmış infrastruktur bu gün müstəqil Azərbaycanın inkişafına xidmət göstərir. Kənd təsərrüfatına böyük diqqət göstərilirdi. Azərbaycan böyük tikinti meydançasına çevrilmişdi. 1982-ci ilin sosial-iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, doğrudan da Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində böyük işlər görülmüşdü. Azərbaycan, qeyd etdiyim kimi, qabaqcıl yerlərdə idi".*

Həqiqətən də, ötən əsrin 60-cı illərində səviyyəsi əsaslı surətdə aşağı düşən Azərbaycan iqtisadiyyatı 70-ci illərdən etibarən yeni yüksəliş mərhələsinə qədəm qoydu. 1969-1982-ci illərdə Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə kiçik xammal respublikasından əhəmiyyətli sənaye mərkəzinə çevrildi. Adambaşına düşən ümumi daxili məhsul 2,5, sənaye istehsalı 3, kənd təsərrüfatı məhsulları istehsalı 2,6, əmək məhsuldarlığı 2,5 dəfə artdı. Heydər Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycanın SSRİ-də neft hasilatı, emalı, geologiyası, kəşfiyyatı mərkəzi adı yenidən özünə qaytarıldı. Sənaye istehsalı artımı neft sahəsində 3 dəfə, qaz sektorunda isə 2 dəfə çoxaldı. Ümumilikdə ölkədə 250 zavod, fabrik, sex tikilərək istifadəyə verildi. Eləcə də 2 milyondan artıq vətəndaşın mənzil problemi həll olundu. 1970-ci illərin sonlarında Azərbaycan iqtisadiyyatında olan dirçəliş və inkişaf ən yüksək səviyyədə idi. Həmin illərdə Azərbaycan vətəndaşlarının SSRİ-nin müxtəlif orden və medalları ilə, o cümlədən 1007 nəfərin "Lenin", 10 min 130 nəfərin "Qırmızı Əmək Bayrağı", 1422 nəfərin "Oktyabr inqilabı", 1153 nəfərin "Xalqlar Dostluğu" ordenləri ilə təltif edilməsi, 108 nəfərin (onlardan bir neçə nəfərinin ikinci dəfə) Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi qətiyyətli siyasətçi, bacarıqlı təşkilatçı kimi tanınan Heydər Əliyevin respublika rəhbərliyinə gəlişinin uğurlu və müsbət nəticələri idi.

Ölkədə inkişaf proqramlarının reallaşdırılması ilə paralel olaraq milli mənəviyyatın təşəkkül tapması, tarixi soykökə qayıdış, azərbaycançılıq dünyagörüşünün bərqərar olunması həyata keçirilən siyasətin əsas xəttini təşkil edirdi. Bu dövrdə milli təhsilin, elmin, mədəniyyətin inkişafına göstərilən diqqət və qayğı Azərbaycanda hazırda, sözün əsl mənasında, intibah dövrü kimi qəbul olunan inkişaf mərhələsinin əsasını qoydu. Ümummilli Lider uzaqgörən siyasətçi kimi gənc nəslin yetişdirilməsinə, tərbiyəsinə, təhsilinə xüsusi önəm verirdi. Böyük öndərin respublikamıza birinci rəhbərliyi dövründə şəhər və rayonlarda 800-ə yaxın məktəb tikilərək istifadəyə verildi. Ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, bu təhsil məkanlarında müxtəlif ixtisaslara yiyələnən tələbələrin sayı isə 70 mindən 100 minə qədər artdı.

Həmin illərdə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətlərdən biri də milli kadr potensialının, o cümlədən ölkəmizdə kəskin ehtiyac olan ixtisaslar üzrə mütəxəssis kontingentinin formalaşdırılması, onların bilik və bacarıqlarının milli maraqlar naminə səfərbər olunması idi. 1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü sayəsində Azərbaycandan kənarda SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali təhsil müəssisəsində 80-ə qədər ixtisas üzrə 15 min azərbaycanlı gənc təhsil aldı. 1969-cu ilə qədər isə bu rəqəm hər il üzrə cəmi 40-50 nəfər təşkil edirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan cəmiyyətinin bütün sahələrində apardığı milliləşdirmə siyasəti respublikadan kənarda təhsil almağa göndərilən tələbələrin tərkibində də özünü göstərirdi. Belə ki, 1969-cu ilədək bu tələbələrin tərkibində azərbaycanlıların sayı cəmi 40 faiz təşkil edirdisə, 1980-ci ildə bu göstərici xeyli yüksəlmişdi. Heydər Əliyev SSRİ-nin ali hərbi məktəblərinə oxumağa gedən gənclərin milli tərkibinə də xüsusi əhəmiyyət verirdi. Qeyd edək ki, o illərdə Sovet İttifaqının kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlığını dilə gətirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü. Bakıda milli hərbi kadrlar hazırlayan C.Naxçıvanski adına məktəbin yaradılması da böyük bir amala - gələcək müstəqil Azərbaycanın milli zabit korpusunun yaradılması məqsədinə xidmət edirdi. Həyat göstərdi ki, Heydər Əliyev necə uzaqgörən və müdrik şəxsiyyət idi. Məhz Ulu Öndərin təşəbbüsü sayəsində xarici ölkələrin ali məktəblərində təhsilalanlar sonradan Azərbaycana qayıdaraq xalqa, millətə, vətənə ləyaqətlə xidmət etdilər. Bu xidmətin yüksək səviyyədə həyata keçirilməsi Azərbaycanın inkişaf və tərəqqisində də özünü təsdiqləyirdi. Ulu Öndərin həyata keçirdiyi bu siyasət hər birimizin həm əsl vətəndaş, həm də ixtisaslı kadr kimi formalaşmasında əsaslı rol oynadı.

1969-1982-ci illərdə milli mədəniyyətin, incəsənətin və ədəbiyyatın inkişafına böyük önəm verən Ulu Öndər ziyalı elitasına xüsusi diqqət və qayğı göstərirdi. Sovet dövründə Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə 20-dən çox mədəniyyət və elm xadiminin - Mirzə İbrahimov, Süleyman Rüstəm, Rəsul Rza, Fikrət Əmirov, Qara Qarayev, Rəşid Behbudov kimi görkəmli Azərbaycan övladlarının Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ad alması məhz Ulu Öndərin xidməti idi. Həmin dövrdə Bakıda və digər şəhər və rayonlarda tanınmış mədəniyyət, ədəbiyyat və elm xadimlərinin abidələrinin ucaldılması da diqqətdən kənarda qalmırdı. Azərbaycanın paytaxtında Nəriman Nərimanovun, İmadəddin Nəsiminin, Mehdi Hüseynzadənin, Cəfər Cabbarlının və başqa görkəmli soydaşlarımızın abidəsi qoyulmuşdu. Eyni zamanda Səməd Vurğunun, Cəfər Cabbarlının, Üzeyir Hacıbəylinin, Bülbülün, repressiya qurbanları - Mikayıl Müşfiq və Hüseyn Cavidin ev-muzeyləri yaradıldı. Bütün bunlar mənalı həyatını Azərbaycana həsr etmiş, onun adını ucaldan görkəmli sənət adamlarının adlarının əbədiləşdirilməsi, eyni zamanda gənc nəslin bu şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsi məqsədini daşıyırdı.

Zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı üçün qanunçuluq prinsipinin möhkəmləndirilməsi istiqamətində ilk real şans da Ulu Öndər Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbər seçilməsindən sonra yarandı. İlk gündən respublikanın taleyi ilə bağlı ən müxtəlif problemlərə toxunan Ümummilli Lider hüquq mühafizə orqanlarındakı nöqsanları, ən başlıcası, vətəndaşların hüquq və azadlıqlarının təminatı sahəsində mövcud olan problemlərin həlli yollarını göstərdi. Azərbaycana rəhbərlik edən şəxsin bu cür cəsarətli mövqeyi o dövrdə imperiya rəhbərlərinə qətiyyən xoş gəlməsə də, həmin şəxslər Heydər Əliyev dühasının xalq arasındakı hörmət və nüfuzu qarşısında susmağa, onunla hesablaşmağa məcbur olurdular. Dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Ulu Öndər *"ədaləti ədalətsizliklə bərpa etmək olmaz"* deməklə, dövlət idarəçiliyində qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirdi, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət göstərdi. Ədliyyə Nazirliyinin yenidən yaradılması da Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə həyata keçdi. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə təsis edilmiş Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərməyə başladı.

1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının qəbul edilməsi və orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi Ümummilli Lider Heydər Əliyevin xidmətləridir. Totalitar sovet rejiminin hökm sürdüyü o dövrdə respublikamızın ali qanununda xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasların müəyyən edilməsi olduqca cəsarətli addım kimi dəyərləndirildi. Sovet ideologiyasının tələbləri ilə tam bir ziddiyyət təşkil edən bu çətin vəzifənin öhdəsindən məhz Heydər Əliyev gələ bilərdi. *"Qoy ədalət zəfər çalsın!"* - o zaman Heydər Əliyevin söylədiyi və bütün işlərinin mahiyyətini təşkil edən bu sözlər xalqın dilində şüara çevrildi. Heydər Əliyevin gördüyü işlər, prinsipiallığı, şəxsi keyfiyyətləri, əlbəttə ki, sovet rəhbərliyində də yüksək qiymətləndirilirdi.

1982-ci ildə Heydər Əliyevin SSRİ kimi nəhəng dövlətin rəhbərliyində Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək mövqe və vəzifə tutmasından xalqımız qürur hissi keçirirdi. Heydər Əliyevin siyasi elitanın zirvəsinə yüksəlməsi Azərbaycan üçün xüsusilə böyük önəm kəsb etdi. Heydər Əliyev ittifaqda artan nüfuzundan və yüksək vəzifənin açdığı imkanlardan istifadə edərək, ittifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra ittifaqmiqyaslı layihələrin Bakıya yönəldilməsinə nail oldu. Bir sözlə, Heydər Əliyevin qətiyyətli fəaliyyəti nəticəsində Azərbaycan Sovet İttifaqının qabaqcıl respublikalarından birinə çevrildi.

XX əsrin 90-cı illərində Azərbaycanın ictimai-siyasi həyatında baş verən hadisələr, cərəyan edən proseslər, sovet imperiyasının dağılması, bölgələrimizdəki gərgin geosiyasi durum, ziddiyyətli etnik məsələlər, erməni separatizmi və müstəqilliyinə yeni qovuşan respublikanın demokratik siyasi sisteminin formalaşmasına keçidi, Qərbə inteqrasiyası, sosial sahələrdə transformasiya olunma kimi ciddi problemlər yaratmışdı. Bu reallıqları düzgün dəyərləndirən Ulu Öndər Heydər Əliyev mühüm və vacib strateji hədəfləri düzgün və dəqiq müəyyən etdi. Ulu Öndərin Moskvadan Azərbaycana qayıtması, əvvəlcə Naxçıvana, az sonra isə bütövlükdə ölkəyə rəhbərlik etməsi dövlət quruculuğunun və ictimai-siyasi proseslərin məqsədyönlü şəkildə idarə olunmasına, irəli aparılmasına, inkişaf etdirilməsinə şərait yaratdı.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 noyabr 1990-cı il tarixli iclasında üçrəngli Azərbaycan bayrağını dövlət rəmzi kimi qəbul etdirdi. Bu tarixi faktın özü milli dövlətçilik ideologiyası baxımından Azərbaycan üçün önəmli idi. Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik rəmzi kimi qəbul edilən üçrəngli Azərbaycan bayrağının yenidən dövlət bayrağı səviyyəsində qəbul edilməsi SSRİ-nin dağılmasından 11 ay əvvəl baş verdi. Bu, Azərbaycan tarixinin şanlı və unudulmaz səhifələrindəndir. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi bir neçə mühüm tədbir ölkəmizin həyatında önəmli tarixi hadisə idi. Bu tarixi hadisələrdən biri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi haqqında 16 dekabr 1991-ci il tarixli sərəncamı idi. Azərbaycanın dövlətçilik tarixində ilk dəfə bu sərəncamla "Dünya azərbaycanlıları" anlayışı böyük siyasətə gətirildi.

Müstəqilliyin ilk illərində ölkəmiz üçün olduqca mürəkkəb və çətin bir dövrdə öz xilaskarlıq missiyasını şərəflə yerinə yetirən Heydər Əliyev respublikada baş alıb gedən xaos və anarxiyaya qısa zaman kəsiyində son qoydu. 1993-cü ilin iyunun 9-da Bakıya gələn və iyunun 15-də Ali Sovetin Sədri seçilən Ulu Öndərin qətiyyəti sayəsində Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin, eləcə də ölkədə cinayətkarlığın qarşısı alındı, qanunsuz silahlı dəstələr ləğv olundu, mütəşəkkil ordu yaradıldı və dövlət müstəqilliyi qorunub saxlanıldı.

Heydər Əliyevin misilsiz diplomatik məharəti və siyasi iradəsi sayəsində 20 sentyabr 1994-cü ildə respublikamız və eləcə də bütün region üçün həyati əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı. Heydər Əliyevin fenomenal uzaqgörənliyi nəticəsində həyata vəsiqə alan bu ilk neft müqaviləsi müstəqil Azərbaycanın iqtisadi konsepsiyasının əsasını təşkil edən yeni neft strategiyasının həyata keçirilməsində dönüş nöqtəsi oldu. Azərbaycan iqtisadiyyatına xarici şirkətlərin çoxmilyardlıq sərmayə qoyuluşu başlandı, iqtisadi inkişafın əsası qoyuldu.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə ilk milli Konstitusiyamızın qəbulu ölkədə genişmiqyaslı hüquqi islahatların həyata keçirilməsinə böyük imkanlar açdı. Ulu Öndər Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının hazırlanmasına və qəbul edilməsinə nail olmaqla ölkədə hüquqi demokratik dövlət quruculuğunun əsasını qoydu. İnsan haqlarının etibarlı qorunmasını dövlətin prioriteti kimi müəyyən edən respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində beynəlxalq konvensiyalara qoşuldu. Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi geniş vüsət aldı. Azərbaycanda insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu, bu sahədə xüsusi dövlət proqramı hazırlanaraq həyata keçirilməyə başlandı və İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradıldı.

1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələrin uğurla icra edildiyini vurğulayan dövlət başçısı cənab İlham Əliyev bildirib ki, bu 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar hazırda bizim uğurlu siyasətimizi şərtləndirir.

Həqiqətən də, Ulu Öndər Heydər Əliyev düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan üçün, xalqımız üçün mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, ölkəmizin müstəqilliyini dönməz, əbədi və daimi etdi. Azərbaycan demokratik, hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi və gələcək inkişafın strateji hədəflərini müəyyən etdi. O inkişaf ki, sonrakı illərdə müstəqil Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi üçün möhkəm təməl və potensial rolunu oynadı.

Bu gün Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişaf və tərəqqisi sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələr onun layiqli siyasi varisi və davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Dövlət başçısı əsası Ümummilli Lider tərəfindən qoyulan daxili sabitlik sahəsində qazanılmış nailiyyətləri siyasi həmrəyliyin təmin olunması və milli birliyin möhkəmləndirilməsi istiqamətində daha da inkişaf etdirmiş, faktiki olaraq, dönməz etmişdir. Prezident İlham Əliyevin həyata keçirdiyi, elmi cəhətdən əsaslandırılmış, məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkəmiz böyük uğurlar qazanmış, regionun lider dövlətinə çevrilmişdir. Son 16 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən qlobal dövlət proqramları, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritələri, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini daha da möhkəmləndirməsi bu həqiqətləri bir daha təsdiqləyir. Bu dövrdə ÜDM-də özəl sektorun payı 80 faizi ötmüş, makroiqtisadi sabitlik çox yüksək səviyyədə olmuş, ÜDM 3,2 dəfə artmışdır. Hazırda adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir. Ölkəmizin iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə yatırılıb və bu sərmayənin yarısı xaricdən gələn vəsaitdir.

Ötən müddətdə çox böyük inkişaf yolu keçən Azərbaycan iqtisadi sahədə tam müstəqillik əldə edib. Rəqabətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib. 2004-2018-ci illər ərzində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və bölgələrin dinamik yüksəlişi, tərəqqisi məqsədilə regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı icra olunub. Perspektiv inkişafa yönəlmiş, ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığına xidmət edən addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq olunmuş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" və həmin istiqamətlərə müvafiq olaraq qəbul edilmiş 12 Strateji Yol Xəritəsidir. Strateji Yol xəritələrinin uğurlu icrası makroiqtisadi sabitlik, qeyri-neft sektorunun davamlı inkişafı və ixrac potensialının artımı, ticarət və fiskal balansın yaxşılaşması, əlverişli biznes mühiti və sərmayə cəlbi, infrastrukturun davamlı təkmilləşdirilməsi və əhalinin sosial rifahı, habelə ölkənin beynəlxalq mövqelərinin güclənməsinə xidmət edir.

Dünya bankının "Doing Business 2019" hesabatına görə Azərbaycanın dünyada ən islahatçı ölkə elan edilməsi Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin təntənəsidir.

Milli iqtisadiyyatda qazanılmış makroiqtisadi nəticələrin qorunub saxlanılması baxımından demokratik inkişafa olduqca böyük önəm verən dövlət başçısı ötən 16 ildə Azərbaycanda həyata keçirilən hüquqi islahatları uğurla davam etdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatına da xüsusi diqqət yetirmişdir. Azərbaycanda demokratik proseslərin sürətləndirilməsinin mühüm şərtlərindən biri də məhz qanunçuluğun bütün səviyyələrdə möhkəmləndirilməsi, sosial ədalət meyarına riayət olunması, hakimiyyət bölgüsü prinsiplərinin qorunması, ən başlıcası, hüquq mühafizə orqanlarında dövrün tələblərinə cavab verən islahatların aparılmasıdır. Cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar, tətbiq olunan mütərəqqi hüquqi yeniliklər çağdaş dövrün tələblərinə cavab verən cəmiyyətin inkişaf ahənginə adekvat addımlardır. Ən başlıcası, insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələlərini özündə maksimum dərəcədə ehtiva edir.

Ümummilli Lider Heydər Əliyev ölkəmizdə təməlini qoyduğu möhkəm iqtisadi-siyasi bazaya əsaslanaraq deyirdi: "İnanıram ki, Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır". Milli ruh və azərbaycançılıq məfkurəsinin yüksəldiyi 50 il də bunu deyir.

**Ziyafət ƏSGƏROV,**

***Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü***

# 1969 AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2019



# HEYDƏR ƏLİYEV epoxasından İLHAM ƏLİYEV erasına

## 14 iyul Böyük tarixi dönüşün parolu, 15 iyun müstəqil dövlətçiliyin əbədi məşəlidir

*Əvvəli 1-ci səh.*

**Tarixi Dönüş ili Milli Qurtuluş ilinin bünövrəsidir.**

Tarixi Dönüş ilində Azərbaycanda tarixin axarı dəyişdirilərək iqtisadi-mədəni gerilikdən böyük inkişafa doğru qəti dönüş etmişdir. Milli Qurtuluş ili də Azərbaycan tarixinin dönüş ilidir. Məhz 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası real parçalanma və vətəndaş müharibəsi təhlükəsindən xilas olaraq, müstəqil dövlətçiliyin möhkəmləndirilməsinə doğru dönüş etmişdir.

15 iyun Milli Qurtuluş hadisəsi olmasa idi, ölkəmizdə hansı fəlakət baş verərdisə, 14 iyul hadisəsi də olmasa idi, xalqımızın gerilikdən, tənəzzüldən, böhrandan xilası mümkün olmayacaqdı.

**14 iyul ölkəmizdə Böyük tarixi dönüşün paroludur.**

**15 iyun da Azərbaycanda müstəqil dövlətçiliyin əbədi məşəlidir.**

**İnkişaf etmiş Azərbaycan 14 iyul 1969-cu ilin övladıdır.**

**Müstəqil Azərbaycan 15 iyunun yetirməsidir.**

**14 iyul 1969-cu il Azərbaycan dövlətçiliyinin simasında Heydər Əliyev dühasının doğuluşu, 15 iyun 1993-cü il görkəmli dövlət xadiminin müstəqil Azərbaycanda yenidən böyük siyasətə qayıdışının tarixi faktıdır.**

Azərbaycan Respublikasının gələcək taleyində ölkə kommunistlərinin 5 avqust 1969-cu il plenumu böyük tarixi hadisədir. Həyati gerçəklikləri, xüsusən də sovet dövründə ənənəsi olmayan cəmiyyətdəki nöqsanların və çatışmazlıqların açıq surətdə bəyan edilməsi və çıxış yollarının göstərilməsi 5 avqust plenumunun keçmiş sovet dövlətinin ictimai-siyasi gedişatında fərqli bir baxışın ifadəsi olduğunu göstərir.

*5 Avqust Plenumu Azərbaycan Sovet Respublikasının rəhbəri Heydər Əliyevin dövlətçilik strategiyasının uzunmüddətli möhtəşəm proqramıdır.*

*5 Avqust Plenumunun siyasi qərarları Sovet Azərbaycanının inkişafını və müstəqilliyə doğru inkişafının strategiyasını müəyyən etmişdir.* Azərbaycan inkişafın sonrakı bütün mərhələlərində həmin strategiyanın işığında inamla irəliyə doğru yol gedərək çətinlikləri dəf etmiş, böyük tərəqqi və yüksəlişə nail olmuşdur.

Eyni zamanda Heydər Əliyevin şəxsi taleyində də 14 iyul 1969-cu ildə mühüm bir tarixi dönüş baş vermişdir. O, məhz həmin tarixi hadisə ilə dövlət təhlükəsizliyi orqanlarından geniş mənada dövlət idarəetməsinə keçmiş, ölkə miqyaslı liderə çevrilmişdir.

**Ulu Öndər Heydər Əliyev sovet hakimiyyəti illərində - 1969-1982-ci illərdə Azərbaycan Respublikasını keçmiş Sovetlər İttifaqındakı müttəfiq respublikalar arasındakı axırıncı yerlərdən ən qabaqcıl mövqeyə yüksəltmişdir.** Həmin dövrdə ölkədə bütün sahələr - kənd təsərrüfatı, sənaye, nəqliyyat, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənət, səhiyyə, rabitə sürətlə inkişaf etdirilmiş, Azərbaycanda böyük intibah baş vermişdi. Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi düşünülmüş tədbirlər Azərbaycanın müstəqilliyində mühüm rol oynamışdır.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində və Siyasi Büronun üzvü kimi 1982-1986-cı illərdəki çoxcəhətli və səmərəli fəaliyyəti bu böyük siyasətçini dünya miqyasında əsl rəhbər şəxsiyyət kimi tanıtmışdır. Sovetlər İttifaqı miqyasında ən məsuliyyətli qərarların qəbul edilməsində Heydər Əliyev obyektivlik və uzaqgörənlik nümayiş etdirmiş, ölkədə gedən proseslərin ümumi inkişafa, çoxmillətli dövlətdə yaşayan xalqların maraqlarına və rifahına xidmət etməsinə xüsusi diqqət yetirmişdir.

Ulu Öndər Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü (1990-1993-cü illər) çətin və keşməkeşli bir tarixi mərhələ olmaqla bərabər, həm də Naxçıvanda xilaskarlıq missiyası həyata keçirməsi və dövlət müstəqilliyi uğrunda mübarizə illəri kimi Azərbaycan tarixinə daxil olmuşdur.

**Həyatı və fəaliyyətinin Naxçıvan mərhələsi Heydər Əliyevin müstəqillik dövrünün liderliyi mərhələsinin böyük başlanğıcıdır.**

Hələ sovet hakimiyyəti illərində ölkəmizi fərqli bir istiqamətdə inkişaf etdirərək, çətin şəraitdə milli mədəniyyəti və ədəbiyyatı, mənəvi dəyərləri dirçəltməyə, ictimai-tarixi dərketmə şüurunu oyatmağa nail olmağı bacarmış Heydər Əliyevin taleyin hökmü ilə yaşayıb-işləməli olduğu Naxçıvan Muxtar Respublikasındakı fəaliyyəti xalqın və ölkəsinin əsl lideri olduğunu bir daha isbat etmişdir.

*Üçrəngli Azərbaycan bayrağının ölkəmizin dövlət rəmzlərindən biri kimi qəbul edilməsi, SSRİ-nin saxlanılması məqsədi daşıyan referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsinə nail olması, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi haqqında sərəncam verməsi Naxçıvan mərhələsinin ölkə miqyaslı hadisələrlə zəngin olduğunu nümayiş etdirir.*

Heydər Əliyevin xalqın tələbi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdışı və 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasına rəhbərlik edərək, ölkəni dərin siyasi-iqtisadi böhrandan çıxarması, cəmiyyətin bütün sahələrində geniş islahatları uğurla həyata keçirərək böyük dönüşə və dirçəlişə nail olması onun xalqı və ölkəsi qarşısındakı tarixi xidmətidir. "Əsrin müqaviləsi"nin dahi müəllifi olan Heydər Əliyev əsrin əfsanəsinə çevrilmişdir. Müstəqillik dövründə ölkəmizi Avropa Şurasının miqyasına çıxarması sovet dövründə respublikanı Siyasi Büro səviyyəsinə çatdırması kimi şərəfli bir xidmətdir.

Heydər Əliyev, sözün əsl mənasında, Azərbaycan xalqının xilaskarı, müstəqil Azərbaycan ölkəsinin böyük qurucusudur. Uzaqgörən dövlət rəhbəri kimi Heydər Əliyev özündən sonrakı böyük gələcəyin də möhkəm təməllərini yaratmışdır. O, azərbaycançılığı dövlət ideologiyası kimi qəbul etdirməklə ölkəmizdə dövlətçilik maraqları ilə milli mənafelərin tarazlığına və vəhdətinə nail olmuşdur.

Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən həm sovet dövründə, həm də müstəqillik mərhələsində mənsub olduğu xalqın tarixi müqəddəratında həlledici rol oynamış və dünyanın böyük liderlərindən biri kimi böyük şöhrət qazanmışdır. O, hələ sovet hakimiyyəti illərində Azərbaycan xalqının milli mənafelərinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün qətiyyətli addımlar atmışdır.

Heydər Əliyev sovet dövründə Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldıran görkəmli siyasi xadimdir. Məhz onun xidmətləri sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyində hərtərəfli şəkildə inkişaf etmiş ölkələrdən birinə çevrilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin qurulması və möhkəmləndirilməsi də Heydər Əliyevin adı və mübarizəsi ilə üzvi surətdə bağlıdır. Bütün bunlara görə Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideri kimi böyük tarixi ad qazanmışdır.

**Heydər Əliyev - Azərbaycan xalqının böyük dövlətçilik istedadına və zəngin idarəçilik təcrübəsinə malik olan nadir tarixi şəxsiyyətidir, xalqın və ölkənin taleyində xüsusi rolu olan görkəmli dövlət xadimidir, xilaskarlıq missiyasını həyata keçirmiş qüdrətli liderdir.**

**Heydər Əliyev - Azərbaycanda dövlət müstəqilliyinin banisidir.**

Cəmiyyət həyatının bütün sahələrini əhatə etmiş böyük xidmətləri onun adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk etmişdir. Müstəqil dövlətin siyasi prioritetlərinin önə çıxarılması, yeni idarəetmə strukturunun formalaşdırılması, daxili sabitliyin yaradılması, beynəlxalq aləmdə dostlar və tərəfdaşların tapılması, iqtisadi sahədə islahatların həyata keçirilməsi, dövlət ideologiyasının formalaşdırılması Heydər Əliyevin həll etdiyi ümumdövlət miqyaslı vəzifələrdir. Dövlətçilik baxımından mühüm əhəmiyyətə malik olan həmin vəzifələrin sırasında azərbaycançılıq ideologiyası, ədəbiyyat siyasəti, elm və təhsil konsepsiyası mühüm yer tutur.

Beləliklə, *Azərbaycanda 1969-2003-cü illəri əhatə edən tarixi dövr Azərbaycan tarixinin Heydər Əliyev epoxası dövrüdür. Azərbaycanın dövlət müstəqilliyi ideyasının hazırlanması, inkişaf etdirilərək həyata keçirilməsi və qurulub daha da möhkəmləndirilməsi Heydər Əliyev epoxasının tarixi nailiyyətidir.*

Böyük dövlət xadimi Heydər Əliyev üçün ədəbiyyat və incəsənət azərbaycançılığın, milli şüurun inkişaf etdirilməsinin əsas hərəkətverici qüvvəsi funksiyasını daşımışdır. Heydər Əliyev dövlət rəhbərliyinin bütün mərhələlərində ədəbiyyat və incəsənət məsələlərinə xüsusi əhəmiyyət vermişdir. O, uzaqgörən görkəmli dövlət xadimi kimi həm Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsinə böyük qayğı göstərmiş, həm də bu mühüm sahələri istiqamətləndirmişdir. Heydər Əliyevin aşağıdakı sözləri onun ədəbiyyata dərindən bələd olması ilə yanaşı, həm də cəmiyyətin inkişaf etdirilməsində bu mühüm işə nə qədər dərindən əhəmiyyət verdiyini göstərməkdədir: "Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır".

Ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi əhəmiyyət vermişdir. Bu prinsiplər Heydər Əliyevin ədəbiyyat və incəsənət siyasətinin konseptual əsaslarını təşkil etmişdir. Azərbaycan ədəbiyyatının böyük klassiklərinin və görkəmli yaradıcılarının dövlət səviyyəsində yubileylərinin keçirilməsi, əsərlərinin nəşri, dünya dillərinə tərcümə olunması, tamaşaya qoyulması geniş mənada milli-mənəvi özünüdərk proseslərinin genişlənməsinə, azərbaycançılıq anlayışının daha da möhkəmləndirilməsinə xidmət etmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi beynəlxalq aləmdə böyük əks-səda doğuran mühüm ədəbi-mədəni hadisə olmuşdur. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibəti ilə görkəmli dövlət xadimi Heydər Əliyevin bəyan etdiyi aşağıdakı sözlər müstəqil Azərbaycan dövlətinin ədəbiyyat və incəsənət siyasətinin əsasını təşkil edir: *"Bu yubileyi keçirərkən biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin... tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir".*

Görkəmli Azərbaycan yazıçı və şairlərindən Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Süleyman Rəhimov, böyük incəsənət xadimlərindən Qara Qarayev, Müslüm Maqomayev, Rəşid Behbudov, Fikrət Əmirov və Tahir Salahova Sovetlər İttifaqının ən ali mükafatı olan Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi Azərbaycan tarixinin Heydər Əliyev epoxasının parlaq hadisəsidir.

**Ulu Öndər Heydər Əliyev Azərbaycanın bədii mədəniyyətinin, ədəbiyyatının və incəsənətinin qüdrətli bilicisi və vurğunu idi.** O, ədəbiyyatı, təsviri sənəti, xalq yaradıcılığını çox sevirdi. Azərbaycanın tanınmış yazıçı və şairləri, rəssamları, heykəltəraşları, memarları, istedadlı xalça ustaları onun ən çox qiymətləndirdiyi sənətkarlar cərgəsində xüsusi yer tuturdu. Bu bağlılıq təsadüfi olmayıb, Ulu Öndərin böyük vətən sevgisinin, azərbaycançı baxışlarının parlaq təzahürü idi. Ulu Öndərin görkəmli Azərbaycan yazıçılarından Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Fikrət Qoca, Sabir Rüstəmxanlı və başqalarına göstərdiyi böyük diqqət və bir çox hallarda onları xüsusi çətinliklərdən xilas etməsi bu yaradıcı ziyalılara göstərilən ehtiramdan başqa, həm də ölkəmizdə milli şüurun, müstəqillik idealının formalaşdırılmasına, müdafiə olunmasına dəstəyin ifadəsi idi.

Böyük dövlət xadiminin Azərbaycan rəssamlarından Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Oqtay Sadıqzadə, heykəltəraşlardan Ömər Eldarov, Tokay Məmmədov, Mirəli Mirqasımov, xalçaçı sənətkarlardan Lətif Kərimov, Kamil Əliyev və başqalarının yaradıcılıq fəaliyyətinə bəslədiyi münasibət tarixi hadisələrə çevrilmişdir. Heydər Əliyevin təsviri sənət əsərləri haqqındakı təcrübəli ustad sənətşünas kimi dəqiq mülahizələri, elmi-nəzəri təhlilləri daim sənət adamlarını heyrətləndirmişdir. Ulu Öndər milyonlarla insanın qəlbində yaşadığı kimi, rəssam və heykəltəraşlarımızın da yaddaşında unudulmaz işıqlı izlər qoymuşdur. Ona görə də sənətkarlarımız daim Heydər Əliyev mövzusuna müraciət edir, xüsusi bir sevgi ilə bu dahi insanın kamil obrazını yaradırlar.

Azərbaycan incəsənətində Heydər Əliyevin obrazını yaradan sənətkarlardan Tahir Salahov, Ömər Eldarov, Oqtay Sadıqzadə, Kamil Əliyev, Eldar Mikayılzadə, Hüseynqulu Əliyev, Ülviyyə Həmzəyeva, Natiq Əliyev, Akif Əsgərov, İlham Mirzəyev, Həbibə Allahverdiyeva, Cavid İsmayılov, Həmzə Sadıqov, Eldar Zeynalov, Məmməd İbrahimov və bir çox başqalarının yaratdıqları möhtəşəm heykəllər və çəkdikləri bənzərsiz rəsm əsərləri yaddaşlara yazılmışdır. Bu əsərlərdən hər biri Ulu Öndərin bədii obrazını yeni-yeni fərqli təcəssüm formalarında əks etdirir.

Bu da çox əhəmiyyətlidir ki, bu gün Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrinin rəssamları və heykəltəraşları da azərbaycançılığın daim canlı, əbədi simvolu olan Heydər Əliyev mövzusuna müraciət edirlər. Hazırda dünyanın bir çox xarici ölkələrində Heydər Əliyevin adını daşıyan parkların, xiyabanların mövcud olduğunu görür, onun əzəmətli heykəlləri ilə qarşılaşırıq. Azərbaycanla yanaşı qardaş Türkiyədə, eləcə də Rusiya, Ukrayna, Gürcüstan, Ruminiya və digər ölkələrdə böyük azərbaycanlı dövlət xadimi Heydər Əliyevin heykəllərinin ucaldılması xalqımızda milli qürur hissləri doğurur.

Azərbaycan musiqi sənətinin inkişafında da Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan musiqi mədəniyyətinin böyük yaradıcıları olmuş dünya şöhrətli bəstəkarlar Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov, Niyazi Tağızadə, məşhur müğənnilər Müslüm Maqomayev, Rəşid Behbudov, Lütfiyar İmanov, Şövkət Ələkbərova, Zeynəb Xanlarova və başqalarının sənətinə yüksək qiymət vermiş, onların əsərlərinin beynəlxalq aləmə çatdırılmasına geniş üfüqlər açmışdır.

Teatr və opera sənətinin yüksək inkişaf mərhələsinə çatdırılmasında da Heydər Əliyevin böyük xidmətləri tarixi hadisə səviyyəsində qiymətləndirilməyə layiqdir. Heydər Əliyev epoxası Azərbaycan incəsənətinin məşhur rejissorlarını və aktyorlarını meydana çıxarmışdır.

❖ ❖ ❖

Azərbaycan elminin inkişaf etdirilməsində də Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri vardır. Görkəmli dövlət xadimi cəmiyyətin inkişafında elm faktoruna xüsusi əhəmiyyət verdiyi üçün ölkədə elmin inkişaf etdirilməsini həmişə diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə Azərbaycanda Elmlər Akademiyasının fəaliyyəti genişləndirilmiş və ölkəmizin maraqlarına doğru istiqamətləndirilmişdir. Azərbaycan Elmlər Akademiyasında yaradılmış xüsusi konstruktor büroları ölkənin təbii resursları və elm adamlarının səmərələşdirici ideyaları əsasında istehsalat yönlü problemlərin həllinə geniş yol açmışdır. Bu, dövlət mülkiyyətinə və planlı təsərrüfata əsaslanan sosializm cəmiyyətində bazar iqtisadiyyatı əsasında elmi proseslərin formalaşdırılması demək idi. Həmin istiqamətdə həyata keçirilmiş elm-istehsalat prosesləri fundamental və tətbiqi elmin nailiyyətlərinin ölkənin inkişafında özünəməxsus yer tutmasını şərtləndirmişdir.

XX əsrin 70-80-ci illərində Azərbaycanda ən müxtəlif sahələr üzrə böyük elmi məktəblər yaranmışdır. Əvvəlcə ölkə miqyasında ön mövqeyə çəkilən elm xadimləri məqsədyönlü dövlət siyasəti nəticəsində keçmiş Sovetlər İttifaqı miqyasında qəbul olunan görkəmli alimlər kimi tanıdılmışdır. Onların adı və fəaliyyət dairəsi ilə bağlı olan elm sahələrinin inkişaf etdirilməsi üçün zəruri maddi-texniki baza yaradılmış, siyasi dəstək verilmişdir. Nəticədə görkəmli elm xadimlərinin layiqli davamçıları yetişmiş, yeni elmi nəsil formalaşdırılmışdır. Bu isə öz növbəsində müxtəlif istiqamətlər üzrə elmi məktəblərin yaranması ilə nəticələnmişdir.

Qeyd edilən dövrdə Azərbaycanda yarımkeçiricilər fizikası - selen məktəbi, molekulyar biologiya - fotosintez məktəbi, geologiya - yer elmləri məktəbi, neft kimyası və aşqarlar kimyası, riyaziyyat, nəbatat, torpaqşünaslıq, kristalloqrafiya məktəbləri yaranıb inkişaf etmişdir.

Azərbaycanda şərqşünaslıq, ədəbiyyatşünaslıq, dilçilik-dialektologiya, tarixçi-mətnşünaslıq məktəblərinin yaratdıqları çoxcildlik elmi nəşrlər, ölkə əhəmiyyətli ümummilli problemlərə həsr olunmuş monoqrafiyalar, aktual mövzularda keçirilmiş elmi konfranslar respublikadakı siyasi-ideoloji mühitin daha da qüvvətlənməsinə, milli şüurun dirçəldilməsinə xidmət etmişdir. Ulu Öndər Heydər Əliyev görkəmli elm xadimləri Ziya Bünyadovun, Abbas Zamanovun, Xudu Məmmədovun həyatı ilə bağlı ciddi problemləri nəinki aradan qaldırmış, onların hərtərəfli fəaliyyətləri üçün geniş meydan yaratmışdır. Ölkə maraqlarına həsr edilmiş elmi əsərlərin respublika Dövlət mükafatına layiq görülməsi, ölkədə beynəlxalq simpoziumların təşkili də respublika miqyasında elmin inkişafına ciddi təkan vermişdir. Nəhayət, ölkə rəhbəri Heydər Əliyevin təqdimatı əsasında 1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının Sovetlər İttifaqının ən mühüm ordenlərindən olan "Xalqlar dostluğu" ordeni ilə təltif olunması aparılan məqsədyönlü dövlət siyasətinin mühüm yekunu idi.

Müstəqillik illərində də Azərbaycan elminin yenidən milli dövlətçilik maraqları əsasında inkişaf etdirilməsi ölkəyə ikinci dəfə rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə üzvi surətdə bağlıdır. Ulu Öndərin 21 sentyabr 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında respublika ziyalıları ilə görüşündəki tarixi nitqi geniş mənada elmin, ziyalılığın və akademik qurumların xilas edilməsi ilə əlaqədar səsləndirilmiş tarixi bəyanatdır: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. ...Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. ...Akademiyanın fəaliyyətini tənqid də etmək olar. ...Ancaq ümumən götürdükdə şübhəsiz ki, elmin inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, yüksək qiymətləndirməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. ...Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir".

Görkəmli dövlət xadimi Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli sərəncamı ilə ölkənin baş elmi mərkəzinə Milli Elmlər Akademiyası statusu verilmiş, həmin yolla bu akademik qurumun fəaliyyətində ölkə və dövlət maraqları üstündə köklənmiş yeni epoxa başlanmışdır.

Müstəqillik illərində, akademiyada genişmiqyaslı islahatların həyata keçirilməsi ölkəmizin elmini yeni mövqelərə çıxarmış, dünyada tanıtmağa yol açmışdır.

❖ ❖ ❖

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir. Beləliklə, müasir zamanda möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur.

**Prezident İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.**

Artıq hər kəsə yaxşı məlumdur ki, **milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması Prezident İlham Əliyev siyasətinin təməl prinsipidir.** Dövlət başçısı İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı Azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın hərtərəfli inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Yeni tarixi mərhələdə də Azərbaycançılıq bu böyük və müdrik siyasətin nüvəsini təşkil edir.

**İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, təzə istiqamətlər açan, yol göstərən, bələdçilik funksiyasını həyata keçirən görkəmli dövlət xadimidir.**

Bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin, qəti və aydın mövqeyin olması müstəqil dövlətin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır.

*Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi, qətiyyət və geniş elmi dünyagörüşü özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və böyük siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.*

Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr - Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars Dəmir İpək yolu, hər gün müasirləşən Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə, ardıcıllıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir.

**Prezident İlham Əliyev - müstəqil dövlətçilik təliminin inkişaf edən yeni epoxa ilə şərtlənən yeni dövrünün lideridir.**

**İlham Əliyev - Azərbaycanın sınanılmış yolu olan Heydər Əliyev yolunun böyük magistrallardakı qüdrətli sükançısıdır.**

**Prezident İlham Əliyev müasir Azərbaycan reallığında özünün tarixi mərhələsini, İlham Əliyev erasını yaratmışdır.**

**İlham Əliyev erası - Azərbaycana böyük tarixi nailiyyətlər qazandırmış, yeniləşməkdə olan Azərbaycanı inkişaf etmiş yeni Azərbaycana çevirmiş yeni mərhələdir.**

**İlham Əliyev yeni dünya düzənində Azərbaycana başucalığı gətirən, ölkəmizin nüfuzunu artıran böyük siyasətçidir.**

Azərbaycanın yeni tarixi epoxadakı inkişaf etməkdə davam edən müasir həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin konkret əməli nəticəsidir. Bakının az qala hər gün, hər həftə keçirilən genişmiqyaslı böyük və əhəmiyyətli tədbirlərə layiqincə evsahibliyi etməsi də Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin real göstəricilərindəndir.

Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsi, beynəlxalq miqyaslı qərarlara imza atmaq, dünyaya müraciətlə bəyanatlar səsləndirmək haqqı qazanması Prezident İlham Əliyevin müdrik siyasətinin təntənəsidir.

Böyük uğurla Avropa Oyunları keçirmiş müstəqil Azərbaycan dövlətinin İslam Oyunlarına da bacarıqla evsahibliyi etməsi ölkəmizin Prezidentinin qlobal siyasi baxışlarının əhəmiyyətli göstəricisidir.

Multikulturalizm ilini dünyaya əks-səda salan mühüm tədbirlərlə və real nəticələrlə başa vuran Azərbaycan Respublikasının 2017-ci ildə bəyan edilmiş İslam Həmrəyliyi ilinin düşünülmüş addımlar atması dövlətimizin uzaqgörən siyasətinin reallıqlarının parlaq ifadəsidir. Ölkəmizdə qüvvətli multikultural və tolerantlıq mühiti yaratmaq Prezident İlham Əliyevin birgəyaşayış modelidir. 2019-cu ili İmadəddin Nəsimi ili elan etməsi Prezident İlham Əliyevin ədəbi-tarixi keçmişimizin, böyük şəxsiyyətlərimizin, milli-mədəni sərvətlərimizin inkişaf etdirilməsinə dövlət səviyyəsində göstərdiyi diqqətin və qayğının parlaq əməli ifadəsidir.

**Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanda və Tərtərdə qazandığı böyük zəfərlər, torpaqlarımızın düşməndən azad edilməsi istiqamətində atılmış addımlar Prezident İlham Əliyevin adı ilə bağlı qəhrəmanlıq nümunələridir.** Bütün bunlar Prezident İlham Əliyevin müasir dövrün görkəmli liderlərindən biri olduğunu əyani şəkildə təsdiq edir və Azərbaycançılıq ideallarının sabahına daha inamla baxmağa tam əsas verir.

**Azərbaycan Respublikası görkəmli dövlət xadimi Heydər Əliyevdən İlham Əliyevə qədər məsuliyyətli və şərəfli yol keçmişdir.**

**Heydər Əliyev epoxası - Azərbaycanda şanlı tarixin və işıqlı böyük gələcəyin möhtəşəm vəhdətidir.**

**İlham Əliyev erası - müstəqil Azərbaycan dövlətinin müasir dövrünün lideri və bundan sonrakı həyatının hərəkətverici qüvvəsidir.**

Prezident İlham Əliyev Azərbaycan Respublikasını qətiyyətlə və yaradıcılıqla irəli aparan qüdrətli dövlət xadimi kimi çoxcəhətli yorulmaz fəaliyyəti ilə ölkəmizin sabahına gur işıq salır.

---

Müstəqil Azərbaycan dövləti milli-mənəvi dəyərlərlə bəşəri ideallarin vəhdəti işığında daha böyük gələcəyə doğru inamla yol gedir.

Heydər Əliyev epoxası və İlham Əliyev erası keçən möhtəşəm 50 ildə Azərbaycan xalqının tarixi taleyinin və böyük gələcəyinin şansıdır.

Heydər Əliyev epoxası - İlham Əliyev erası davam edir, yaşayır, inkişaf edir və qalib gəlir.

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

# 1969 AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2019

# Şəxsiyyət zirvəsi

*Əvvəli 1-ci səh.*

Heydər Əliyevin uzaqgörən siyasəti ilə cilalanan tarixi təcrübə göstərir ki, Azərbaycanda sosial-iqtisadi inkişaf konsepsiyasının yaranmasının başlanğıcını Sovet İttifaqının tərkibində olarkən respublikanın baş nəzarət və fəaliyyət istiqamətini tənzimləyən Kommunist Partiyası Mərkəzi Komitəsi plenumunun keçirildiyi 1969-cu il avqustun 5-i tarixindən götürmək lazımdır.

Bu mövzuda danışmaq mənim üçün də qürurvericidir. Çünki siyasi və idarəçilik fəaliyyətimdə ilk addımlarımı məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonra atmışam. 1972-ci ildə Lənkəranda komsomolun birinci katibliyinə namizədliyim irəli sürülən zaman məni qəbul edən Heydər Əliyevin verdiyi tövsiyələr həyatım boyu siyasi fəaliyyətimin yeganə istinadgahı oldu.

1969-cu ilin iyul ayından sonra rəsmi dövlət tədbirlərinin o vaxt respublikamızın həyatında necə əks-səda doğurduğunu yaxşı xatırlayıram. Azərbaycan əhalisi görür və hiss edirdi ki, Heydər Əliyevin siyasi hakimiyyətdə rəhbər yerini tutması təsadüfi deyil. Həmin günlərdə insanların dilində tez-tez "ədalətli rəhbər" sözlərinin eşidilməsinin də real əsasları var idi. Elə əhalinin özü də Heydər Əliyevin respublikada Mərkəzi Komitənin birinci katibi seçilməsinə başqa mövqedən yanaşmaq istəmirdi. Axı insanları yüksək vəzifəyə təyin edərkən adətən onların bilik və bacarığını, təşkilatçılıq qabiliyyətini nəzərə alırdılar. Şübhəsiz ki, bu keyfiyyətlər siyasət aləmində potensial enerjiyə malik olan Heydər Əliyevin şəxsində də cəmləşmişdi. O, bu məsul vəzifəyə gələndə "qətiyyətli başçı" imicini qazandırmış bir siyasi xadim idi.

Heydər Əliyev 1969-cu ildə siyasi hakimiyyətə "Qoy ədalət zəfər çalsın!" devizi ilə gəlmişdi. O, sovet dövlətinin Konstitusiyası çərçivəsində verilmiş imkanlarından xalqın mənafeyi üçün tam şəkildə istifadə etməyə çalışır, maneələri köklü şəkildə təmizləməyə səy göstərirdi.

Heydər Əliyev yüksək bilik və təşkilatçılıq qabiliyyətini elə ilk günlərdən ortalığa qoydu. O, lider xarizmasını, milli adət və ənənələrlə bağlı idarəçilik məharətini işə tətbiq etməyi, çətin və mürəkkəb, hədsiz dərəcədə məsuliyyətli fəaliyyətinin vacib şərti sayırdı. Dahi rəhbər elə həmin günlərdən insan hüquqlarına dərin hörmət və ehtiram hissi ilə yanaşmaqla, onların qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirməyə başladı. Məhz bunlara görə Heydər Əliyev o zamanlarda xalqının xeyrinə hansısa bir işi görmək naminə ittifaq rəhbərliyi ilə daim üz-üzə gəlirdi. Onun məqsədi birinci növbədə haqq yolunda mübarizə aparmaq idi. Bu mübarizə Azərbaycan xalqının həllini gözləyən bir sıra problemlərlə üzləşdiyi vaxta təsadüf edirdi. Həmin problemlər Heydər Əliyevə qədər yığılıb qalmış, aradan qaldırılması yolunda kifayət qədər iş görülməmişdi.

### Qətiyyətli rəhbər

Ümummilli Lider çətinliklərin haradan və nədən irəli gəldiyini müəyyənləşdirdi, diqqəti cəmiyyətdə özünü göstərən başlıca problemlərə - milli vəhdətin, hakimiyyətlə xalqın yekdilliyinə, onlar arasında birliyin təmin olunmasına yönəltdi. Heydər Əliyev görürdü ki, sovet dövründə hələ çarizmdən "miras qalmış" bir meyilin zərərli nəticələri özünü yenə də büruzə verməkdədir. O zaman hakimiyyətdə azərbaycanlıların təmsil olunmasına ciddi maneələrin hökm sürməsi, onların daha çox aşağı vəzifələrdə yerləşdirilməsi həmvətənləri arasında birliyə maneçilik törədir, yorucu intriqalara gətirib çıxarırdı. Bacarıqlı rəhbər belə xoşagəlməz hallara son qoymaq üçün möhkəm iradə, qətiyyət və prinsipiallıq nümayiş etdirməyə başladı. O, xalqla görüşlərində, rəsmi dövlət tədbirlərində respublikada özünü göstərən mənfi cəhətləri açıq deməkdən, onları yerindəcə tənqid etməkdən ehtiyatlanmırdı.

Heydər Əliyevin Azərbaycan KP MK-nın tarixi 1969-cu il avqust plenumundakı dərin məzmunlu çıxışı hamını heyrətdə qoymuşdu. O, bütün neqativ hallar barədə fikirlərini böyük cəsarətlə, açıq-aydın, təfərrüatı ilə yığıncaq iştirakçılarının diqqətinə yetirdi. Qeyd etdi ki, hakimiyyətin idarəçiliyi sistemində yerlibazlıq, regionçuluq təzahürləri önə çəkilmiş, dövlət işinə xeyir gətirən, daha böyük səmərə verən təşkilatçılıq bacarığı, işgüzarlıq keyfiyyətləri kölgəyə alınmışdır. Nəticədə bürokratik meyillər güclənmiş, rüşvətxorluq kimi neqativ hallara hətta yuxarı instansiyalarda göz yumulmuşdur.

Heydər Əliyev həmin plenumda kadr siyasətinə yüksək məsuliyyətlə yanaşmağın onun idealı olduğunu belə bəyan etdi: "Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik. Mənəviyyat, əxlaq bütün işimizə nüfuz etməlidir. Kadrları açıq-aşkar, kütlələrin gözü qabağında seçmək, onlar haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə olduqda kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvlərin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar".

Həmin plenum respublikanın sosial-iqtisadi inkişafı istiqamətində çox böyük və nəhəng işlər görmək, yeni, çox səmərəli islahatlar həyata keçirmək məqsədi daşıyan əlamətdar bir hadisəyə çevrildi. Bundan dərhal sonra respublikanın ictimai-siyasi həyatında canlanma hiss olunmağa başladı. Plenumda başlıca problem olan siyasi rəhbərliklə bağlı yekdilliyə səsləyən çağırışlar eşidildi. Bu məsələlər ətrafında işini qurmaq istəyən görkəmli partiya və dövlət xadimi hakimiyyət strukturunda azərbaycanlıların sayının az olması halına çox mənfi yanaşdı, xalqın çoxəsrlik milli-mənəvi dəyərlərini öz həmvətənlilərinin şəxsində üzə çıxarmaq siyasəti ilə işə başladı. Ulu Öndər cəsarətlə bacarıqlı yerli kadrları ətrafında yerləşdirmək və regionlara işi bacaran kadrları göndərməklə, respublikanı, sözün həqiqi mənasında, tərəqqi yoluna çıxartdı. Belə bir fəaliyyət nəticəsində Azərbaycanın partiya, qanunvericilik, sosial, mədəni-məişət, məhkəmə orqanları arasında yekdil əlaqə zəncirləri yarandı.

Respublikada rüşvətxorluğa qarşı mübarizə tədbirləri həyata keçirildi. Korrupsiya hallarının aradan qaldırılması istiqamətində aparılan işləri insanlar şüurlarında formalaşan ümummilli məsələ hesab edirdilər. Böyük əks-səda doğuran rəsmi dövlət tədbiri respublikanın sosial-iqtisadi inkişaf konsepsiyasını müəyyənləşdirdi.

### Sosial-iqtisadi və mədəni yüksəliş mərhələsi

1969-cu ildən başlayaraq respublikada özünü qabarıq şəkildə göstərən iqtisadi tənəzzülün qarşısının alınmasına, sənayedə, kənd təsərrüfatında yeni islahatların həyata keçirilməsinə dair müvafiq tədbirlər planı hazırlandı. Kommunist Partiyasının aparıcı qüvvə olduğu bir zamanda fərqli milli siyasət yürüdülməsi işləri tədricən tənzimlənir, bu sahədə mühüm qərarların qəbul edilməsi gündəlik fəaliyyətin əsasını təşkil edirdi. Ulu Öndər yaxşı bilirdi ki, respublikanın iqtisadiyyatını ayağa qaldırmadan, onu yüksəltmədən qarşıya qoyulan qlobal vəzifələri həyata keçirmək o qədər də asan deyil.

Odur ki, respublika sənayesi ilə kənd təsərrüfatını yeni, daha mütərəqqi yollarla dirçəltmək, xalqın maddi rifah halını yüksəltmək, doğma vətəni ittifaq səviyyəsində birincilər sırasına çıxarmağı məqsədyönlü fəaliyyət proqramına çevirdi. Bu sahədə məsuliyyət, partiya tələbkarlığı, hətta inzibati cəza tədbirlərinin tətbiqi məsələləri davamlı fəaliyyət proqramı kimi ortalığa qoyuldu. Bir-birinin ardınca qəbul olunan qərarlar respublikamızda sənayenin inkişafına təkan verdi. Bakı Kondisionerləri Zavodunun tikilib istismara verilməsi böyük rezonans doğurdu. Onun məhsullarına onlarla ölkənin tələbatı yarandı. 1980-ci ilin göstəricilərinə görə sənayenin əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə iki dəfə artaraq 8,4 milyard rubla çatdırıldı. 10 il ərzində respublikada 15 yeni iri maşınqayırma müəssisəsi istifadəyə verildi. 12 müəssisənin istehsal gücü əvvəlki illərlə müqayisədə bir neçə dəfə artdı, sənaye istehsalı üç dəfə yüksəldi. Sonra sənaye istehsalının artım sürətinə görə Azərbaycan ittifaq səviyyəsində ön sıraya çıxdı.

Ötən əsrin 70-ci illərində kənd təsərrüfatı sahəsində də mühüm nailiyyətlər əldə olundu. 1982-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 1969-cu ildəkinə nisbətən təxminən beş-altı dəfə artdı. Həmin dövrdə Azərbaycanda yeni inkişaf və tərəqqi dövrünün əsası qoyuldu və ayrı-ayrı sahələrdə islahatlar aparılmasının istiqamətləri müəyyənləşdirildi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə yeni istehsal sahələri işə düşdü, sənaye, kənd təsərrüfatı məhsullarının həcmi ildən-ilə yüksəldi. 1979-cu ilin fevralında "Azərbaycan SSR-də üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsi haqqında" qərarın qəbul edilməsi respublikada iqtisadi potensialın reallaşması yolunda uğurlu bir addım idi. Bu qərara əsasən 1985-ci ilədək Azərbaycanda üzüm istehsalı 3 milyon tona çatdırılmalı idi. Bu qərarda təsbitini tapan 23 bənddən yalnız 4-ü birbaşa üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı idi. Qalan bəndlər bu sahənin inkişafı hesabına respublikanın sosial-iqtisadi inkişafını təmin etməklə bağlı idi.

Həmin illərdə respublikanın rayonlarında üzümçülük çox yüksək templə inkişaf etdirildi. Rayonlarda üzüm emalı zavodları işə düşdü, şərabçılıq sənayesi öz məhsullarını respublikadan kənara ixrac etməyə başladı. Bunun sayəsində müvafiq rayonların siması büsbütün dəyişildi. Üzümçülük və şərabçılıqdan milyon manatlarla gəlir əldə edildi. Qazanılan vəsait əhalinin maddi vəziyyətini xeyli yaxşılaşdırdı, tikinti-abadlıq işlərinin dairəsi xeyli genişləndi.

Azərbaycanın ən çox nəzərə çarpan bölgələrindən biri də Lənkəran idi. Bərəkətli torpağı, füsunkar təbiəti olan bu yeri o zaman "Cənub mirvarisi" adlandırırdılar. Lənkəran ümumittifaq tərəvəz bostanına çevrilmişdi. Baxmayaraq ki, rayonun torpaqları subtropik bitki və meyvələr üçün daha münasib idi. Rayonda nəhəng Xanbulançay su anbarı tikilib istismara verildi. Heydər Əliyev onun açılışında iştirak etdi. Məhsuldarlığı yüksəltməyin əsas amili olan suvarma problemi bu yolla həll olundu. Min hektarlarla əkin sahəsini "Xanbulağı"nın suyu cana gətirdi.

Lənkəranda faraş tərəvəz məhsullarının yetişdirilib ittifaqın mərkəzi şəhərlərinə göndərilməsi bölgəyə böyük sərmayə gətirdi. Rayona milyon manatlarla vəsait daxil oldu. Rayon bu uğurlarını "Məhsul bayramı" adı ilə hər il qeyd edirdi. Zəhmət adamına pul mükafatları, minik maşınları, xalçalar və sair hədiyyə verilirdi. Ümumi daxili məhsulun artımı, onun satışından əldə olunan gəlir hesabına Lənkəranda tarix və mədəniyyət abidələri bərpa olunur, tikinti-abadlıq işləri genişlənirdi. Sosial-mədəni inkişaf hər addımda özünü göstərirdi. Yüksəliş qonşu rayonlarda da nəzərə çarpırdı.

Ötən əsrin 70-ci illərində respublikada tikinti abadlıq işləri də geniş vüsət almışdı. Hər yerdə böyük sürətlə tikinti işləri aparılırdı. 1970-1985-ci illərdə ümumi sahəsi 22,2 milyon kvadratmetr olan mənzillər tikilmişdi. Bakıda yeni yaşayış massivləri meydana gəlirdi. Çöl-biyabanı xatırladan ərazilərdə planlı şəkildə 5 və 9 mərtəbəli yaşayış evləri ucaldılır, mikrorayonlar salınırdı. Əhmədli, Yeni Günəşli, Yeni Yasamal yaşayış massivlərində məhz həmin dövrdə yüzlərlə, minlərlə insan rahat, yaraşıqlı, hər cür kommunal şəraiti olan mənzillərdə məskunlaşdı.

Həmin illərdə işsizlik demək olar ki, büsbütün aradan qalxmışdı. İnsanlar iş yerləri axtarmırdılar, iş yerlərinin özü onları halal zəhmətləri ilə dolanmaq üçün dəzgah arxasına, məhsul becərilən tarlalara dəvət edirdi. 1985-ci ildə respublikada işləyənlərin sayı 2,4 milyon nəfərə çatırdı. 1970-ci ildə orta aylıq əməkhaqqının səviyyəsinə görə Azərbaycan 15 respublika arasında axırıncı yerdə gedirdi. 1980-ci ildə isə bu sahədə 4-cü yerə çıxdı.

Ana dili hər bir xalqın taleyində müstəsna rol oynayır. Azərbaycan xalqının Ulu Öndərin dediyi kimi, çox zəngin, dərin tarixi köklərə malik dili vardır. Lakin azərbaycanlılar öz ana dilinin zənginliyindən uzun illər yetərincə istifadə edə bilmirdilər. Bu vəziyyət 1970-ci illərə kimi davam etdi. 1978-ci ildə Azərbaycan Sovet Respublikasının Konstitusiyası qəbul olunanda ona Heydər Əliyevin cidd-cəhdi ilə "Azərbaycan dili Azərbaycan Sovet Respublikasının rəsmi dövlət dilidir" maddəsi daxil edildi.

### Müasir dövlətimizin qurucusu

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Xalqımız cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. O dövrü şərh edən Ulu Öndər Heydər Əliyev demişdir: "Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəylinin və Əhməd Cavadın yaratdıqları Dövlət himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa elədi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir...
Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk xalq cümhuriyyətinin varisidir".

Lakin 1991-ci ildən sonra hakimiyyət dairələrinin səbatsız və qətiyyətsiz adamların əlində olması milli dövlətçiliyimizin taleyini təhlükə altında qoymuşdu. Ölkədə yaranmış anarxiyadan cana doymuş, ən başlıcası isə müstəqilliyimizin itirilməsindən ehtiyatlanan xalqın çağırışı və təkidli tələbi ilə 1993-cü ilin iyununda yenidən siyasi hakimiyyətə qayıdan və dövlətçiliyimizin sükanını öz etibarlı əllərinə alan Ümummilli Lider Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı.

Böyük və güclü şəxsiyyətlər cəmiyyətdə, o cümlədən geosiyasi arenada baş verən hadisələrə çox ciddi təsir göstərir. Onların dünyagörüşü, uzaqgörənliyi, həyat təcrübəsi və siyasi iradəsi hər hansı bir ölkənin inkişaf strategiyasının xüsusiyyətlərini müəyyənləşdirməklə həlledici məqamlarda gələcək üçün düzgün yol seçimini formalaşdırır. 1993-cü ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışı və ondan sonra ölkədə baş verən pozitiv yeniliklər bunu təsdiq edir. Təkcə onu demək kifayət edir ki, Ümummilli Liderin dühası sayəsində mürəkkəb geosiyasi dövrdə ölkə vətəndaş qarşıdurması və hərc-mərclik, dərin iqtisadi və sosial-siyasi böhran vəziyyətindən çıxarıldı, inkişafın təməli qoyuldu. Heydər Əliyev dövlətçiliyin qüdrətlənməsinə, rifahın yaxşılaşmasına xidmət edən dövlət quruculuğu xəttini böyük ardıcıllıqla həyata keçirdi, Azərbaycan dünyanın sayılıb, seçilən ölkələrindən birinə çevrildi.

### Heydər Əliyev ideyalarının davamı cəmiyyətin sifarişidir

Ümummilli Lider Azərbaycan xalqına son müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Müraciətdən ötən illər təsdiq etdi ki, Ulu Öndər haqlı imiş. Qədirbilən xalqımız 2003, 2008-2013 və 2018-ci illərin prezident seçkilərində Heydər Əliyev kursunun davam etməsinə səs verdi. Bu mənada İlham Əliyevin siyasi kursuna Heydər Əliyev kursunun davamı kimi baxmaq lazımdır. Heydər Əliyev və İlham Əliyev dövlət quruculuğunun mahiyyətinə, onlar arasındakı əlaqəyə diqqət yetirsək görərik ki, Ümummilli Lider tərəfindən uzaqgörənliklə, mükəmməl şəkildə müəyyən edilmiş strategiya İlham Əliyev tərəfindən dəqiqliklə, xalqımızın və dövlətimizin mənafeyi nəzərə alınmaqla həyata keçirilir. Bununla yanaşı, İlham Əliyevin dövlət quruculuğu modeli özünəməxsus ştrixlərlə də diqqəti cəlb edir. Ulu Öndərin irimiqyaslı neft qaz layihələrinin gerçəkləşməsi və bu istiqamətdə ölkəmizə külli miqdarda maliyyə vəsaitlərinin daxil olması Heydər Əliyev tərəfindən başlanan islahatların, o cümlədən sosial islahatların daha da gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi üçün şərait yaratdı.

Cəmiyyətdə sosial ədalətə nail olmadan ölkəni inkişaf yoluna çıxarmaq mümkün deyil. Sosial ədalət Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının təbiətinə, ruhuna uyğundur. Ta qədimdən Azərbaycan xalqı ədalətə tərəfdar olub, ədaləti müdafiə edib. Fəxrlə deyə bilərik ki, sosial ədalətlilik prinsipi bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə daha inkişaf etmiş formada özünü göstərir. Ədalətlilik ölkənin sosial-iqtisadi inkişafından ədalətli şəkildə xalqa pay düşməsi, Azərbaycan dövlətinin milli sərvətlərindən əldə olunan gəlirlərin insanlarımıza ədalətli şəkildə çatdırılmasıdır. Ədalətlilik, eyni zamanda cəmiyyətdə bazar iqtisadiyyatının yaratdığı ziddiyyətlərin hansısa bir zümrəyə ziyan vurmasının qarşısının alınması deməkdir. Bu, Azərbaycan cəmiyyəti üçün olduqca əhəmiyyətli bir prinsipdir.

Bütün cəmiyyətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meyilləri güclənir. Bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Ədalət prinsipinin təmin olunması islahatlardan keçir. Daimi islahatlar, inkişaf yolu ilə, həmçinin cəmiyyətdə insanların təbəqələşməsi fonunda müxtəlif siyasi və iqtisadi vasitələrlə sosial ədalətin təmin olunması bu gün ölkəmizdə uğurla gerçəkləşir. Sosial ədalət dedikdə hər bir ailənin, hər bir vətəndaşın rifahının yaxşılaşdırılması, cəmiyyətin idarəçiliyində hər kəsin iştirakının təmin edilməsi, azad iqtisadi münasibətlərin təminatı və bu kimi digər məsələlər nəzərdə tutulur. Prezident İlham Əliyev deyir: "Ölkəmizin qarşısında böyük vəzifələr durur. Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə yaşayan hər bir insanın həyat şəraitini yaxşılaşdırmaqdır".

Müasir cəmiyyət üçün sosial ədalət anlayışının məzmununun daim genişlənməsi, daha şaxələnmiş strukturlanması səciyyəvidir. Prezident İlham Əliyevin dövlət idarəçiliyi konsepsiyası da sosial ədalət prinsipinin ön planda saxlanılmasını nəzərdə tutur. Azərbaycan dövlətinin sosial rolunun durmadan artması, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş layihələrin miqyaslarının genişlənməsi və bu qəbildən olan digər hadisələr bunu təsdiq edir. Azərbaycan Prezidenti İlham Əliyevin "sosial ədalət bizim üçün xüsusi önəm daşıyır" fikirləri cəmiyyətimizin həyat fəaliyyətində sosial ədalət prinsipinin nə dərəcədə vacib rol oynadığını sübuta yetirir.

### Nümunəyə çevrilən iqtisadi inkişaf

Vaxtilə daxili və xarici investisiyaların Bakı şəhərinə, onun infrastrukturunun yenilənməsinə cəlb edilməsi, regionlarda kommunal infrastrukturun tələblərə cavab verməməsi paytaxtla regionlar arasında fərqli həyat yaratmışdı. Hamı şəhərdə yaşamaq, işləmək istəyirdi, regionlardan əhali şəhərə miqrasiya etməyə başlamışdı. Belə bir tarixi məqamda Heydər Əliyevin neft strategiyasının gerçəkləşməsi və ölkəmizə valyuta axını regionların sosial-iqtisadi problemlərinin həlli üçün davamlı maliyyə resurslarını yaratdı. 2003-cü ilin seçkilərində hamının Prezidenti olmağa, 5 il ərzində 600 min iş yeri açmağa vəd verən İlham Əliyev regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını (2004-2008-ci illər) təsdiq etdi. Proqramın və regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş digər sənədlərdə nəzərdə tutulmuş tədbirlərin icrası dövründə regionların siması tamamilə dəyişdi. Əgər 2004-cü ildə ölkədə ÜDM istehsalı 8,5 milyard manat təşkil edirdisə, 2008-ci ildə bu göstərici 38 milyard manata çatmış, iqtisadiyyatda 2,4 dəfə real artıma nail olunmuşdu.

Bu işlərin davamı olaraq ölkə Prezidenti tərəfindən 2009-2013-cü və 2014-2018-ci illəri əhatə edən növbəti Dövlət proqramları təsdiq olundu. Statistik göstəricilər ötən 16 ildə Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlığını bir daha təsdiq edir. Belə ki, bu illərdə ümumi daxili məhsul istehsalı real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft ÜDM 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 3 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 4,9 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 1,7 dəfə, yükdaşımalar 2,1 dəfə, informasiya və rabitə xidmətləri 11,2 dəfə, pərakəndə ticarət dövriyyəsi 3,8 dəfə artıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 13,5 dəfə artıb. 2004-cü ildən 2018-ci ilin oktyabr ayının 1-dək ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 50 milyard ABŞ dollarına yaxınlaşıb.

### Qürurverici göstəricilər

Sosial-iqtisadi siyasətin mərkəzində vətəndaşların rifahının yaxşılaşdırılması dayanır və həyata keçirilən bütün tədbirlər məhz bu məqsədə xidmət edir. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq ölkə rəhbərinin həyat fəlsəfəsidir. Dövlət başçısının qeyd etdiyi kimi: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır".

Ötən 16 ildə sosial sahədə həyata keçirilən islahatlar və məqsədyönlü tədbirlər əhalinin etibarlı sosial müdafiə sisteminin formalaşmasını təmin edib. Əhalinin sağlamlığının qorunması, təhsilin səviyyəsinin yüksəldilməsi, səmərəli məşğulluğunun təmin edilməsi və s. istiqamətlərdə sistemli tədbirlər davam etdirilir, bu sahəyə yönəldilən vəsaitlərin həcmi ildən-ilə artırılır. Həyata keçirilən sosialyönümlü siyasətin nəticəsi olaraq yoxsulluq və işsizlik səviyyəsi 5 faizədək azalıb.

Son 16 ildə 3000-dən çox məktəb, 650-yə yaxın səhiyyə müəssisəsi tikilib və ya yenidən qurulub. İnsan kapitalının inkişafı məqsədilə minlərlə gənc dünyanın nüfuzlu ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıb. Dövlət başçısı tərəfindən idmanın inkişafına göstərilən böyük diqqət və qayğı nəticəsində təkcə regionlarda 40-dan çox olimpiya idman kompleksi inşa olunub, ölkəmiz I Avropa Oyunları, İslam Həmrəylik Oyunları, "Formula1" kimi mötəbər idman yarışlarına uğurla evsahibliyi edib. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi də tanınır, idman uğurlarımız yüksək qiymətləndirilir.

Əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan hissəsinə, o cümlədən əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, qaçqın və məcburi köçkünlərə dövlət qayğısının nəticəsi olaraq onların mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilib, 6000-dən çox əlil və şəhid ailəsi mənzillə təmin olunub, qaçqın və məcburi köçkünlər üçün 100-dən çox qəsəbə salınıb.

Prezident İlham Əliyevin hər bir sahədə inkişafa nail olmaq üçün keçirdiyi islahatlar uğurlu nəticələr verməklə Azərbaycanın dinamik yüksəlişinə səbəb olub. Bu siyasət 2019-cu ilin əvvəllərindən mühüm nailiyyətlərlə əlamətdardır. Həyata keçirilən islahatlar yeni mərhələyə qədəm qoyub. Bu baxımdan yarısı geridə qalan 2019-cu ilin iqtisadi mənzərəsi Azərbaycanın qarşısına qoyduğu hədəflərə doğru inamla irəliləyən bir ölkə olduğunu nümayiş etdirir. Lakin cənab İlham Əliyev islahatların yalnız iqtisadi sfera ilə məhdudlaşmayaraq digər sahələrdə də həyata keçirilməsini məqsədəuyğun sayır. Bu baxımdan yeni sosial islahatlar bütün Azərbaycan cəmiyyətində razılıqla qarşılanır. Bu ilin fevral ayından həyata keçirilən birinci sosial paket 3 milyon nəfər vətəndaşın sosial rifahının yüksəldilməsində mühüm rol oynayıb. Prezident İlham Əliyevin iyun ayında imzaladığı sərəncamlar isə 2 milyon nəfərdən çox vətəndaşın əməkhaqqının və pensiyasının artımına əhəmiyyətli dərəcədə təsir göstərəcək.

Dövlət büdcəsində formalaşan əlavə gəlirlərin bilavasitə ölkə vətəndaşlarının sosial rifahına yönəldilməsi ölkənin kompleks iqtisadi inkişafı fonunda dövlət - vətəndaş etimad mühitini dərinləşdirməklə, aparılan sosial siyasətin alternativsiz olduğunu bir daha sübut edir.



Reallıqlar göstərir ki, Azərbaycan dövlətinin Heydər Əliyev siyasəti yaşayır, dövlətin inkişafına, xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycanın bugünkü və gələcək inkişafına, modernləşdirilməsinə hədəflənmiş səmərəli dövlətçilik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Respublikamızın gələcəyə gedən yolunun konturları isə aydındır. Bu baxımdan yeni inkişaf siyasətinin nəticələri bizə gələcəyə daha inamla və daha nikbin baxmağa imkan verir.

**Hadi RƏCƏBLİ,**
***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri***

1969 **AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ:** 2019

**qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf**

**Azərbaycan xalqının ən nadir və görkəmli şəxsiyyətlərdən biri, qüdrətli dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əlirza oğlu Əliyev müasir tariximizin parlaq səhifələrini yazmış, ölkəmizin inkişaf salnaməsində dərin iz qoyaraq sözün həqiqi mənasında onu qurub-yaratmışdır. Bu böyük şəxsiyyət bütün dövrlərdə titanik zəhməti, tükənməz enerjisi, işıqlı zəkası və qətiyyətli iradəsi ilə xalqının, vətəninin, dövlətinin xidmətində olmuşdur.**



# Uğurlu sahibkarlıq strategiyasının müəllifi

Xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin respublikamızda ilk dəfə siyasi rəhbərliyə başlamasından 50 il ötür. 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə respublikanın bütün sahələrində tamamilə yeni dövr başladı, böyük intibahın təməli qoyuldu. Ulu Öndərin təşəbbüskarlığı, əzmkar fəaliyyəti tezliklə Azərbaycanı keçmiş ittifaqın inkişaf etmiş respublikaları sırasına çıxardı. Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək əslində gələcəyin təməlini qoydu.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövr ölkəmiz və xalqımız üçün taleyüklü mərhələ, çətin sınaqların, böyük böhranın yaşandığı dövr idi. Onun sovet Azərbaycanına rəhbərlik illəri ölkə həyatında, sözün əsl mənasında, yeni bir intibah mərhələsinin başlanğıcı idi. Cəmi bir neçə il içərisində Azərbaycanı ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirdi.

1993-cü ildə ölkəmiz çətin sınaqlarla üz-üzə qalanda da xalq yeganə xilaskar kimi Heydər Əliyevi rəhbərlikdə görmək istədi. 26 il əvvəl, iyun ayında Naxçıvandan Bakıya gələn Heydər Əliyev öz zəkası, müdrikliyi və qətiyyətilə respublikamızı məhv olmadan xilas etdi, müstəqilliyimizi qorudu, müasir Azərbaycan dövlətinin müəllifinə çevrildi.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə çağdaş tariximizdə keyfiyyətcə yeni dövrün, Azərbaycanda müstəqil dövlət quruculuğuna doğru aparan böyük yolun başlanğıcı qoyuldu.

Prezidentliyi dövründə Heydər Əliyev respublikada radikal islahatlar apardı, iqtisadiyyatı çökmüş ölkəni dirçəltdi, inkişaf etdirdi, qüdrətli dövlətə çevirdi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirdi. Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu.

1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi" - məşhur neft şirkətləri ilə hasilatın pay bölgüsünə dair anlaşma imzalandı. Bu, keçmiş Sovet İttifaqı məkanında bu cür ilk və ən iri kontrakt idi. "Əsrin müqaviləsi" Azərbaycan üçün həyati əhəmiyyətə malik olub, eyni zamanda ölkədə daxili sabitliyin bərqərar olmasına və xarici siyasətdə uğurlar qazanılmasında da həlledici rol oynayıb. Müqavilənin imzalanması mərasimində çıxış edən Heydər Əliyev demişdi: "Bu müqavilənin hazırlanmasında və imzalanmasında iştirak etdiyim üçün özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti yaxşı dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcək". Bu layihənin təşəbbüskarı olan Heydər Əliyev Azərbaycana böyük məbləğdə Qərb sərmayəsi cəlb etdi və bunun nəticəsində yeni iş yerləri açıldı, bir neçə yataqların inkişafına nail olundu. Heydər Əliyev Azərbaycanın postsovet məkanında ən yüksək səviyyədə görünməmiş iqtisadi inkişafını təmin etdi.

Həyata keçirilən sistemli tədbirlər sayəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmışdır.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafının əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" - deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Belə görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, Azərbaycanda Sahibkarlığın inkişafı ilə bağlı Dövlət Proqramı təsdiq olunmuşdur.

Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən çox qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir.

Məhz bu görüşlərin və görülmüş işlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını, intellektual resurslarını, insan kapitalının güclərini yönümündə səfərbər etmişdir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir.

Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlığın böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar hüquqi-siyasi istiqamətdə də həyata keçirilməklə sahibkarlığın inkişafına güclü təkan verir.

Prezident İlham Əliyev yerli sahibkarlara müraciət edərək demişdir: "Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz". Sahibkarlığın inkişafına münasibətdə bu cür mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətlidir.

2019-cu il aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlığa bağlı olmuşdur. "Son vaxtlar Azərbaycanda güclü sahibkarlar sinfi formalaşıb. Mən sahibkarları daim dəstəkləyirəm, sahibkarlarla çoxsaylı görüşlərdə onlara öz dəstəyimi ifadə edirəm, dövlət onları dəstəkləyir, həm güzəştli kreditlərlə, həm tövsiyələrlə və yaradılmış şəraitlə. Əgər infrastruktur layihələri olmasa idi, sahibkar investisiya qoya bilməzdi. Əgər işıq, qaz, yol yoxdursa, hansı sahibkar harasa vəsait qoya bilər. Biz bunu yaratdıq, üstəlik kreditlər də verdik. Ona görə sahibkarlar bundan sonra da fəal olmalı və yeni müəssisələr, iş yerləri yaratmalı, iqtisadiyyatın ayrı-ayrı sahələrinə daha çox investisiya qoymağa dövlətin yükünün azaldılmasına çalışmalıdırlar. Belə sahələrdən biri də tikinti sahəsidir. Sahibkarlar bu sahəyə daha çox investisiya qoymalı, on minlərlə insanın işlə təmin olunmasına çalışmalıdırlar".

Prezident İlham Əliyevin uğurlu il kimi qiymətləndirdiyi 2019-cu ildə özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər, islahatlar davam etdirilir.

Bu ilin beş ayı ərzində ümumi daxili məhsulun 3 faiz, qeyri-neft sektorunda sənaye istehsalının 15,0 faiz artması dövlətin apardığı mütərəqqi iqtisadi-siyasətin bariz nümunəsidir.

2019-cu il Azərbaycan üçün mühüm sosial islahatların və uğurlu iqtisadi layihələrin reallaşdığı il kimi tarixə düşə bilər. Prezident İlham Əliyevin söylədiyi kimi, əgər geridə qoyduğumuz 2017-ci ili iqtisadi sabitləşmə, 2018-ci ili dərin iqtisadi islahatlar ili kimi başa vurmuşuqsa, bu il daha çox sosial sahədə inqilabi islahatların reallığa çevrildiyi tarix kimi yaddaşlara yazılacaq.

Təkcə fevral ayında bunu şərtləndirən amillərə nəzər yetirsək görərik ki, İlham Əliyevin bir ayda imzaladığı 8 sərəncam, 4 fərman ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılmasına, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edib.

Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Bu baxımdan dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları vətəndaş rifahı naminə atılan mühüm addımlardır.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu qeyd edən Prezident İlham Əliyev demişdir: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir".

Görülən işlərə əsasən deyə bilərik ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından əvvəlki illərdən fərqlənən il olacaq.

Dövlət başçısı fevralın 28-də "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzaladı. Problemli kreditlərin əhalinin xeyrinə həlli istiqamətində hazırlanan bu sənədə əsasən narahatçılığa son qoyuldu.

Prezidentin bu fərmanı ilə 800 min nəfərin kredit problemi birdəfəlik həll edildi. Bu fərman sahibkarlarla bank arasında etimad mühitini bərpa etdi, məhkəmə çəkişmələri sahibkarın xeyrinə həll olundu.

Təbii fəlakət və digər hadisələr nəticəsində zərərçəkmiş sahibkarlara dəymiş ziyanın hesablanaraq kompensasiya ödənilməsi, eyni zamanda onlara güzəştli şərtlərlə kreditlərin verilməsi, habelə onların qısa müddətdə işlə təmin edilməsi bir daha təsdiq etdi ki, ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman sahibkarın yanındadır.

Aparılmış islahatların nəticələri beynəlxalq hesabatlarda da öz əksini tapmış, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan Respublikası 2016-cı illə müqayisədə 38 pillə irəliləyərək 2019-cu ildə 25-ci yerə yüksəlməyə nail olmuşdur.

Reallıq da göstərir ki, son 16 ildə respublikada uğurla həyata keçirilən siyasət, ilk növbədə, ölkədəki ictimai-siyasi sabitliyin möhkəmləndirilməsinə, Azərbaycanın demokratik və sosial-iqtisadi inkişafı məqsədinə yönəlmişdir. Bu dövrdə inkişaf sürətlənmiş, ümumi daxili məhsul istehsalının artım tempinə görə Azərbaycan dünyanın lider dövlətlərindən birinə çevrilmişdir.

Artıq sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Belə ki, son illər regionların sosial-iqtisadi problemlərinin həllində özəl sektora üstünlük verilir.

Bu ilin yanvarın 29-da regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev bir daha bu uğurları dəyərləndirdi. Dövlət proqramının icrasının təmin edildiyini vurğulayan dövlət başçısı son 15 il ərzində Azərbaycan iqtisadiyyatının dünya miqyasında rekord templərlə inkişaf etdiyini söylədi. 15 ildə ümumi daxili məhsulun 3,2 dəfə artması dünya miqyasında rekord göstəricidir.

Növbəti illərdə də regionlarda sahibkarlığın inkişafını təmin etmək məqsədilə Prezident yanvar ayının 29-da "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərman imzalamışdır.

Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 16 il ərzində artması nəticəsində özəl sektorda iş yerlərinin əsaslı şəkildə artması bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

Bu tədbirlərdən biri də sahibkarların güzəştli kreditlərlə təmin edilməsidir. İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına indiyədək investisiya layihələrinin ümumi dəyəri 5,1 milyard manat olan 35 mindən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verilmişdir.

2019-cu ilin əvvəlindən bu günədək 463 sahibkara ümumi dəyəri 175,7 milyon manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə 46 milyon manat güzəştli kredit verilmişdir. Həmin investisiya layihələrin reallaşdırılması 1800-dək iş yerinin yaradılmasına imkan yaradır. Güzəştli kreditlərin 68 faizi aqrar sektorun, ümumilikdə isə 75 faizi regionların payına düşür.

Ümumiyyətlə, son illərdə sahibkarlıq fəaliyyətinə başlamaq üçün əlverişli şərait yaradılmış, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılmış, lisenziyalar müddətsiz müəyyən edilmiş, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda 4 dəfə azaldılmışdır. Əvvəllər müxtəlif sahibkarlıq fəaliyyətlərinə bütünlükdə 330 icazə tələb olunurdusa, "Lisenziyalar və icazələr haqqında" qanunun qüvvəyə minməsi ilə bütün icazələr vahid sənəddə göstərilir, onların sayı 86-ya endirilmişdir.

Ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunun tətbiqindən sonrakı 38 ay ərzində vergi yoxlamaları istisna olmaqla cəmi 640 yoxlama keçirilib. Müqayisə üçün qeyd edək ki, yoxlamaların dayandırıldığı 2015-ci ilin 1 noyabrından əvvəlki 38 ay ərzində sahibkarlıq subyektlərində 185 mindən çox yoxlama keçirilmişdir.

İnvestisiya təşviqi sənədinin iqtisadiyyata sərmayələrin cəlb edilməsində əhəmiyyətli mexanizm olduğunu nəzərə alaraq, 2019-cu ilədək sahibkarlara investisiya dəyəri 2,8 mlrd. manatdan çox olan layihələr üzrə 333 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 2188 təsdiqedici sənəd verilib. Layihələrin 41 faizi kənd təsərrüfatı, 59 faizi sənaye sahələrini əhatə edir. Bu layihələrin reallaşması nəticəsində 22 minə yaxın iş yerinin açılacağı gözlənilir.

Prezident İlham Əliyev tərəfindən ötən il dekabrın 25-də "Sahibkarlara mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" fərmana edilən dəyişikliklərdən sonra prosedurların sayı 2-yə, elektrik şəbəkəsinə qoşulma müddəti 20 günə endirilib. Hazırda tələbatı 150 kilovata qədər olan fəaliyyət sahəsini elektrik şəbəkəsinə qoşdurmaq üçün sahibkarın "KOB evləri", "ASAN Kommunal" və "ASAN xidmət" mərkəzlərinə müraciət etməsi kifayətdir.

Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində hədəf indikatorlardan biri kimi adambaşına qeyri-neft ixracının 2025-ci ildə ən azı 450 ABŞ dollarına çatdırılması müəyyənləşdirilib. Bu, isə azı üç dəfədən çox artım deməkdir.

Qəbul edilən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin qarşısında duran vəzifələrdən biri də kiçik və orta sahibkarlığın inkişafı məsələsidir.

Bunu nəzərə alaraq Azərbaycan Prezidenti "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" fərmana əsasən, İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin qarşısında qoyulan əsas vəzifə ölkədə kiçik və orta sahibkarlığın inkişafı iqtisadiyyatda rolunun və əhəmiyyətinin, rəqabət qabiliyyətliliyinin artırılması, inkişafının dəstəklənməsi, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Hazırda kiçik və orta sahibkarların ümumi daxili məhsulda payının 15 faizə, qeyri-neft ixracında 10 faizə çatması üçün əhəmiyyətli islahatlar həyata keçirilməkdədir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır.

Azərbaycan Sahibkarlar Konfederasiyası da ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq uğurları dəyərləndirir, müasir çağırışları dərindən təhlil edir. Silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini quraraq, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir, sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi iş aparır.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabər hüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları, habelə digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda, investisiya qoyulmasında kömək göstərir.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Heydər Əliyev yolu - müstəqil Azərbaycan dövlətinin və xalqımızın əbədiyyət yoludur. Prezident İlham Əliyev həmin parlaq yolun və böyük gələcəyin qüdrətli təminatçısı, mahir sükançısıdır. Aparılan məqsədyönlü siyasət müstəqil Azərbaycan dövlətini yeni və daha geniş magistrallara çıxarmağa uğurla xidmət edir. Ulu Öndərin formalaşdırdığı milli dövlətçilik ənənələri qorunur.

Ulu Öndərin Azərbaycanın gələcəyi ilə bağlı böyük ideallarının həyata keçirilməsi indi İlham Əliyevin missiyasıdır. Dövlət rəhbəri öz tarixi missiyasını əzmlə həyata keçirir. Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın timsalında Azərbaycan bəşəriyyətə sevgini, şəfqəti, xeyirxahlığı, maarifi, mədəniyyətlərarası dialoqu, sülh və tolerantlığı aşılayır, ölkələr və cəmiyyətlər arasında mənəvi körpüyə çevrilir.

Heydər Əliyevin zəngin irsinə nəzər salan hər kəs onun ölkə üçün gördüyü nəhəng işləri, dəyərli və əzəmətli ideyalarının həyata keçirilməsini hiss edir, bunun təzahürünü daha aydın və dərindən dərk edir. Hamı bu həqiqəti qəbul edir ki, Azərbaycanın müstəqillik illəri ərzində həyatımızın bütün sahələrində əldə olunmuş uğurlar məhz Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Tarixdə nadir şəxsiyyətlərdən biri kimi iz qoyan Ümummilli Liderin xidmətləri və keçdiyi ömür yolu haqqında çox deyilsə də, bundan sonra da bu mövzuya çox müraciət olunacaq, onun zəngin irsi dərin, əhatəli, ətraflı elmi əsaslarla öyrənilərək gələcək nəsillərə çatdırılacaqdır. Ulu Öndər qısa müddətdə Azərbaycan xalqının, Azərbaycanın adını uca zirvələrə qaldırmış, hər yerdə onu layiqincə təmsil etmişdir.

Heydər Əliyevin gələcək üçün nəzərdə tutduğu iqtisadi ideyalar və arzular gerçəkliyə çevrilir. Odur ki, Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqlar.

Bir sözlə, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - azərbaycanlı kimi əbədi həkk olunub və hər zaman dərin hörmətlə, ehtiramla anılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

Ötən 50 ildə əldə olunan nailiyyətlər qarşıdakı onilliklərdə gerçəkləşəcək möhtəşəm inkişafın etibarlı bünövrəsidir. Bu təməli qorumaq, möhkəmləndirmək, gələcək nəsillərə ötürülməsini təmin etmək, Azərbaycan sahibkarlarının da başlıca məramıdır. Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirən sahibkarlar və Sahibkarlar Konfederasiyası Azərbaycan iqtisadiyyatının sahibkarlığın rolunun inkişaf etdirilməsində əllərindən gələni edəcək.

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti***

1969 AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2019



# Ulu Öndərin 50 ildə yaratdığı unudulmaz tarix

**Qədim yunanlar əsl şəxsiyyətə dünyanın möcüzələrindən biri kimi baxardılar. Çağdaş dövrün reallıqları ilə qədim yunanların yaşadıqları şərait arasındakı zaman məsafəsi artıq bütöv eralarla ölçülsə belə, maraqlıdır ki, bu fərq şəxsiyyətin cəmiyyət həyatındakı roluna münasibətdə ciddi dəyişikliklər yaratmayıb. Biz - XXI əsrin insanları da əsl şəxsiyyət qüdrətinin yaratdığı möcüzələrə heyran qalmaya bilmirik.**

Ötən əsrin yetişdirdiyi ən böyük dövlət xadimlərindən olan Ümummilli Lider Heydər Əliyevin xalqımız, dövlətimiz üçün formalaşdırdığı zəngin irs tarixin və taleyin bizlərə xoş bir lütfüdür.

Heydər Əliyev xalqımızı milli dövlətçilik ideyaları ətrafında birləşdirərək mürəkkəb geocoğrafi məkanda Azərbaycan kimi müstəqil dövlət qurdu. Ümummilli Lider bu dövlətin parlaq gələcəyini təmin etməklə tarixin ayrı-ayrı dönəmlərində bir çox siyasi xadimlərimizin tam axıra çatdıra bilmədikləri şərəfli missiyanı yerinə yetirdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində parçalanaraq dünya xəritəsindən silinmək təhlükəsi ilə üzləşən, kövrək əsaslara malik zəif bir ölkəni qısa zaman ərzində Cənubi Qafqaz regionunun ən qüdrətli ölkəsinə çevirdi. Azərbaycan insanında milli dövlətçilik təfəkkürü formalaşdırdı. Böyük öndərimizin müəyyənləşdirdiyi strateji inkişaf kursu müstəqil Azərbaycan dövlətinin aydın gələcəyinin təminatçısı oldu. Bütün bunlar tarixdir. Və bu tarix 50 il əvvəldən və mahiyyəti ilə Azərbaycanın milli dövlətçilik salnaməsinə çevrilmiş konkret bir gündən başlanır - 14 iyul 1969-cu ildən.

O gündən ki Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumunun qərarı ilə 46 yaşlı Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi.

## Uğurlu seçim

Bu seçim təsadüfi deyildi. Hələ 1940-cı illərdə xüsusi xidmət orqanlarında fəaliyyətə başlayaraq zəkasının gücü, peşəkarlığı, enerjisi, prinsipiallığı və bir insan kimi yüksək mənəvi-əxlaqi keyfiyyətləri ilə vəzifə pillələrində addım-addım irəliləyən Heydər Əliyev ölkə rəhbəri vəzifəsinə ən uğurlu namizəd kimi keçmiş ittifaq mərkəzinin diqqətini çoxdan çəkmişdi. Ulu Öndər Azərbaycan rəhbərliyinə xüsusi xidmət orqanlarının kiçik rütbəli zabitindən Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə qədər çətin və şərəfli yol keçmiş, ağır sınaqlardan mətinliklə çıxmış şəxsiyyətin malik olduğu yüksək bilik və bacarıqlar, zəngin təcrübə ilə gəlmişdi.

Çalışdığı sahənin spesifikliyi Heydər Əliyevə çox gənc yaşlarından dünyanın hər üzünü görməyə, hadisələrin, proseslərin pərdəarxası məqamlarını duymağa, artıq bütün dünyada hakim ideologiyaya çevrilməkdə olan sovet ideologiyasının fəaliyyət üsulları və metodlarını müşahidə etməyə şərait yaradırdı. Dövlət təhlükəsizliyi orqanlarındakı işi gələcəyin böyük ictimai-siyasi xadiminin möhkəm xarakterini, dəmir məntiqini daha da cilalayır, iradəsini polad kimi möhkəmləndirir, eyni zamanda öz millətinin, yurdunun məftununa çevirirdi.

Heydər Əliyevin Azərbaycan xüsusi xidmət orqanlarına rəhbərliyi illərində DTK-da əvvəlki dövrlərdən köklü şəkildə fərqlənən ab-hava yaradılmış, əməliyyat fəaliyyətinə və onun səmərəli təşkilinə yeni, yaradıcı baxış formalaşdırılmışdı. Təhlükəsizliyin təminatında Azərbaycanın milli maraqlarının ön plana çəkilməsi, milli kadrların rəhbər vəzifələrə təyinatı, azərbaycanlı gənclərin xüsusi ali təhsil almaq üçün Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev şəhərlərinə göndərilməsi məhz Ümummilli Liderin adı ilə bağlıdır. General Ziya Yusifzadənin xatirələrindən oxuyuruq ki, Azərbaycan xüsusi xidmət orqanlarında milliyyətcə azərbaycanlı olan kadrların yerləşdirilməsi prosesi Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışdığı illərdə də, sonra Moskvada yüksək vəzifə tutanda da daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdur: "1980-ci ildə DTK-nın sədri təyin edildikdən sonra Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev mənə qəti göstəriş verdi ki, 1981-ci ildə 40 nəfər, 1982-ci ildə isə 30 nəfər azərbaycanlı gəncin DTK-ya işə götürülməsini təmin edim. Eyni zamanda tapşırdı ki, hər il yaşı 23-ə qədər olan, ordu sıralarında xidmət etmiş 20 nəfər azərbaycanlı gənci oxumaq üçün Dzerjinski adına SSRİ DTK-nın ali məktəbinə göndərim və onların məktəbi başa vurduqdan sonra Azərbaycana qayıtmalarını təmin edim".

## Dönüş nöqtəsi

Ulu Öndər Azərbaycan rəhbərliyinə çətin və mürəkkəb bir şəraitdə, respublikada sosial-iqtisadi həyatın, demək olar ki, tənəzzül etdiyi dövrdə gəlmişdi. Azərbaycan xalqının qurub-yaratmaq əzminə baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən ötən əsrin 60-cı illərində Azərbaycan iqtisadiyyatının bir çox sahələrində - həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyillər müşahidə olunurdu. Zamanın sürətinə uyğun məqsədyönlü tədbirlərin həyata keçirilməsi yubandığından respublikanın inkişafı ləngiyirdi. Bu da getdikcə əhalinin sosial vəziyyətinə pis təsir göstərirdi. İstehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, həmçinin milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan keçmiş ittifaq səviyyəsindən xeyli geridə idi.

Sovet rejiminin bütün xüsusiyyətlərinə, iş prinsiplərinə dərindən bələd olan, zəngin idarəçilik təcrübəsinə malik Heydər Əliyev ölkəni düşdüyü bu vəziyyətdən çıxarmaq üçün elə ilk günlərdən qəti addımlar atdı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli tərəqqisini təmin edəcək kompleks inkişaf proqramları işləyib hazırlatdı. Dərhal da bu proqramların icrasına başlandı. İlk addımlarından xalqın böyük rəğbəti ilə qarşılanan görkəmli siyasi xadim Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından, geniş imkanlarından istifadə edərək Azərbaycanın inkişaf siyasətini müdrikliklə həyata keçirdi. Sosial-iqtisadi, mədəni sahələrdə vətənin, xalqın tərəqqisi üçün zəruri olan məsələlər barədə ən yüksək səviyyələrdə mühüm qərarların qəbuluna nail oldu. Daha sonra bütün xalqı bu əhəmiyyətli qərarların icrasına səfərbər etdi.

Görülən işlərin müsbət nəticəsi kimi bütün önəmli sahələrdə vəziyyət yaxşılığa doğru dəyişdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri baş verdi. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi Azərbaycanın bütün SSRİ-də qabaqcıl mövqelərə çıxmasına, respublikanın sosial-iqtisadi həyatında yüksəlişə rəvac verdi.

## "Qoy ədalət zəfər çalsın!"

Öz nəslimə mənsub bir çox insanlar kimi, 1980-ci illərin əvvəllərində ali məktəbə, uşaqlıqdan arzusunda olduğum ixtisasa qəbul oluna bildiyimə görə məni böyüdüb boya-başa çatdırmış valideynlərim, əziz müəllimlərim, qarşıma çıxmış bütün xeyirxah insanlar kimi, Ulu Öndər Heydər Əliyevə də borcluyam. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişinə qədər bir çox nüfuzlu ali məktəblərin qapıları sadə zəhmət adamlarının övladlarının, maddi imkansız gənclərin üzünə bağlı idi.

Özümüzü xoşbəxt saya bilərik ki, bizim gəncliyimiz Heydər Əliyevlə başlandı. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi ilə cəmiyyətin bütün sferalarında olduğu kimi, ali təhsil sistemində də vəziyyət kökündən dəyişdi. Ali məktəblərə qəbulda bilik yeganə meyara çevrildi. İndiyə qədər qeyri-rəsmi səviyyədə yalnız imkanlı ailələrin övladları üçün nəzərdə tutulan nüfuzlu ixtisaslara gedən yol zəhmətkeş balaları üçün də açıq oldu. Yaşının erkən çağlarından valideynləri ilə birgə tarlada çalışıb alın təri tökən, bununla yanaşı dərs kitablarını da əlindən yerə qoymayan kolxozçu, fəhlə balaları da yüksək bilik hesabına öz ideallarına qovuşmaq üçün imkan qazandılar. Savadsız varlıların övladlarının tələbə adı qazanmaq imkanları məhdudlaşdı. Cəmiyyətdə haqq-ədalət öz yerini tutmağa başladı. Prinsiplərindən uzaq düşmüş sovet sisteminin ədalətsizliklərinə adət etmiş Azərbaycan insanı üçün bu, gerçəyə çevrilmiş nağıla bənzəyirdi.

Ötən əsrin 70-ci illərinin sonunda "Literaturnaya qazeta"ya verdiyi məşhur "Qoy ədalət zəfər çalsın!" sərlövhəli müsahibəsində respublikanın həyatı ilə bağlı ən müxtəlif məsələlərə toxunan Ümummilli Lider cəmiyyətdəki ədalətsizliklərə, hüquq mühafizə orqanlarındakı nöqsanlara, ən başlıcası, vətəndaşların hüquq və azadlıqlarının təminatı sahəsində mövcud olan problemlərə toxunmuş, onların həlli yollarını göstərmişdir. Bu müsahibə ittifaq miqyasında şok effekti yaratmış, hətta xarici mətbuatda həmin müsahibə ilə bağlı materiallar yayılmışdı.

Azərbaycana rəhbərlik edən şəxsin bu cür cəsarətli mövqeyi o dövrdə imperiya rəhbərlərinə qətiyyən xoş gəlməsə də, həmin şəxslər Heydər Əliyev dühasının xalq arasındakı hörmət və nüfuzu qarşısında susmağa, onunla hesablaşmağa məcbur olurdular. Ulu Öndər Heydər Əliyev çox sonralar "Literaturnaya qazeta"ya verdiyi məşhur müsahibəsini xatırladaraq deyirdi: "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmağıma baxmayaraq, mən həmin müsahibədə sovet hakimiyyətinin, cəmiyyətinin işində olan mənfi halların hamısını açıq göstərmişdim. Xatirimdədir, o vaxt Andropov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, həm də Siyasi Büronun üzvü idi. O, bir neçə gündən sonra mənə telefon etdi. Dedi ki, sənin bu müsahibən böyük bir sensasiya yaradıbdır. Soruşdum ki, nə mənada? Cavab verdi ki, müsbət də var, mənfi də var. Soruşuram ki, nəyi müsbətdir, nəyi mənfidir? Deyir, müsbət odur ki, insanlar bizim cəmiyyətdəki bu yaraları görürlər və sevinirlər ki, kimsə cəsarət edib bunları açıq deyir. Özü də bunu aşağıda yox, ən yüksək vəzifədə çalışan bir adam deyir. Amma bunun əleyhinə olanlar da var. Soruşuram ki, niyə? Bildirir ki, çünki onlar bunun açılmağını istəmirlər. O vaxt bir çox belə yazılar olub".

## İnsan kapitalı

Heydər Əliyev cəmiyyətdə yeni qaydalar formalaşdırırdı. İndiyə qədər məqam sahiblərinin özbaşınalığına, bürokratiyaya, korrupsiya hallarına, xalq malını mənimsəyən müftəxorların xalqın sıravi nümayəndələri ilə təhqiramiz rəftarına bir növ adət edən vətəndaşlar ilk dəfə görürdülər ki, uzun illər boyu cəmiyyətdə toxunulmazlıq statusu qazanmış zümrənin təmsilçiləri də sıravi insanların haqlarını pozduqlarına görə ən sərt formada cəzalandırıla bilərlər. İnsanlarımız öz həyatlarında nəyinsə müsbətə doğru dəyişdiyini görür, bu mütərəqqi dəyişiklikləri yüksək qiymətləndirirdilər.

Həmin dövrdə ictimai mühitin inkişafı, milli ruhun əsarətdən xilası, xalqın həyatının mahiyyətini təşkil edən bütün elementlərin sağlamlaşdırılması işi də geniş müstəvidə, böyük vətənpərvərliklə həyata keçirilirdi. O zaman Bakını kosmopolit kadr bazasının əlindən alıb milli ruhlu kadrlara vermək, eyni zamanda elmi-texniki tərəqqinin nailiyyətlərinin bütün sferalarda uğurlu tətbiqi üçün uyğun baza yaradılması tələb olunurdu. Ona görə də Heydər Əliyev ölkə rəhbərliyinə gələn kimi özünün aktiv təhsil və kadr konsepsiyasını irəli sürdü. Həmin dövrdə minlərlə gənc respublika üçün xüsusilə gərəkli, nadir ixtisaslar üzrə təhsil almaqdan ötrü keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə - Moskvaya, Sankt-Peterburqa, Kiyevə, Xarkova, Minskə, Voronejə göndərildi. Bu, xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən vacib ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması, iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsinin genişləndirilməsi, hərbi təhsilin inkişafına diqqət bunun təzahürü idi. Azərbaycana birinci rəhbərliyi dövründə Ulu Öndərin şəxsi təşəbbüskarlığı, qətiyyəti və iradəsi sayəsində ölkə üzrə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilmişdi. Bu illərdə respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, bu təhsil ocaqlarında oxuyan tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdı.

Heydər Əliyevin respublikaya rəhbərliyinin ilk illərindən başlayaraq hər tədris ilində yüzlərlə azərbaycanlı ittifaqın ən nüfuzlu ali məktəblərinə, iqtisadiyyat, hüquq, diplomatiya, dövlət idarəçiliyi, beynəlxalq münasibətlər və s. kimi mühüm elm sahələrinə təhsil almağa göndərilirdi. Təsadüfi deyil ki, o dövrdə SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından ciddi narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüş, Bakıda milli hərbi kadrlar hazırlayan Cəmşid Naxçıvanski adına məktəb fəaliyyətə başlamışdı. Bütün bunlar Heydər Əliyev tərəfindən Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılması səmtində atılmış son dərəcə cəsarətli addımlar idi.

## "Şərq ulduzu"

Zəmanəsinin böyük mütəfəkkir şəxsiyyətlərindən biri kimi, Heydər Əliyev yaxşı bilirdi ki, qarşıya qoyulmuş ümummilli məqsədlərə doğru yol xalqın yüksək təhsil almasından, maariflənməsindən, ölkədə elmə, alimə, müəllimə, məktəbə verilən dəyərdən keçir. Bəşəriyyətin çoxəsrlik təcrübəsi göstərir ki, elmə, təhsilə qiymət verməyi bacaran xalqlar və dövlət başçıları öz ölkələrinin sürətli inkişafını təmin etmiş olurlar. Heydər Əliyev dühasının böyüklüyü də məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır.

Təsadüfi deyil ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər elmimizin, təhsilimizin intibahı dövrü kimi xatırlanır. Ulu Öndərin yürütdüyü siyasətin dərinliyi və uzaq hədəflərə hesablanması da məhz onun əsaslı, elmi prinsiplər üzərində qurulmasından, zəngin intellektual potensiala əsaslanmasından irəli gəlirdi.

Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi 1969-1982-ci illər ölkə iqtisadiyyatında sosial həyatın, ana dilimizdən mədəniyyətimizin ən müxtəlif sahələrinə qədər tam yüksəliş dövrü idi. Ulu Öndər doğma xalqına, millətinə bu yüksək diqqət və qayğısını keçmiş SSRİ-nin ali rəhbərlərindən biri kimi Moskvada çalışdığı illərdə də davam etdirirdi. Həmin illərdə mərkəzdən Azərbaycana ayrılan vəsaitlərin həcmi dəfələrlə artırılmış, respublikada aparılan quruculuq işlərinə daha münbit zəmin yaradılmışdı. O, bu vəzifədə təkcə Azərbaycan xalqının himayədarı deyildi. Heydər Əliyev keçmiş SSRİ məkanında bu pilləyə yüksəlmiş yeganə türk-müsəlman lideri idi. 1982-1987-ci illərdə çox tez-tez müsəlman ölkələrinə səfərlər edir və bu səfərlər Misir, Liviya, Pakistan, İordaniya, İraq və digər ölkələrin müxtəlif problemlərinin həllinə çox böyük fayda verirdi. Təsadüfi deyil ki, həmin illərdə xarici mətbuat səhifələrində Heydər Əliyevin timsalında "Moskvada parlayan Şərq ulduzu" barədə yazılar dərc edilirdi. Milyonlarla insan üçün Ulu Öndər o dövrdə də böyük qürur mənbəyi idi...

## Cəsarət anı

Tarixə adını qanlı diktator kimi yazmış M.S.Qorbaçov və ətrafı Heydər Əliyevin onlardan qat-qat üstün siyasətçi, dövlət rəhbəri, diplomat olduğunu dərk edirdilər. Keçmiş ittifaqda "yenidənqurma" adı altında aparılan, əslində dağıdıcılıq fəaliyyəti ilə sezilən siyasətin müəllifləri şübhəsiz ki, ilk növbədə peşəkarları, qabiliyyətli insanları hədəfə almalı idi və belə də oldu. Onlar öz məkrli niyyətlərinə çatdılar. 1987-ci ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü vəzifəsindən istefaya göndərildi. Və bununla da Azərbaycanın bəlalı günləri başlandı. Ulu Öndərin yüksək dövlət postlarından kənarlaşması ilə ermənilərin Azərbaycana qarşı ərazi iddialarına başlamaları arasındakı vaxt heç 15 gün çəkmədi. Həmin dövrdə artıq təqaüdçü həyatı yaşayan və hər bir addımı gizli nəzarət altına alınan Heydər Əliyev ən məhdud imkanlardan belə yararlanaraq bu iddialar ətrafındakı əsl həqiqətlərin dünyaya çatdırılmasına can atırdı. Dağlıq Qarabağ münaqişəsinə görə bütün məsuliyyətin Sov.İKP-nin, şəxsən Qorbaçovun üzərinə düşdüyünü açıq şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa çalışırdı.

Azərbaycanın ovaxtkı rəhbərliyinin isə mərkəzə yarınmaq üçün yürütdüyü antimilli siyasət, göstərdiyi qətiyyətsizlik respublikadaxili ictimai-siyasi sabitliyi son dərəcə kəskinləşdirirdi. Bu siyasətin məntiqi nəticəsi olan 1990-cı ilin 20 Yanvar hadisəsi bütün dünyaya sübut etdi ki, sovet rəhbərliyi və onun yerlərdəki əlaltıları Azərbaycan xalqına, dövlətinə qarşı ən ağır cinayətlər törətməkdən belə çəkinmirlər. Bu faciənin səhəri günü Heydər Əliyev bütün təhdidlərə, hətta həyatına qarşı sui-qəsd təhlükəsinə baxmayaraq ailə üzvləri ilə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib burada təşkil olunmuş mitinqə qatıldı. Faciənin miqyasından nə edəcəyini bilməyən toplumun önünə düşdü. Keçirdiyi mətbuat konfransı ilə bu qanlı hadisənin əsl səbəbkarlarını bütün dünyanın gözləri önündə ifşa etdi.

## O, Azərbaycanı xilas etdi

"Mən ya vətənimin rifahı üçün yaşamalı, yaxud da onunla birlikdə məhv olmalıyam". Roma filosoflarından Sisserona aid edilən bu kəlam Heydər Əliyevin fəaliyyət devizi, bir siyasət adamı kimi qarşıya qoyduğu dəyişməz prinsip idi. Elə bu prinsiplə də o, Azərbaycanın ağır günlərində vətənə döndü. Ölkənin, xüsusilə acınacaqlı vəziyyətdə yaşayan respublikanın ovaxtkı rəhbərliyinin, demək olar ki, yaddan çıxardığı, soyuq münasibət üzündən hər an itirilmə təhlükəsi ilə üz-üzə qalmış Naxçıvana gedib orada yaşamağa başladı. Bu tarixi şəxsiyyətin Naxçıvana gəlişi blokada şəraitində dözülməz problemlərlə baş-başa qalmış doğma diyarın sakinlərinə ruh verdi. Sonsuz ümidsizliyə qapılmış insanların ürəyində ümid çırağı yandı. Qısa müddətdən sonra insanların istəyi və yekdil qərarı ilə Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin bu məkanda apardığı islahatlar böyük nəticələr verməyə başladı.

Onda müstəqilliyini yenicə qazanmış Azərbaycan tarixinin, demək olar ki, ən ağır günlərini yaşayırdı. Tez-tez dəyişən səriştəsiz hakimiyyət respublika həyatının bütün sahələrində dözülməz şərait yaratmışdı. Quduzlaşan ermənilər Azərbaycana qarşı ərazi iddialarını artıq bir neçə il idi ki, silah gücünə həyata keçirirdilər. Rayonlarımız bir-birinin ardınca işğal olunurdu. Ölkə ağır sosial-iqtisadi böhranla üzləşmiş, cəmiyyət demək olar ki, başını itirmişdi. İnsanlar bir parça çörəyin dərdində idilər. Azərbaycanın müxtəlif bölgələrində xarici qüvvələrin təhriki ilə separatizm meyilləri baş qaldırırdı. Vəziyyət bu şəkildə davam edəcəyi təqdirdə respublikanın parçalanması labüd görünürdü. İnsanlar müstəqilliyə, ölkənin suveren dövlət kimi gələcəyinə ümidlərini itirmişdilər. Kiçicik bir təsadüf kifayət edərdi ki, Azərbaycan dünyanın siyasi xəritəsindən tamamilə silinsin. Belə bir vaxtda Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı, təcrübəli strateq kimi, dövlətçilik sükanı arxasına keçməsi Azərbaycanı bu bəlalardan hifz etdi.

## Tarixə baxış

Heydər Əliyev öz şəxsi nüfuzu, bir dövlət adamı kimi zəngin təcrübəsi sayəsində ölkədə vətəndaş qarşıdurmasını aradan qaldırdı. Separatizm meyillərinin qarşısını aldı. Azərbaycan insanının istiqlal, milli dövlətçilik ümidlərini özünə qaytardı və həmin insanlarla birgə arzulardakı o dövləti qurub yaratmağa başladı. Ulu Öndər bütün çətinliklərə, maneələ rəğmən liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolunda ilk addımlarını atdı. Cəmiyyətdə ictimai-siyasi sabitliyi bərqərar etdi. Siyasi mübarizəni başıpozuq firqələr arasındakı silahlı atışmalardan sivil müstəviyə gətirdi. Qanunsuz silahlı birləşmələri ləğv etdi, hər kəsə dövlətin gücünü, qətiyyətini göstərdi. Güclü, nizami ordu qurmağa başladı. Dünyanın aparıcı şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi", bu müqavilədən sonra həyata vəsiqə qazanan qlobal enerji-kommunikasiya layihələri Azərbaycanın gələcəyinə yol açdı. Ümumilikdə regionun mənzərəsini dəyişdi.

1995-ci ildə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası demokratik, hüquqi dövlət quruculuğu prosesinin manifesti oldu. Ölkədə azad bazar iqtisadiyyatı prinsipləri öz yerini tutdu, vətəndaş cəmiyyəti formalaşdı, ifadə azadlığı təmin edildi. Heydər Əliyevin 1993-cü ildən başlayaraq ölkədə apardığı islahatlar, müstəqil dövlətçilik tariximizdə yaratdığı parlaq nəticələr haqqında çox yazmaq, ətraflı təhlillər aparmaq olar. Amma bu nəticələri, tarixi nailiyyətləri Ulu Öndərin özündən gözəl, parlaq və mükəmməl şəkildə ifadə etmək mümkün deyil. Heydər Əliyev müstəqil dövlətimizin onun rəhbərliyi altında qısa müddət ərzində qazandığı tarixi nailiyyətləri qısaca olaraq belə dəyərləndirmişdi: "Tarixən çox qısa müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq, liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən biri olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəalarının üçdə biri insan haqlarının və əsas azadlıqlarının qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemini yaratdıq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik. Bir sıra mühüm siyasi və iqtisadi islahatlar apardıq və aparırıq".

## Tarixin ən qüdrətli Azərbaycanı

Ulu Öndər Azərbaycanda elə bir siyasi kursun əsasını qoydu ki, bu kurs Azərbaycan durduqca ölkəmizin dövlətçilik konsepsiyası kimi daim yaşayacaq. Heydər Əliyev ideyalarının davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi bu kursun 2003-cü ildən ölkə və cəmiyyət həyatına gətirdiyi tarixi nailiyyətlər bir daha bunu təsdiqləyir.

2003-cü ildə "Zəngin və qüdrətli Azərbaycan uğrunda" çağırışı ilə milyonları ətrafında toplayan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti ilə Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesini öz məntiqi hədəfinə qovuşdurdu. Tarixin ən qüdrətli Azərbaycanını qurdu.

Dövlət rəhbərimizin həyata keçirdiyi inkişaf konsepsiyası ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etdi. Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurlarını davam etdirməklə Azərbaycan Prezidenti qloballaşan dünyanın çağırışlarına uyğun daha güclü, təkmil iqtisadi model formalaşdırdı.

Cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən regional inkişaf proqramları bölgələrlə paytaxt arasındakı inkişaf fərqini aradan qaldırdı. Həyata keçirilən tikinti-abadlıq tədbirləri Azərbaycanın simasını dəyişdi. Ölkədə sosial infrastruktur yeniləndi. Qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə şərait yarandı. Sahibkarlıq mühiti daha da yaxşılaşdırıldı. Ölkədə investisiya qoyuluşu genişləndi. Azərbaycan əlverişli biznes mühitinə görə beynəlxalq reytinqlərin öncül pillələrində qərarlaşdı. Həyata keçirilən inkişaf proqramları yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına, rifahının yüksəlməsinə, yoxsulluq səviyyəsinin azaldılmasına imkan verdi. Əhalinin sosial rifahının yaxşılaşdırılması, yeni istehsal sahələrinin açılması regionlarımızı da ümumi inkişaf prosesinin ən mühüm parçasına çevirdi. Azərbaycanda qüdrətli ordu formalaşdırıldı. Beynəlxalq informasiya savaşında işğalçı Ermənistanın mövqeləri zəiflədi. Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya yayıldı və beynəlxalq ictimai rəy ölkəmizin xeyrinə dəyişdi. Azərbaycan öz siyasəti ilə bütün dünyada sülhsevər, sivilizasiyalı ölkə kimi tanındı, Avropanın və dünyanın ən böyük və nüfuzlu dövlətləri ilə qarşılıqlı münasibətlər yaratmaq üçün ciddi iş aparıldı.

Xarici siyasət kursunda tarazlaşdırılmış konsepsiyaya üstünlük verən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Ölkəmizin dostlarının sayı çoxaldı, bizimlə müttəfiqlik etmək istəyənlərin sırasına yeniləri əlavə olundu. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanındı və qəbul edildi. Prezident İlham Əliyev Şərqlə Qərb arasındakı münasibətlər sistemində ölkəmizin özünəməxsus yerini daha da möhkəmləndirdi. Dövlət rəhbərimizin yürütdüyü siyasət və bu siyasətə dəstək olaraq Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən humanitar layihələr Azərbaycanı bütün dünyada mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm məkanı kimi tanıtdı.

Azərbaycanda elm, təhsil, bilik, fərdi inkişaf bir dəyərə çevrildi.

Bütün bunlar 50 il əvvəl təməli qoyulmuş siyasətin yaratdığı tarixdir.

1969-cu ilin 14 iyulundan Azərbaycanın gələcəyi üçün işığa çevrilmiş Heydər Əliyev ideyaları bu gün də həyata keçirilir və milli dövlətçilik tariximizin yeni möhtəşəm salnamələrini yazır.

**Alış QASIMOV,**
***professor***

# 1969 Azərbaycan tarixinin Heydər Əliyev dövrü: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2019





## Mənəvi dəyərlərin etibarlı keşiyində

### Mehman İsmayılov: "Əsas fəaliyyət istiqamətimiz maarifləndirmə, mənəvi-əxlaqi dəyərlərin təbliği, dini etiqad azadlığının təmin olunmasına dəstək verməkdir"

**Dünyada sürətlə qloballaşma gedir və bu proses Azərbaycandan da yan keçməyib. Amma qloballaşma heç də başqa millətlərə xas olan dini modellərin, adət-ənənələrin, milli mentalitetimizə xas olmayan dəyərlərin ölkəmizdə özünə yer tutması anlamına gəlmir.**

Sadəcə bu proses beynəlxalq əməkdaşlığı, səmimi dostluğu nəzərdə tutmaqla yanaşı, milli xüsusiyyətlərimizin, mədəniyyətimizin, milli özünəməxsusluğumuzun da qorunub saxlanılması ilə gedir. Çünki hər bir xalq, millət yalnız öz adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə sahib çıxaraq onu nəsildən-nəsilə ötürərək mövcudluğunu saxlaya bilər.






Elə bu məqsədlə də 2017-ci ildə Prezident İlham Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması ilə bağlı fərman imzalayıb. Nizamnaməyə əsasən, fondun fəaliyyətinin məqsədi Azərbaycanda dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir.

### Vətəndaşların dini etiqad azadlığının təmin olunmasına dəstək

Yarandığı qısa müddət ərzində Mənəvi Dəyərlərin Təbliği Fondunun həyata keçirdiyi işlər və qarşıda planlaşdırılan məsələlərlə bağlı ətraflı məlumat verən qurumun icraçı direktoru Mehman İsmayılov bildirir ki, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə kömək məqsədilə hər il ölkə üzrə ümumilikdə 1000 nəfərdən çox din xadiminə maddi dəstək göstərilir. Maddi dəstək müvafiq olaraq imamlara 450 manat, imam müavinlərinə 350 manat və mütəvəllilərə 250 manat məbləğində müəyyən edilib. Bundan əlavə, ötən il Prezident İlham Əliyevin sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fonduna ayrılmış 400 min manat vəsait əsasında 25 ədəd minik avtomobili alınıb və Azərbaycanda fəaliyyət göstərən dini icmaların balansına verilib. Həmçinin bu il Prezidentin müvafiq sərəncamı ilə fonda ayrılan 100 min manat vəsait əsasında qeyri-islam dini icmalarına maddi dəstək göstərilib.

### Tolerant Azərbaycan

Mehman İsmayılov söyləyir ki, ötən il fond tərəfindən məscidlərdə mənəvi dəyərlərimizin qorunması istiqamətində maarifləndirmə işinin aparılması zamanı innovativ yeniliklərdən istifadənin təmin edilməsi məqsədilə ölkə üzrə 200 məsciddə veb-kamera quraşdırılıb. Eyni zamanda fond dini etiqad sahəsində maarifləndirmə işinin aparılması istiqamətində də işlər görür, layihələr həyata keçirir. Belə layihələrdən biri "Vəhdət dəyərimizdir" adlanır. Layihə çərçivəsində ölkəmizin bir bölgəsindən olan din xadimlərinin digər bölgəyə səfəri təşkil olunur. Hər iki bölgənin din xadimləri üçün seminarlar keçirilir, tarixi-dini abidələr ziyarət edilir və birlikdə vəhdət namazı qılınır. Bu il ərzində hər biri 3 gün olmaqla 4 dəfə keçirilməsi nəzərdə tutulan layihənin əsas məqsədi ölkədə mövcud olan tolerant, multikultural mühitin, birgəyaşayış ənənəsinin qorunub-saxlanılması, vəhdətin, birliyin, dostluğun, qardaşlığın möhkəmləndirilməsidir: "Həmçinin fondun təşkilatçılığı ilə hazırda qeyri-islam dini icmaları ilə birlikdə "Tolerant Azərbaycan" layihəsi icra olunur. Layihə çərçivəsində aprel ayında Bakıda Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının fəaliyyətinə həsr edilmiş konfrans keçirilib. Növbəti tədbirlərin Bakı şəhəri Dağ Yəhudiləri dini icması və Alban-Udi Xristian dini icması ilə birlikdə keçirilməsi nəzərdə tutulur".

### Şagird və tələbələrin sosial maddi cəhətdən dəstəklənməsinə töhfə

"Əsas məqsəd mənəvi dəyərlərin təbliği olduğu üçün fondun fəaliyyət sferası olduqca genişdir", - deyə qeyd edən icraçı direktor məlumat verir ki, fond təhsil sahəsində də müxtəlif tədbirlər həyata keçirir, Təhsil Nazirliyi ilə əməkdaşlıq edir. Belə ki, ötən il məktəblilər arasında mənəvi dəyərlərin təbliği işinin gücləndirilməsi məqsədilə fondun təşkilatçılığı və Bakı şəhəri üzrə Təhsil İdarəsinin dəstəyi ilə Bakı məktəbliləri üçün "Mənəvi dəyərlərimiz məktəblilərin gözü ilə" mövzusunda inşa-yazı müsabiqəsi elan edilib, qaliblərə diplom və mükafat verilib. MDTF-nin təşkilatçılığı ilə həyata keçirilən daha bir layihə "Dəyərlərimizi öyrənək" adlı intellektual yarışların təşkilidir. Layihə çərçivəsində ölkənin 9 müxtəlif regionunda məktəblərin yuxarı sinif şagirdləri arasında intellektual yarışlar təşkil edilir, yarışlarda milli-mənəvi dəyərlərimiz, ümumi dünyagörüşü, Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti və digər mövzularda suallar səsləndirilir. Hazırda davam edən yarışlarda qalib gələn komandalar sonda final mərhələsində yarışacaq və qaliblər mükafatlandırılacaq. Bundan əlavə, hər il fondun təşkilatçılığı ilə "Yay məktəbi" təşkil olunur. "Yay məktəbi"ndə tələbələr və fondun könüllüləri üçün ekspertlərin iştirakı ilə müxtəlif mövzularda seminarlar keçirilir, intellektual yarışlar təşkil olunur, tarixi-mədəni abidələr ziyarət edilir. Bu məktəblərin təşkil edilməsində əsas məqsəd milli-mənəvi dəyərlərimizin inkişafında, maddi-mədəni irsimizin qorunmasında, həmçinin tarixən formalaşmış dəyərlərimizin gələcək nəsillərə ötürülməsində gənclərin, xüsusilə tələbələrin rolunu artırmaqdır: "Ötən il belə bir "Yay məktəbi" Qax rayonunda təşkil edilib, bu il isə İsmayıllıda tələbələr üçün, Qusarda isə könüllülər üçün keçirilməsi nəzərdə tutulub. Mənəvi Dəyərlərin Təbliği Fondu şagirdlər və tələbələrlə maarifləndirici tədbirlər keçirməklə yanaşı, onların sosial maddi cəhətdən dəstəklənməsinə də töhfə verir. Belə ki, ötən il cəbhə bölgəsində 1-ci sinfə gedəcək 100 nəfər uşağa məktəbli forması, çanta və dərs ləvazimatları hədiyyə edilib. Eyni zamanda təhsilalanların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə hər tədris ilində Azərbaycan İlahiyyat İnstitutunun tələbələrinə aylıq təqaüd verilir. Ötən il institutun aylıq təqaüd alan tələbələrinin sayı 20 idi, bu il artıq 30 tələbəyə aylıq təqaüd və bir tələbəyə "Heydər Əliyev təqaüdü" verilir".

### Fond KİV-lə əməkdaşlığını yüksək səviyyədə qurmağa çalışır

Mənəvi dəyərlərimizin təbliği istiqamətində kütləvi informasiya vasitələri ilə əməkdaşlıq barədə də məlumat verən Mehman İsmayılov vurğulayır ki, fond bu gün təbliğatın ən effektiv vasitələrindən olan KİV-lə əməkdaşlığını yüksək səviyyədə qurmağa çalışır: "Hazırda əməkdaşlıq etdiyimiz KİV-dən biri ASAN radiodur. Ötən ilin oktyabr ayından etibarən hər həftənin cümə axşamı saat 16:05-də birgə layihəmiz olan "Mənəvi dəyərlər" radioverilişi efirə gedir. Verilişlərə qonaq qismində dəvət olunan ekspertlər maraqlı mövzularla dinləyicilərin görüşünə gəlir. Həmçinin fond "Azərbaycan" qəzeti ilə də əməkdaşlıq edir. Qəzetdə ardıcıl olaraq fondun fəaliyyəti, həyata keçirdiyi tədbirlər işıqlandırılır, müxtəlif mövzularda məqalələr dərc edilir. Eyni zamanda gündəlik yenilənən internet saytımız da mövcuddur ki, fond fəaliyyətini bu sayt və sosial şəbəkələr vasitəsilə işıqlandırır. Bu il fond tərəfindən media nümayəndələri arasında Milli Mətbuat Gününə həsr edilmiş "Milli mətbuat - milli düşüncə" adlı məqalə müsabiqəsi elan edilib. Bundan əlavə, fondun dəstəyi ilə Bakı şəhərində fəaliyyət göstərən bir dini icma Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyi ilə əlaqədar "Şeyxülislam Allahşükür Paşazadə-70" adlı kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında məqalə müsabiqəsi elan edib. Hazırda davam edən müsabiqənin qalibləri pul və diplomlarla mükafatlandırılacaq".

### "Ulu Öndər Heydər Əliyev və mənəvi dəyərlər"

"Ötən il fondun dəstəyi ilə 51 müxtəlif adda kitab nəşr edilib, 3 sənədli film, 5 sosial videoçarx hazırlanıb. Bu il üçün isə 43 adda kitabın nəşri, 6 sənədli film və 6 sosial videoçarxın hazırlanması nəzərdə tutulub. Eyni zamanda dövlət-din münasibətləri, mənəvi dəyərlərin təbliği, eləcə də dini radikalizm, ekstremizm və fanatizmlə mübarizə sahəsində vətəndaşların maarifləndirilməsini təmin etmək məqsədilə fondun "Dini sorğu mərkəzi" yaradılıb" - deyən M.İsmayılov bildirir ki, maarifləndirmə işinə müxtəlif mövzularda konfransların, seminarların, "dəyirmi masa"ların keçirilməsi, həmçinin kitabların nəşrinə, sosial videoçarxların və sənədli filmlərin hazırlanmasına maddi vəsaitin ayrılması daxildir. Belə tədbirlər daha çox ailə, mənəviyyat, milli kimlik, tolerantlıq, azərbaycançılıq, vətənpərvərlik, milli-mənəvi dəyərlərimiz və digər mövzuları əhatə edir. Ötən ildən indiyədək ölkənin müxtəlif bölgələrində 100-ə yaxın konfrans, seminar və "dəyirmi masa" təşkil edilib. Bu tədbirlərdə mövzuya uyğun ekspertlərin mühazirələri dinlənilir, fondun dəstəyi ilə nəşr edilən kitablar paylanılır, filmlər və sosial videoçarxlar nümayiş olunur. Azərbaycançılıq ideologiyasının banisi, müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışını əbədiləşdirən 15 İyun - Milli Qurtuluş Günü münasibətilə bu ilin iyun ayında "Xilaskar" adlı konfrans təşkil edilib. İctimai-siyasi xadimlərin, millət vəkillərinin, dövlət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanan "Heydər Əliyev və azərbaycançılıq" adlı sənədli film nümayiş edilib. Fondun vətənpərvərliyin təbliği istiqamətində gördüyü işlərdən biri www.milliqahramanlar.az saytının yenidən qurulmasıdır. Belə ki, bu il adıçəkilən sayt fondun maliyyə dəstəyi ilə ən son standartlara uyğun yenidən qurulub və 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə "İstiqlal keşikçiləri" adlı konfransda təqdimatı keçirilib. Saytda Azərbaycanın bütün Milli qəhrəmanları haqqında ətraflı məlumatlar yer alıb: "Qarşıda həyata keçirilməsi planlaşdırılan maarifləndirici layihələrdən biri "Ziyalılarımızdan öyrənək" adlanır. Layihə çərçivəsində ölkənin müxtəlif regionlarında Azərbaycanın tanınmış ziyalıları ilə görüşlərin keçirilməsi nəzərdə tutulur. Bu il fond ölkə xaricində də maarifləndirmə istiqamətində bir sıra tədbirlər həyata keçirib. Belə ki, 7-10 may tarixlərində Azərbaycanın Gürcüstandakı səfirliyi və fondun birgə təşkilatçılığı ilə Gürcüstanda azərbaycanlıların yaşadığı Dmanisi, Bolnisi, Marneuli, Qardabani, Saqareco, Laqodexi rayonlarında və paytaxt Tbilisidə "Ulu Öndər Heydər Əliyev və mənəvi dəyərlər" adlı tədbir keçirilib"

### Yaxşılıq unudulmur

"Əsas fəaliyyət istiqamətləri maarifləndirmə, xeyriyyəçilik, yaxşı işlərin təşviqi, mənəvi-əxlaqi dəyərlərin təbliği, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə dəstək verməkdir" - söyləyən Mehman İsmayılov onu da əlavə etdi ki, mütəmadi olaraq hər il Ramazan və Qurban bayramlarında, eləcə də digər əlamətdar günlərdə şəhid ailələri və aztəminatlı ailələrə ərzaq yardımı edir, valideyn himayəsindən məhrum uşaqların məskunlaşdığı uşaq evlərini ziyarət edərək onlara müxtəlif hədiyyələr verir, Ramazan ayında şəhid ailələri, qazilər və aztəminatlı ailələrin iştirakı ilə iftar süfrələri təşkil edirlər. Bu il "Bir uşaq-bir ümid" layihəsi çərçivəsində Bakı, Gəncə, Şəki və Lənkəranda yerləşən uşaq evləri ziyarət edilib, uşaqlara müxtəlif hədiyyələr verilib, Bakıda yerləşən uşaq evinin 1-ci sinfə hazırlaşan sakinlərinə çanta və dərs ləvazimatları təqdim olunub. Bu layihə hazırda da davam edir. Bu il üçün hazırlanmış tədbirlər planına əsasən, qarşıdan gələn Qurban bayramında şəhid ailələrinə ərzaq yardımının verilməsi, eləcə də yeni tədris ilinin başlanması münasibətilə "Öndəki birincilər" layihəsi çərçivəsində cəbhə bölgəsində 1-ci sinfə gedəcək 200 nəfər uşağa məktəbli forması, çanta və dərs ləvazimatlarının hədiyyə edilməsi nəzərdə tutulur: "Fond olaraq müxtəlif xeyriyyə tədbirləri həyata keçirməklə yanaşı, cəmiyyətdə xeyriyyəçilik ənənələrinin yaşadılması, yaxşı işlər görməyin təbliği və təşviqi istiqamətində də layihələr icra edirik. Hazırda davam edən "Yaxşılıq unudulmur" adlı layihəmiz müsabiqə formatındadır. KİV-lə elan etdiyimiz bu layihənin şərtləri çox sadədir. Vətəndaşlar onlara edilən və yaxud şahidi olduqları bir yaxşılığı və bu yaxşılığın müəllifinin kimliyini bizə hər hansı vasitə ilə çatdırır, biz də o yaxşılığın sahibini mükafatlandırırıq".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" monoqrafiyasının təqdimatı keçirilib



UNEC-də Azərbaycan Dövlət İqtisad Universitetinin professorları tərəfindən hazırlanan və Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsinin 50-ci və anadan olmasının 96-cı ildönümünə həsr olunan "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" adlı monoqrafiyanın Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birgə təqdimatı keçirilib.




Tədbirdə UNEC-in rektoru, professor Ədalət Muradov və universitetin professor-müəllim heyəti ilə yanaşı, Milli Məclisin deputatları, dövlət rəsmiləri və digər qonaqlar iştirak ediblər.

Universitetin rektoru, professor Ədalət Muradov müstəqillik illərində ölkəmizdə sosial-iqtisadi inkişaf strategiyası sahəsində əldə olunan uğurların məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirərək həmin strategiyanın Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırıb. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyində qarşıya qoyduğu vəzifələrdən söz açan rektor Ulu Öndərin tövsiyələrinin UNEC-in inkişaf strategiyasının prioritet istiqamətləri kimi müəyyən olunduğunu qeyd edib. UNEC-in 90 illik yubileyində Ulu Öndərin verdiyi tapşırıqlara və bu tapşırıqların icrasına həsr olunan yeni kitabın hazırlanacağını deyib. Ə.Muradov monoqrafiyanın əhəmiyyətindən söz açaraq Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin hələ uzun illər tədqiq ediləcəyini vurğulayıb. Ulu Öndərin irsinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi missiyasının UNEC-in öz üzərinə götürdüyünü bildirib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Ümummilli Lider Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafındakı tarixi xidmətlərindən söz açıb. UNEC professorlarının hazırladığı dəyərli monoqrafiyada Ulu Öndərin iqtisadi inkişaf strategiyasının bütün məqamlarının dərin təhlil olunduğunu bildirib.

AMEA-nın müxbir üzvü, İqtisadiyyat İnstitutunun şöbə müdiri, professor Akif Musayev Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanın sosial-iqtisadi inkişafı, maliyyə institutlarının formalaşdırılması, ölkəmizdə tədris-təlim texnologiyalarının tətbiqi, xalq təsərrüfatının müxtəlif sahələrində və funksional bölmələrində iqtisadi islahatların aparılması, əhalinin sosial müdafiəsi, optimal vergi siyasəti, xarici iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində gördüyü işlərdən danışıb. Monoqrafiyada Ulu Öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasını əks etdirən və mühüm faktlara əsaslanan məqalələrin yer aldığını vurğulayıb.

UNEC-in kafedra müdiri, professor Məhiş Əhmədov monoqrafiyada Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyasının mahiyyəti, ümumi və xarakterik cəhətləri, prioritetlərinin sistemli şəkildə təhlil olunduğunu bildirib. Monoqrafiyanın müasir Azərbaycanın davamlı və dinamik sosial-iqtisadi inkişafının mənbələrini, hərəkətverici qüvvələrini daha dərindən və aydın dərk etməyə imkan verdiyini diqqətə çatdırıb.

Tədbirdə AMEA-nın müşaviri, akademik Əli Abbasov Ulu Öndər Heydər Əliyevin elm və təhsilin, bilik və informasiya resurslarının inkişafında, eləcə də insan kapitalının formalaşmasındakı rolundan bəhs edib. UNEC professorlarının hazırladıqları monoqrafiyada iqtisadiyyatın bütün sahələri ilə yanaşı, bilik və informasiya resurslarına əsaslanan yeni iqtisadiyyatın qurulması barədə məqalələrin yer aldığını, həmçinin çox mühüm nəticələr əldə olunduğunu qeyd edib. Akademik monoqrafiyanı Ulu Öndər Heydər Əliyevin sosial iqtisadi siyasətinə verilən qiymət kimi dəyərləndirib.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları Vahid Əhmədov, Rüfət Quliyev, UNEC-in professoru Arif Şəkərəliyev Ulu Öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının əhəmiyyətindən danışıblar. UNEC alimlərinin hazırladığı monoqrafiyanın bu strategiyanın təbliğ olunması istiqamətində dəyərli töhfə olacağını deyiblər.

***E.VƏLİYEV,***
***"Azərbaycan"***

## "Heydər Əliyev siyasi məktəbini öyrənirik"

### Gənc Liderlər Proqramının iştirakçıları ilə görüş keçirilib

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyindəki DOST Agentliyində Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevlə "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı iştirakçılarının görüşü keçirilib. Görüşdə Dayanıqlı İnkişaf Məqsədləri üzrə Gənc Səfirlər də iştirak edib.

AZƏRTAC xəbər verir ki, görüşdən əvvəl gənclər DOST Agentliyinin və "DOST" mərkəzinin fəaliyyəti, mərkəzdə dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipi və sadə prosedurlar əsasında təqdim olunması prosesi ilə tanış olublar.

Gənclərlə görüşdə Sahil Babayev bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1969-cu il iyulun 14-də respublikamızda siyasi rəhbərliyə gəlməsi ilə Azərbaycanın həyatında möhtəşəm quruculuq, dinamik və hərtərəfli inkişafla xarakterizə olunan yeni bir keyfiyyət mərhələsi başlayıb. Ulu Öndər o zaman Azərbaycanı keçmiş İttifaq məkanında geridə qalan aqrar respublikadan qabaqcıllar cərgəsində olan müasir sənaye ölkəsinə çevirib.

S.Babayev ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi misilsiz tarixi xidmətlərini diqqətə çatdırıb. O, ümummilli lider Heydər Əliyevin ölkəmizi dayanıqlı və uzunmüddətli tərəqqi yoluna çıxarmaqla yanaşı, Azərbaycanda vətəndaş rifahına təminat verən sosial dövlət modelini də formalaşdırdığını söyləyərək bildirib ki, Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, ölkənin bütün sahələrdə dayanıqlı inkişafını təmin edən islahatlar proqramı Azərbaycanı daim inkişaf edən iqtisadiyyata və qüdrətli orduya, güclü sosial siyasətə sahib edib.

Dövlət başçısının sosial inkişaf strategiyasının uğurlarını diqqətə çatdıran nazir ölkədə vətəndaş rifahının təminatı naminə atılan mühüm addımlardan danışıb. Milli sosial təminat sisteminin innovativ yanaşmalar əsasında təkmilləşdirilməsi sahəsində aparılan islahatlar, əldə olunan sosial nailiyyətlər barədə ətraflı məlumat verib.

S.Babayev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mühüm sosial əhəmiyyət kəsb edən təşəbbüs və layihələrini, o cümlədən DOST layihəsini, habelə həssas qruplara diqqət və qayğının artırılması və onların reabilitasiyası istiqamətində fondun gördüyü ardıcıl işləri diqqətə çatdırıb.

Nazir qeyd edib ki, bu gün Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, o cümlədən yoxsulluğun azaldılması, əhalinin məşğulluq imkanlarının artırılması, layiqli əməyin təminatı istiqamətlərində fəal siyasətə və uğurlu təcrübəyə malik ölkələr sırasındadır. Həmin Məqsədlərin icrası ilə bağlı ölkəmiz gələn həftə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda növbəti könüllü hesabatını təqdim edəcəkdir.

Ümummilli lider Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə gəlişinin 50 illiyi münasibəti ilə Gənclər və İdman Nazirliyi və Heydər Əliyev Mərkəzi tərəfindən "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı elan edilib. Gənclərdə müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi ilə onlarda liderlik keyfiyyətlərinin inkişafına şərait yaratmaq məqsədi daşıyan proqrama 50 gənc seçilib.

Eyni zamanda, dövlət başçısının 2014-cü il martın 19-da verdiyi sərəncamla Azərbaycan hökuməti ilə BMT İnkişaf Proqramı arasında "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakının dəstəklənməsi üçün yeni platformalar yaradılması haqqında" Layihə Sənədi imzalanıb. Layihənin əsas istiqamətlərindən biri kimi, Azərbaycanda ilk dəfə olaraq 17 nəfər Dayanıqlı İnkişaf Məqsədləri üzrə Gənc Səfir seçilib. Onların əsas məqsədi Dayanıqlı İnkişaf Məqsədlərini Azərbaycanda yaymaq, həmin Məqsədlərə nail olunması prosesində gənclərin iştirakını təşviq etmək, bu sahə üzrə fəaliyyət göstərən dövlət qurumlarına tam könüllü formada dəstək göstərmək, həmçinin yerli, milli və beynəlxalq səviyyədə atılan addımlar barədə cəmiyyətin məlumatlandırılmasını dəstəkləmək, milli hesabatların hazırlanmasında və ölkədə Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqəli həyata keçirilən təşəbbüslərdə fəal iştirak etməkdir.

# Azərbaycan regionda Fransanın əsas ticarət tərəfdaşıdır

## İndiyədək iki ölkə iqtisadiyyatına qarşılıqlı olaraq 4,8 milyard dollardan çox investisiya yatırılıb



Azərbaycan təkcə regionun deyil, Avropanın iqtisadiyyatında da mühüm rol oynayır. Qədim qitənin fəal investorlarından sayılan Azərbaycan son illərdə Avropa İttifaqı ölkələrinə 20 milyard dollardan çox investisiya yatırıb. Avropanın əksər böyük dövlətinin investorları da Azərbaycana investisiya yatırmaqda maraqlıdırlar. Son 16 ildə ölkə iqtisadiyyatına yatırılan 250 milyard dollarlıq investisiyanın 125 milyard dolları, yəni 50 faizinin xarici investisiyaların payına düşməsi bunu bir daha təsdiqləyir.

Azərbaycanla Avropa İttifaqına üzv ölkələrin biznes sektorları arasında əlaqələrin səviyyəsinin yüksəldilməsi məqsədilə Bakıda birgə biznes forumlar təşkil olunur. Bu forumlar iqtisadi əlaqələrin daha da dərinləşməsinə və şaxələndirilməsinə real zəmin yaradır.

İyulun 11-də İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun və Fransa Sahibkarlar Təşkilatı - MEDEF-in təşkilatçılığı ilə Bakıda keçirilən Azərbaycan-Fransa biznes forumu da bu məqsədə xidmət edib. İki ölkə arasında ticarət və investisiyaların stimullaşdırılmasını şərtləndirən forumda Azərbaycan və Fransa rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, tikinti, nəqliyyat, logistika, İKT, enerji, maliyyə, təhsil, turizm, ticarət, ətraf mühit, konsaltinq və sair sahələrdə fəaliyyət göstərən 150-dən çox sahibkar iştirak edib. Forumda iş adamları arasında ikitərəfli görüşlər keçirilib, əməkdaşlığın genişləndirilməsi və yeni əlaqələrin qurulması barədə müzakirələr aparılıb.

İqtisadiyyat naziri Şahin Mustafayev çıxışında Azərbaycan-Fransa əlaqələrinin inkişaf etdiyini, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə səfərdə olan Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul etmələrinin ölkələrimiz arasında əlaqələrə verilən böyük önəmin göstəricisi olduğunu vurğulayıb.

Azərbaycan-Fransa iqtisadi əməkdaşlığının əsas istiqamətlərindən olan ticarət əlaqələri barədə məlumat verən nazir bildirib ki, Azərbaycan Fransanın Cənubi Qafqaz regionu üzrə əsas ticarət tərəfdaşıdır. Təsadüfi deyil ki, ötən il Fransanın Cənubi Qafqazın 3 ölkəsi ilə ümumi dövriyyəsinin 62,4 faizi məhz Azərbaycanın payına düşüb. Bu ilin ilk 5 ayında iki ölkə arasında ticarət dövriyyəsi keçən ilin eyni dövrü ilə müqayisədə 53 faizdən çox artıb. Xatırladaq ki, ötən il ticarət dövriyyəsi 624,7 milyon dollar təşkil edib.

Nazir qeyd edib ki, qarşılıqlı ticarət həcminin daha da artırılması, strukturunun şaxələndirilməsi, qeyri-neft məhsullarının Fransaya ixracının genişləndirilməsi üçün potensial böyükdür. Azərbaycanda sənaye, xidmət, rabitə, ticarət, bank və sığorta, kənd təsərrüfatı sahələrində 45 Fransa kapitallı şirkət fəaliyyət göstərir. Fransa şirkətləri Azərbaycanda həyata keçirilən və dəyəri 6,2 milyard dollar olan layihələrdə podratçı qismində iştirak edib.

İnvestisiyalar sahəsində də uğurlu əməkdaşlıq mövcuddur. Belə ki, Azərbaycan tərəfindən Fransaya 2,6 milyard dollar, Fransa tərəfindən Azərbaycan iqtisadiyyatına 2,2 milyard dollardan çox investisiya yatırılıb.

İqtisadi əlaqələrlə yanaşı, humanitar sahədə də əməkdaşlığın yeni inkişaf mərhələsində olduğunu deyən nazir bu istiqamətdə Heydər Əliyev Fondunun uğurlu fəaliyyətini vurğulayıb.

Şahin Mustafayev Azərbaycanda həyata keçirilən islahatlar, əldə olunan nailiyyətlər, ölkəmizin geniş tranzit potensialı, reallaşdırılan regional layihələr barədə məlumat verərək qeyd edib ki, ölkəmizin uğurları beynəlxalq maliyyə institutları tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın islahatçı 10 ölkəsi siyahısına daxil edilib. "Azərbaycan 2019 - Avropa İttifaqı Biznes Mühiti Hesabatı"nda Avropa İttifaqı şirkətlərinin 74 faizi cari makroiqtisadi vəziyyəti güclü və qənaətbəxş, 90 faizi isə makroiqtisadi vəziyyətin perspektivlərini yaxşı və sabit kimi qiymətləndiriblər. Avropa İttifaqının builki "Azərbaycan investisiya məkanı kimi" sorğusunda iştirak etmiş şirkətlərin 75 faizi "Azərbaycana yenidən investisiya qoyardınızmı?" sualına müsbət cavab verib, ölkəmizdəki təhlükəsizliyi, siyasi və sosial sabitliyi yüksək qiymətləndiriblər.

Qeyd edək ki, Dünya Bankı Azərbaycan iqtisadiyyatının 2019-cu ildə 3,3 faiz, Beynəlxalq Valyuta Fondu iqtisadiyyatımızın 3,4 faiz artacağını proqnozlaşdırır.

Nazir iki ölkə arasında iqtisadiyyatın bir çox sahələrində, o cümlədən ticarət və investisiya, kiçik və orta biznes, enerji, nəqliyyat, kənd təsərrüfatı, sənaye, təhsil, turizm, İKT, maliyyə sahələrində əməkdaşlıq imkanlarının geniş olduğunu bildirib, fransalı iş adamlarını bu imkanlardan yararlanmağa dəvət edib.

Fransa Sahibkarlar Təşkilatı - MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziö ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini qeyd edərək vurğulayıb ki, Azərbaycandakı əlverişli biznes mühiti xarici investorlar üçün geniş imkanlar açır. Keçirilən biznes forumun əlaqələrin inkişafı üçün səmərəli platforma olduğunu bildirən Jofrua Ru de Beziö ölkəmizin cəlbedici turizm potensialını, bir sıra rəqabətqabiliyyətli məhsulların, xüsusilə yüksək keyfiyyətli şərab istehsalçısı olduğunu söyləyərək, iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Fransanın Azərbaycandakı səfiri Orelia Buşez ölkəsinin mövcud əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu və Azərbaycanda aparılan iqtisadi islahatların xarici şirkətlər, o cümlədən Fransa şirkətləri üçün əlverişli imkanlar yaratdığını vurğulayıb.

Qeyd edək ki, iyulun 10-da Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşdə də aparılan danışıqlar zamanı bəlli olmuşdu ki, 170 min şirkətin üzv olduğu MEDEF-in Azərbaycanda qeyri-neft sahəsində - informasiya texnologiyaları, innovasiyalar, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, turizm kimi istiqamətlərdə əlaqələrin qurulmasında böyük marağı var.

Fransa öz iqtisadi inkişafına görə dünyanın aparıcı sənaye dövlətlərinin "böyük yeddiliyinə" daxildir, dünyanın 5-ci iqtisadi gücüdür. O, dünya ÜDM-in 5 faizini və dünya ticarətinin 6 faizini formalaşdırır. Avropada ümumi iqtisadi göstəricilərinə görə Almaniyadan sonra ikinci yerdədir. Azərbaycan kimi dinamik və inkişaf edən iqtisadiyyata sahib olan bir ölkə ilə Fransa şirkətlərinin qarşılıqlı əməkdaşlığı da hər iki tərəfə uğur vəd edir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan polisinin fəaliyyətindəki müsbət nəticələr uğurla davam edir

**Daxili İşlər naziri, general-polkovnik Vilayət EYVAZOV:**

"Şəxsi heyət sabitliyin, əmin-amanlığın, dövlətin, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcək, 2019-cu ili də yüksək göstəricilərlə başa vuracaq"





Dünən Daxili İşlər Nazirliyində 2019-cu ilin 6 ayında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə Azərbaycan polisinin yaranmasının 101-ci ildönümü ərəfəsində bir qrup əməkdaşın dövlət mükafatlarına layiq görülməsini daxili işlər orqanlarına yüksək etimadın növbəti əyani ifadəsi olduğunu vurğulayıb.

Cari ilin birinci yarısında respublikada cinayətkarlıqla mübarizənin və ictimai təhlükəsizliyin təmin olunmasının vəziyyətindən danışan cənab nazir bu sahədə əvvəlki dövrlərdə əldə olunmuş müsbət nəticələrin bir çox istiqamətlər üzrə inkişaf etdiyini, vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunduğunu, kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər orqanlarının qarşısında duran vəzifələrin bütövlükdə yerinə yetirildiyini bildirib.

Sonra geniş məruzə ilə çıxış edən nazir V.Eyvazov hesabat dövründə daxili işlər və prokurorluq orqanları üzrə 12411 cinayətin qeydə alındığını, bu cinayətlərin 88,5 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlərin təşkil etdiyini qeyd edib. Qəsdən adam öldürməyə cəhd cinayətlərinin 12,2 faiz, qəsdən sağlamlığa ağır zərər vurmaların 4,1 faiz, mülkiyyət əleyhinə olan cinayətlərin 8,1 faiz, xuliqanlıqların 25,1 faiz, ictimai yerlərdə baş vermiş cinayətlərin 35 faiz azaldığını, həmçinin cinayətlərin açılmasının yüksək olmaqla 83,1 faiz təşkil etdiyini, məhkəmədən, istintaqdan və təhqiqat orqanlarından yayınan 1852 təqsirləndirilən şəxsin tutulduğunu vurğulayıb. Bildirib ki, ötən ilin 6 ayı ilə müqayisədə cari ilin müvafiq dövründə ağır və xüsusilə ağır, şəxsiyyət əleyhinə olan, onlardan qəsdən adam öldürmələrin, adam öldürməyə cəhdlərin, dələduzluqların, soyğunçuluqların açılması xeyli yaxşılaşıb, keçmiş illərdən bağlı qalmış 163 cinayətin açılması təmin edilib.

Daxili İşlər naziri ötən 6 ayda mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 424 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 65 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, qeyri-leqal dövriyyədən bütövlükdə 810 kiloqram narkotik vasitənin çıxarıldığını və 74 tona yaxın narkotik xassəli bitkinin aşkarlanaraq məhv edildiyini vurğulayıb.

Bununla yanaşı, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin cari ilin birinci yarısında da yerinə yetirildiyini nəzərə çatdıran nazir V.Eyvazov nazirliyin rəhbərliyi tərəfindən 2749, o cümlədən respublikanın ayrı-ayrı şəhər və rayonlarında 680 vətəndaşın qəbulunun həyata keçirildiyini, vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əksəriyyətinin öz müsbət həllini tapdığını qeyd edib.

Məruzə ətrafında çıxış edən Naxçıvan MR-in Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov, DİN-in Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi, polis general-mayoru Elşən Kazımov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov və digərləri görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsanlar və onların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran nazir Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu, cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşların və hərbi qulluqçuların yüksək peşəkarlığı ilə fərqləndiklərini, eləcə də digər hüquq mühafizə orqanları ilə birlikdə ölkədə daxili sabitliyin və asayişin qorunması işinin uğurla davam etdirildiyini bildirib.

Prezident İlham Əliyevin daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyini qeyd edən Daxili İşlər naziri ölkə rəhbərinin ali etimadının şəxsi heyətin üzərinə böyük məsuliyyət qoyduğunu, bu etimadı doğrultmaq üçün ilk növbədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsini, hər bir struktur qurumda vətəndaş məmnunluğuna, insanlarla münasibətdə etik davranış qaydalarına ciddi əməl olunmasını, şəxsi heyətin peşəkarlığını artırmasını, yüksək mənəvi keyfiyyətlərə malik olmasını, bu istiqamətlərdə fəaliyyətin məqsədyönlü surətdə davam etdirilməsini tələb edib.

Ümumən, daxili işlər orqanlarının şəxsi heyətinin digər dövlət strukturları ilə sıx qarşılıqlı əlaqədə ölkədə həyata keçirilən asayişi mühafizə siyasətinin reallaşdırılmasına həmişə layiqli töhfələr verdiyini xatırladan Daxili İşlər naziri V.Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi bütün şəxsi heyət adından əmin edib ki, bu iş gələcəkdə də böyük əzmlə davam etdiriləcək, aidiyyəti qanunvericilik aktlarından irəli gələn vəzifələr, qarşıya qoyulmuş bütün tapşırıqlar yüksək səviyyədə yerinə yetiriləcək. Əməkdaşlar və hərbi qulluqçular sabitliyin, əmin-amanlığın, dövlətin, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcək, 2019-cu ili də yüksək göstəricilərlə başa vuracaqlar.

Sonra Azərbaycan polisinin 101 illik yubileyi münasibətilə təltif olunmuş bir qrup polis əməkdaşına dövlət mükafatlarının təqdim edilməsinə həsr olunmuş mərasim keçirilib.

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu başa çatıb

İyulun 11-12-də Azərbaycan İlahiyyat İnstitutu (AİI), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu öz işini başa vurub.

AZƏRTAC xəbər verir ki, bağlanış mərasimində çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov simpoziumda Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənildiyini və bu tarixin aktual problemlərinin araşdırıldığını, ölkəmizin uzunəsrlik tarixi keçmişə malik qarşılıqlı hörmətə əsaslanan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti haqqında məruzələr dinlənildiyini qeyd edib. O bildirib ki, məruzəçilər, həmçinin müsəlman ölkələri ilə əlaqələrin inkişafında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri, bu siyasətin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud olan tolerant və multikultural mühitin dünyada tanıdılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş çıxış ediblər.

Ceyhun Məmmədov, simpoziumda İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən azərbaycanlı alimlərin özünəməxsus mövqeyindən bəhs edərək, məşhur İslam alimləri haqqında məruzələrin də dinlənildiyini diqqətə çatdırıb. Rektor vurğulayıb ki, simpoziumun rəmzi mənası da var: "Bildiyiniz kimi, iyulun 14-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 ili tamam olur. Bu baxımdan da konfransın təşkili xüsusi əhəmiyyət daşıyır".

Daha sonra Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanmış müraciətini oxuyub.

Müraciətdə deyilir:

"Möhtərəm cənab Prezident!

İyulun 11-də və 12-də Azərbaycan İlahiyyat İnstitutu (AİI), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə Bakı şəhərində keçirilmiş "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumuna göstərdiyiniz hərtərəfli diqqətə, eləcə də tədbir iştirakçılarına ünvanladığınız müraciətə görə Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan tarixən müsəlman sivilizasiyasının yaranması və tərəqqisində mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Bəhmənyar Azərbaycani, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Seyid Yəhya Şirvani, Məhəmməd Füzuli və yüzlərlə başqa azərbaycanlı mütəfəkkirlər müsəlman aləmində elmi, fəlsəfi və ədəbi düşüncənin inkişafında müstəsna xidmətlər göstərmişlər. İslam mədəniyyəti Qafqazın digər bölgələrinə məhz Azərbaycandan yayılmışdır.




Ulu Öndər Heydər Əliyev "Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır" söyləməklə İslam sivilizasiyasının Qafqazda bərqərar olmasında Azərbaycanın oynadığı əhəmiyyətli rola diqqət çəkmişdir. İslamın Qafqazda yaşayan xalqların həyatındakı tarixi rolu və əhəmiyyətinə dərindən bələd olan Ümummilli Liderin birbaşa təşəbbüsü və iştirakı ilə 1998-ci il dekabrın 9-dan 11-dək Bakıda "İslam sivilizasiyası Qafqazda" Beynəlxalq Simpoziumu keçirilmişdir.

İyulun 11-də və 12-də Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium da məhz Heydər Əliyevin misilsiz ideyalarının həyata keçirilməsinə xidmət edir. Bu simpoziumun keçirilməsi Azərbaycan dövlətinin və şəxsən Sizin İslam mədəniyyətinə verdiyiniz qiymətin əyani təzahürüdür.

Müasir dövrdə Sizin rəhbərliyinizlə sosial-iqtisadi baxımdan sürətlə inkişaf edən Azərbaycan elm və mədəniyyət sahəsində də çoxsaylı nailiyyətlərə imza atır. Azərbaycan, artıq multikultural dəyərlərin xalq və dövlət səviyyəsində dəstəkləndiyi və beynəlxalq miqyasda təbliğ olunduğu ölkə kimi tanınır. 2016-cı ili "Multikulturalizm ili" elan etməyiniz Sizin bu ali dəyərlərə yüksək münasibətinizin bariz nümunəsidir. Həqiqətən də qloballaşan dünyada monokultural mədəniyyət anlayışının multikultural düşüncə ilə əvəzlənməsi, mədəniyyətlərin öz "getto"larından çıxması bir zərurətə çevrilmişdir. Bu baxımdan, Azərbaycan dövlətinin sivilizasiyalararası və mədəniyyətlərarası əlaqələrdə multikulturalizmi önə çəkməsi zamanın çağırışları ilə səsləşir.

2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi haqqında 2017-ci il 10 yanvar tarixli Sərəncamınız İslam dünyasının ən böyük ehtiyacını çox dəqiqliklə müəyyənləşdirdiyinizi göstərir. Bu sərəncam dünyada getdikcə güclənən ksenofob və islamofob qüvvələrə tutarlı cavabdır, eyni zamanda, 2016-cı ilin "Multikulturalizm ili" elan olunması barədə 2016-cı il 11 yanvar tarixli sərəncamınızın məntiqi davamıdır. Azərbaycan həm multikultural dəyərlərin tətbiqi və təbliği, həm də müsəlman aləmində vəhdət və qardaşlıq ideyalarının yayılması baxımından nümunəvi ölkədir.

Dünyada sülh, əmin-amanlıq və tolerantlığın carçısı olan Azərbaycan, təəssüf ki, bu dəyərləri heçə sayan Ermənistanın təcavüzü ilə üz-üzə qalmış, torpaqlarının 20 faizi işğal edilmiş, bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvalarından didərgin salınmışdır. İşğal altındakı torpaqlarda yüzlərlə İslam mədəniyyəti nümunəsi məhv edilmiş, məscid və türbələr dağıdılmışdır. Simpozium iştirakçıları olaraq, dünya ictimaiyyətinin bu vandalizmə biganə qalmayacağına, Azərbaycanın haqq səsinə səs verəcəyinə ümidvar olduğumuzu bildiririk. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəkdir.

Möhtərəm cənab Prezident!

Biz, "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçıları bu beynəlxalq tədbirə göstərdiyiniz qayğı və diqqətə görə bir daha Sizə öz dərin minnətdarlığımızı bildirir, Azərbaycanda və dünyada sülh və əmin-amanlığın qorunması, ölkəmizin inkişafı və çiçəklənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayırıq".

Simpozium iştirakçılarına sertifikatlar təqdim olunub.

Bağlanış mərasimindən sonra mətbuat konfransı keçirilib, kütləvi informasiya vasitələri nümayəndələrinin sualları cavablandırılıb.

Xatırladaq ki, simpozium Qafqazda İslam sivilizasiyasının yayılması dövrünün elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması, eyni zamanda, ölkəmizin uzunəsrlik tarixi keçmişə malik qarşılıqlı hörmətə əsaslanan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühitinin dünyaya tanıtdırılması məqsədilə keçirilib.

Simpoziumda 100-dən çox məruzəçi 11 paneldə - "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri", "Qafqazda İslam elmlərinin inkişafı", "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı", "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu", "Qafqazda İslamın yayılması", "Qafqazda multikulturalizm", "İslam sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər, tarixi mənbələr, sənədlər və artefaktlar, mövzu üzrə akademik əməkdaşlıq", "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu", "Çar Rusiyasının Qafqazda İslam siyasəti", "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" mövzularında panellərdə çıxış ediblər.

Konfransın materialları kitab şəklində çap olunacaq.

# Azərbaycan zamanələrin və sivilizasiyaların nadir ahəngdarlığını göstərən bir məkandır

## Şəki Xan Sarayı təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsidir

Əvvəli 1-ci səh.

### Əsrlərin mirası

Ölkəmizdə keçirilən bu cür qlobal tədbirlər Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü siyasətin ayrı-ayrı istiqamətlərini əks etdirir.

Qeyri-maddi mədəni irsin qorunması bu gün tərəqqipərvər dünyanı düşündürən əsas məsələlərdəndir. Bu missiya Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin də mühüm tərkib hissəsinə çevrilmişdir.

UNESKO-nun müvafiq sənədlərində irs anlayışının kifayət qədər dəqiq izahı verilir. Bu, icmalar, qruplar və bəzi hallarda ayrı-ayrı şəxslər tərəfindən onların mədəni irsinin bir hissəsi kimi qəbul edilən maddi və mənəvi nailiyyətləri, təcrübələri, bilik və bacarıqları, eləcə də maddi mədəniyyət abidələrini, əşyaları və mədəni məkanları özündə birləşdirir.

Belə bir sərvətin dəyəri onun qiymətli bir əmanət kimi nəsillərdən-nəsillərə ötürülməsindədir. Xalqın tarixi keçmişini canlandırması, insanlarda özünəməxsusluq, irsin varisliyi duyğusunu formalaşdırmasıdır. Bununla da mədəni müxtəlifliyə və insan yaradıcılığına vəsilə olmasıdır.

### Tarixi irsimizin təkrarolunmaz inciləri

Bu dəyəri təhdid edən, onu aşındırıb sıradan çıxaran amillər tarix boyu hər zaman çox olub. Əgər əsrlər əvvəl xalqların maddi-mənəvi irsi üçün ən böyük təhlükələr dağıdıcı müharibələr, insan iradəsindən kənar təbii fəlakətlər idisə, bu gün qloballaşma prosesləri də maddi-mənəvi irs üçün ciddi təhdidlərə çevrilib. Ona görə də milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği, eləcə də beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək hazırda bütün ölkələrin yerinə yetirməli olduğu işdir. Azərbaycan dövləti bu sahədə üzərinə düşən vəzifələri illərdən bəridir ki, uğurla yerinə yetirir. Ölkəmizin bu istiqamətdə gördüyü işlərin mühüm bir qismi də, təbii ki, UNESKO-nun Ümumdünya İrs Komitəsinin fəaliyyəti çərçivəsində, qurumun irəli sürdüyü prinsiplər əsasında aparılır.

Tarixə qısaca nəzər yetirək: Azərbaycan BMT-nin Mədəniyyət, Elm və Təhsil qurumu kimi yaradılmış UNESKO ilə çox zəngin əməkdaşlıq ənənələrinə malikdir. Belə ki, ölkəmiz hələ ötən əsrin 60-cı illərindən sovet respublikalarından biri kimi UNESKO-nun fəaliyyətində aktiv iştirak etmişdir. O dövrdə Azərbaycanın bu nüfuzlu təşkilatla əlaqələrinin qurulmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. 1983-cü ildə Bakıda təşkil edilmiş "Şərq xalça sənəti" I Beynəlxalq Simpoziumu zamanı o vaxt artıq keçmiş SSRİ-nin ali rəhbərlərindən biri olan Heydər Əliyev UNESKO-nun Baş direktorunun xüsusi məsləhətçisi Federiko Mayorla şəxsən görüşmüş və bu dostluq əlaqələri ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycanın mötəbər təşkilatla münasibətlərinə öz müsbət təsirini göstərmişdir.

Həmin illərdə, eyni zamanda UNESKO-nun Parisdəki baş qərargahında "Azərbaycan xalçaları" (1981), "Azərbaycan əlyazmaları" (1985), Londonda isə UNESKO-nun himayəsi altında "Bakının memarlığı" (1985) sərgiləri keçirilmişdir. 1984-cü ilin noyabr ayında UNESKO-nun baş qərargahında Azərbaycan Dövlət Rəqs Ansamblının çıxışı olmuşdur.

UNESKO Bakıda iki beynəlxalq tədbirin - "Dil və şəhər" (1981) və "Şərq xalça sənəti" (1983) konfranslarının keçirilməsi üçün Azərbaycana maliyyə yardımı göstərmişdir. 1983-cü ildə Azərbaycan hökuməti xalçaçı-rəssam Lətif Kərimovun toxuduğu, üzərində Memar Əcəmi Naxçıvaninin təsviri olan xalçanı Bakıya səfər etmiş UNESKO-nun Baş direktoru Amadu Mahtar M`Bou vasitəsilə təşkilata hədiyyə etmişdir.















### Əməkdaşlıqda yeni səhifə

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra UNESKO ilə hələ sovet dövründən mövcud olan əməkdaşlıq əlaqələrini daha da gücləndirməyə başlamışdır. Ölkəmiz 1992-ci ildə quruma üzv olmuşdur. Mədəni irsə, elm və təhsilin inkişafına daim həyati vacib məsələlər kimi mühüm önəm verən Ulu Öndər Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışından sonra isə bu əlaqələr xeyli genişlənmişdir. 1993-cü ildən ölkəmiz Ümumdünya İrs Komitəsinə də qəbul edilmiş, təşkilatın fəaliyyətinə öz dəyərli töhfələrini verməyə başlamışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2004-cü ildə BMT-nin bu mötəbər qurumunun xoşməramlı səfiri seçildikdən sonra isə Azərbaycanın UNESKO ilə əməkdaşlıq əlaqələri, bu qurumla birgə həyata keçirilən layihələr daha geniş miqyas almış və yeni məzmun kəsb etməyə başlamışdır.

Mehriban xanımın səyləri nəticəsində Azərbaycanın bir çox maddi və qeyri-maddi mədəni irs nümunələri qurumun müvafiq siyahılarında özünə yer tutmuş, bütün dünyada geniş təbliğ edilmiş, bir növ yeni bir həyat qazanmışdır.

İyunun əvvəlində ölkəmizin UNESKO-dakı üzvlüyünün 27-ci ildönümü tamamlandı. Bu illər ərzində Azərbaycanla bu qurum arasında mədəniyyət, təhsil, elm, kommunikasiya, gənclər və idman kimi bir çox sahələrdə uğurlu və faydalı əməkdaşlıq əlaqələri qurulub. Ölkəmiz özünün fəal təmsilçiliyi və davamlı töhfələri ilə UNESKO-nun proqramlarında yaxından iştirak edir. Təbii ki, dünyanın mədəni irsinin qorunması bu əməkdaşlıqda mühüm yer tutur.

Azərbaycan UNESKO-nun, həmçinin bu qurumun müvafiq komitələrinin beynəlxalq tədbirlərinin təşkilində də mühüm rol oynayır. 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla evsahibliyi edən Azərbaycanda hər iki ildən bir bu qurumun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da keçirilir.

Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, bu mötəbər qurumun növbəti sessiyasının məhz Bakıda təşkili isə ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb etməklə UNESKO ilə tərəfdaşlıq münasibətlərimizin yüksək səviyyədə inkişafının göstəricisidir.

Azərbaycan Prezidentinin 43-cü sessiyanın Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılmasına dair 9 avqust 2018-ci il tarixli müvafiq sərəncamında da bu tədbirin əhəmiyyəti xüsusi vurğulanmışdır.

### Sülh mədəniyyətinin toxumları

Bəs bu cür tədbirlərin ölkəmiz üçün önəmi nədən ibarətdir? Mehriban xanım Əliyevanın 43-cü sessiyanın açılış mərasimində də qeyd etdiyi kimi, Bakıda - Şərqlə Qərbin, keçmişlə gələcəyin qovuşduğu şəhərdə, zamanələrin və sivilizasiyaların nadir ahəngdarlığını göstərən mühitdə belə bir tədbirin təşkili ilk növbədə Azərbaycan dövlətinin bəşəriyyətin gələcəyinə yönəlmiş strateji yanaşmalarının, bu yöndə həyata keçirilən layihələrin uğuru baxımından çox önəmlidir. Bu gün Azərbaycan bütün dünyada mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm məkanı kimi qəbul edilir. Ölkəmiz qloballaşan dünyamızda bu dəyərlərin bir ölkə miqyasında mükəmməl örnəyini yaradır. Azərbaycanda keçirilən qlobal humanitar forumlarda, beynəlxalq tədbirlərdə həmin dəyərlərin bütün dünyada özünə yer tapa bilməsi üçün bəşəriyyətə vacib çağırışlar ünvanlanır. Fərqli mədəniyyətlərin bir-biri ilə dil tapıb insanın, dünyanın inkişafına yönələ bilməsi üçün ölkələrin tanınmış alimləri, ictimai-siyasi xadimləri, mədəniyyət adamları ilə birgə yollar axtarılır. Azərbaycan dövləti bu işi yeni minillikdə üzərinə düşən tarixi bir missiya kimi yerinə yetirir.

Mehriban xanım Əliyeva da bu məqamı nəzərdə tutaraq çıxışında dedi: "Mədəni irs bizi bəşəriyyətin şanlı tarixinə aid olduğumuzu birlikdə düşünməyə vadar edir. Biz qəti şəkildə inanırıq ki, sülh mədəniyyətinin toxumları yalnız dialoq və qarşılıqlı hörmət vasitəsilə cücərə bilər". Mehriban xanım çıxışında mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi üçün əsl qlobal platformaya çevrilmiş və Azərbaycanın başladığı "Bakı Prosesi"ni də iştirakçıların diqqətinə çatdırdı. Qeyd edək ki, 2008-ci ilin dekabrında Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərini İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərindən olan həmkarları ilə bir araya gətirən beynəlxalq konfrans zamanı İslam və Qərb sivilizasiyaları, eləcə də xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Prezidenti tərəfindən irəli sürülmüş "Bakı Prosesi" təşəbbüsü çərçivəsində ötən 11 il ərzində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilmişdir. UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və onun strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrıseçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanmışdır. 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi də bu uğurlu prosesin və fəaliyyətin nəticəsi idi.

Ötən ay isə Azərbaycan "Bakı Prosesi" çərçivəsində V Dünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi etdi. Bu təşəbbüsün uğurla reallaşdırılmasında Azərbaycanın əsas tərəfdaşlarından biri də UNESKO idi.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilk növbədə bu strateji vəzifələrin icrası baxımından mühüm aktuallıq kəsb edir.

### Qorunan irsimiz

Digər tərəfdən, dünyanın qədim mədəniyyət mərkəzlərindən biri kimi, malik olduğumuz tarixi, dini, memarlıq abidələrimizin qorunması, bərpası və saxlanması Azərbaycanı da qayğılandıran əsas məsələlərdəndir. Mehriban xanım Əliyeva çıxışı zamanı iştirakçılara məlumat verdi ki, 2001-ci ildə dövlət tərəfindən qorunan 6600-dən artıq mədəniyyət abidəsini əhatə edən Milli-Mədəni İrs Siyahısı qəbul edilib. Son 5 il ərzində Azərbaycanda 40 tarixi abidə bərpa olunub. Abşeron yarımadasında tapılmış tarixi abidələri və arxeoloji eksponatları özündə əks etdirən açıq səma altında "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksi 2008-ci ildə öz qapılarını ziyarətçilərinin üzünə açdı. Bakıda, Ağcabədidə və Ağdamda muğam mərkəzlərinin tikintisi, məscidlərin, sinaqoqların və kilsələrin yenidən qurulması və inşası, muzeylərin bərpası və açılması - bütün bunlar Azərbaycanın müxtəlif mədəni irsinin qorunması və zənginləşdirilməsi üçün dövlətimizin siyasətinin sadəcə bir neçə elementidir. Bütün bunlar, eyni zamanda Azərbaycanın UNESKO ilə fəal əməkdaşlığının yaratdığı müsbət nəticələrdir.

Bu məhsuldar əməkdaşlığın nəticəsi olaraq Azərbaycanda iki sahə - İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Zəngin və qədim mədəniyyətimizin digər mühüm elementləri sırasında musiqi xəzinəmizin inciləri - muğam və aşıq sənəti, həmçinin bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınıb. UNESKO ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsi bu nailiyyətlərin qorunması və daha da inkişafı baxımından çox önəmlidir.

### Mədəniyyət diplomatiyasının gücü

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası kimi mühüm tədbirlərin ölkəmizdə keçirilməsini xüsusilə əhəmiyyətli edən daha bir məqam da var. Bu cür qlobal tədbirlər torpaqlarımızın 20 faizini hələ də işğal altında saxlayan, bu ərazilərdəki tarixi-mədəni irsimizi məhv edən Ermənistanın təcavüzkar siyasətinin ifşası, düşmənlə informasiya savaşında daha bir qələbənin əldə edilməsi, mədəniyyət diplomatiyasının gücü ilə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Mehriban xanım Əliyeva bu məqama öz çıxışında peşəkar tərzdə, əsl diplomat səriştəsi ilə toxundu. Azərbaycanın UNESKO dəyərlərinə və ideallarına bağlılığının milli hüdudlardan kənarda da öz təzahürünü tapdığını, son 10 il ərzində dünya mədəni irsinin qorunması sahəsində apardığımız fəaliyyətin coğrafiyasının kifayət qədər geniş olduğunu diqqətə çatdırdı: "Bununla belə, müharibələr və hərbi münaqişələr bəşəriyyətin mədəni irsinə hər zaman ciddi təhdid olmuşdur. Hərbi təcavüz nəticəsində, eləcə də beynəlxalq hüququ və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini kobud şəkildə pozaraq Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizini, o cümlədən Dağlıq Qarabağı və yeddi ətraf regionu bu gün də işğal altında saxlamaqda davam edir. Bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Yüzlərlə tarixi və memarlıq abidəsi, muzeylər, məscidlər və digər dini məbədlər dağıdılıb, yaxud ciddi dağıntıya məruz qalıb. Bu səbəbdən Azərbaycan mədəniyyət mülkiyyətinin qorunmasına aid müvafiq beynəlxalq konvensiyaların səmərəli icrasında çox maraqlıdır. Düşünürəm ki, bu sahədə görüləcək işlər hələ də çoxdur və UNESKO bu baxımdan mühüm rol oynamalıdır".

Mehriban xanım Əliyevanın nitqinin sonunda XII əsrin böyük Azərbaycan memarı və filosofu Memar Əcəmidən iqtibas edərək səsləndirdiyi beyt isə bütün dünyaya, bəşəriyyətə ünvanlanmış çağırış idi: "Biz gedərik, ancaq qalar ruzigar, biz ölərik, əsər qalar yadigar".

Gələcək nəsillərin müharibələrə, işğal yaralarına, qisas duyğularına deyil, sülhə, anlaşmaya, qarşılıqlı hörmət ənənələrinə, birgə inkişafa ehtiyacı var. Bu gün Yer üzündə yaşayan bütün insanların gələcək davamçıları üçün yarada biləcəkləri ən qiymətli əsər, ən dəyərli miras, ən gözəl yadigar bu ehtiyacın təmin edildiyi dünya ola bilər.

Azərbaycanın da yerinə yetirdiyi missiyanın qayəsi budur!

**İradə ƏLİYEVA, "Azərbaycan"**

# Bakıda Fransanın milli bayramı qeyd edilib




Fransanın milli bayramı münasibətilə iyulun 12-də Bakıda rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Fransanın Dövlət himnləri səsləndirilib.

Fransanın Azərbaycandakı səfiri xanım Aurelia Buşez çıxış edərək ölkəsinin keçdiyi inkişaf yolundan danışıb. Son illərdə ölkələrimiz arasında əlaqələrin möhkəmləndiyini qeyd edən səfir bildirib ki, yüksəksəviyyəli səfərlər bu işdə mühüm rol oynayıb. Fransa ilə Azərbaycan arasında siyasi dialoqun daha da gücləndiyini vurğulayan Aurelia Buşez Azərbaycan Prezidenti İlham Əliyevin Parisə son səfərinin regiondakı vəziyyətlə bağlı fikir mübadiləsi aparmaq baxımından önəmli olduğunu deyib.

Ölkəmizin Xəzər regionunda sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığını deyən diplomat Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşan "Cənub qaz dəhlizi" və Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihələrinə toxunub. O, bu layihələrin Avropa ilə Asiyanın birləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.



Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfov Fransa xalqını milli bayram münasibətilə Azərbaycan hökuməti adından təbrik edib və ən xoş arzularını çatdırıb. X.Xələfov qeyd edib ki, Fransa Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. Azərbaycanın Fransa ilə münasibətlərə xüsusi əhəmiyyət verdiyini deyən nazir müavini hələ müstəqilliyimizin ilk illərində Ulu Öndər Heydər Əliyevin ilk xarici səfərini məhz Fransaya etdiyini xatırladıb.

Xələf Xələfov Azərbaycan ilə Fransa arasında sıx dostluq münasibətlərinin olduğunu, əlaqələrin bütün sahələri əhatə etdiyini bildirib. Qeyd olunub ki, iki ölkə arasında çox fəal siyasi dialoq aparılır. Azərbaycanın Xarici İşlər nazirinin müavini son illərdə ölkələrimiz arasında humanitar əlaqələrin genişləndiyini diqqətə çatdıraraq elm və təhsil, mədəniyyət və iqtisadiyyat sahələrində əməkdaşlığın artıq real nəticələr verdiyini vurğulayıb.

# BTC-dən başlanan yol geniş dəhlizlərə qovuşur

Əvvəli 1-ci səh.

Ulu Öndər isə böyük qətiyyətlə "Bakı-Tbilisi-Ceyhan irəliləyə gedəcək, gedəcək, gedəcəkdir!" deyirdi və zaman bu sözlərin necə böyük uzaqgörənliklə və müdrikliklə deyildiyini sübuta yetirdi. Ceyhan terminalında BTC nefti ilə ilk tankerin yükləndiyi vaxtdan 13 il keçir. Kəmərin nəql etdiyi neft indiyədək 4100-dən çox tankerə yüklənərək dünya bazarlarına yola salınıb.

BTC ilə "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neft, "Şahdəniz" yatağından əldə olunan kondensat, müəyyən miqdarda Türkmənistan, Qazaxıstan və Rusiya nefti də nəql edilir. Xəzərin karbohidrogenlərini uzun müddətdir ahəngdar və təhlükəsiz nəql etməsi BTC-nin böyük uğurudur. Regionda enerji ixracının başlıca arteriyası hesab olunan bu boru kəməri zəngin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayır. Qapalı Xəzər hövzəsi və bütün dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında ilk birbaşa əlaqəni də məhz BTC yaradıb.

2002-ci il sentyabrın 18-də üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan bu kəmərin təməli qoyularkən Ümummilli Lider Heydər Əliyev demişdir: "Gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür".

Ulu Öndər uzaqgörənliklə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Azərbaycanın böyük inkişafına təkan verəcəyini və yeni meqalayihələrə yol açacağını dəqiqliklə müəyyənləşdirmişdi. Məhz bu düzgün xətt ölkəmizi böyük inkişaf yoluna çıxartmışdır.

Prezident İlham Əliyev çıxışlarında bunu dəfələrlə vurğulamış, BTC-nin Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələri verdiyini, özündən sonra neçə-neçə meqalayihəyə yol açdığını qeyd etmişdir. 2018-ci il yanvarın 30-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısı bu barədə demişdir: "Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin tikintisi iqtisadiyyata böyük valyuta axını təmin edir. Bu kəmərlər olmasaydı, biz neft-qaz resurslarını haraya ixrac edəcəkdik? Daxili bazarımız isə bizdə olan yataqlarla müqayisədə kiçikdir. Bakı-Tbilisi-Ceyhanı əngəlləmək üçün anti-Azərbaycan qüvvələr nə qədər səy göstərdilər, alınmadı. Biz möhkəm dayanmışdıq, güclü iradə göstərmişdik və bu layihələri qonşu dövlətlərlə birlikdə icra etdik. Bakı-Tbilisi-Ceyhan on ildən çoxdur ki, fəaliyyət göstərir. On ildən çoxdur ki, qaz kəmərimiz qazımızı Ərzuruma qədər nəql edir. Əgər bu layihələr olmasaydı, Bakı-Tbilisi-Qars da olmazdı. Əgər bu olmasaydı, "Şahdəniz-2" də olmazdı. "Cənub qaz dəhlizi" - dəyəri 40 milyard dollardan çox olan layihə də olmazdı. Bütün bu layihələr xalq qarşısında tarixi xidmətlərdir. Bu layihələr, eyni zamanda uzunmüddətli inkişafımıza şərait yaradır. Biz indi 42 milyard dollar valyuta ehtiyatlarımıza malikik. Bunları nəyin hesabına qazanmışıq? Enerji resurslarının ixracı nəticəsində. Bakı-Tbilisi-Ceyhan tikilməsəydi, bu da olmayacaqdı".

Tikinti mərhələsindən başlayaraq BTC təkcə Azərbaycana deyil, bütün regiona mühüm mənfəətlər gətirərək müsbət dəyişikliklər yaradıb. Kəmər Bosfor və Dardanel boğazlarından yan keçməklə tranzit ölkələrin mühüm gəlirlər əldə etməsinə imkan verir. BTC, həmçinin neft daşımalarının artımına, ekoloji risklərin azalmasına kömək edir. Azərbaycan, Gürcüstan, Türkiyə və Qərb ölkələri arasında siyasi və iqtisadi əlaqələri gücləndirir.

Müasir dövrdə karbohidrogenlərin daşınması üçün ən etibarlı vasitə torpağın altında basdırılan kəmərlər sayılır və bunlardan biri BTC-dir. BTC gözə görünməyən, səssiz və nefti minimum risklə nəql edən kəmərdir. Bunun nəticəsidir ki, kəmər texniki təhlükəsizlik və istismar baxımından yüksək göstəricilərə malikdir. Mütəxəssislərin gəldiyi nəticəyə görə, BTC dünyada ən təhlükəsiz və ekoloji cəhətdən zərərsiz boru kəmərlərindən biridir.

Keçən il mayın 30-da "Cənub qaz dəhlizi"nin açılış mərasimindəki nitqində Prezident İlham Əliyev demişdir: "2002-ci ildə artıq biz "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

BTC-dən başlanan yol bu gün geniş dəhlizlərə qovuşur. Bu polad kəmər Azərbaycanı dünya ilə getdikcə daha sıx birləşdirir.

**Flora SADIQLI, "Azərbaycan"**

# Azərbaycan ilə Türkiyə həmkarlar ittifaqlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir






Bir millət, iki dövlət olaraq Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə olduğu kimi dostluq, əməkdaşlıq və qardaşlıq münasibətləri həmkarlar ittifaqları sistemində də özünü göstərməkdədir. Dostluğumuzun davamlılığı və yaranmış qarşılıqlı inam iki ölkə həmkarlar ittifaqlarının və işçilərinin xeyrinə olmaqla yanaşı, sıx əlaqələrin qurulmasına xidmət edir. Həmkarlar ittifaqlarının nümayəndə heyətlərinin təşkilatların qurultaylarında qarşılıqlı iştirakları, onun rəhbərlərinin mütəmadi görüşləri bu dostluğu daha da gücləndirir.



Ölkə rəhbərləri - Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında olan şəxsi dostluq münasibətləri hər iki ölkənin həmkarlar ittifaqlarının rəhbərləri arasında yaranmış dostluq və qardaşlıq əlaqələrinə də güclü təkan verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, iyulun 10-da Türkiyənin paytaxtı Ankara şəhərində "Əmək, demokratiya, azadlıq, ədalət" şüarı ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi "Hak-iş" Həmkarlar İttifaqları Konfederasiyasının XIV qurultayında AHİK-in sədri, Milli Məclisin deputatı S.Möhbalıyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.

Qurultayda Rəcəb Tayyib Ərdoğanın Azərbaycan nümayəndə heyəti ilə, onun rəhbəri AHİK-in sədri Səttar Möhbalıyevlə səmimi görüşməsi bizim ölkələrin dostluq və qardaşlığının sübutunun bariz nümunəsidir.

Qurultayda Səttar Möhbalıyev Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası, Avropa Həmkarlar İttifaqları Konfederasiyası, eyni zamanda, Türkiyənin digər həmkarlar ittifaqları və Albaniya, Gürcüstan, Qazaxıstan həmkarlar ittifaqlarının nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirib. Görüşlərdə həmin ölkələrin həmkarlar ittifaqları ilə Azərbaycan həmkarlar ittifaqları arasında ikitərəfli münasibətlərə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Azərbaycan məktəbi" jurnalının 95 illik yubiley tədbiri





İyulun 12-də M.F.Axundzadə adına Milli Kitabxanada "Azərbaycan məktəbi" jurnalının 95 illiyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə jurnalın 95 illik fəaliyyətini əks etdirən sərgi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov "Azərbaycan məktəbi" jurnalının ilk elmi-pedaqoji nəşr kimi ölkəmizdə xalq maarifinin inkişafında, pedaqoji və psixoloji elmlərin təşəkkülü və formalaşmasında müstəsna rolundan danışıb. Nazir ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə "Azərbaycan məktəbi" jurnalının inkişaf dövrünü xüsusi vurğulayıb.

Ceyhun Bayramov qeyd edib ki, "Azərbaycan məktəbi" jurnalı Azərbaycan müəllimlərinin peşəkar inkişafına, bilik və bacarıqlarının artırılmasına, yeni təlim texnologiyalarının təbliğinə böyük töhfələr verib. Nazir bu jurnalın əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların xatirəsini minnətdarlıqla yad edib. O, həmçinin "Azərbaycan məktəbi"nin elmi jurnalların beynəlxalq standartlara uyğunlaşdırılması baxımından əsaslı şəkildə yeniləndiyini diqqətə çatdırıb. Jurnalın elektron arxivinin yaradılmasının xüsusi əhəmiyyətini qeyd edən Təhsil naziri bu mətbu orqanın kollektivini yubiley münasibətilə təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

"Azərbaycan məktəbi" jurnalının baş redaktoru Rahil Nəcəf jurnalın tarixi, onun fəaliyyətinin genişləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov jurnalın fəaliyyətinin əhəmiyyətini diqqətə çatdırıb, onun cəmiyyətə, maarifə verdiyi töhfələrdən bəhs edib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov "Azərbaycan məktəbi" jurnalının ölkəmizin təhsilində oynadığı mühüm rolundan danışıb, kollektivə uğurlar arzulayıb.

Tədbirdə "Azərbaycan məktəbi jurnalı-95" adlı sənədli film nümayiş olunub.

Sonda jurnalın əməkdaşlarına səmərəli fəaliyyətlərinə görə Təhsil Nazirliyinin Fəxri fərmanı təqdim edilib.

# Batumidə Aİ-nin "Şərq tərəfdaşlığı" proqramının on illiyinə həsr olunmuş beynəlxalq konfrans başa çatıb

Batumi şəhərində Avropa İttifaqının (Aİ) "Şərq Tərəfdaşlığı" proqramının 10 illiyinə həsr olunmuş yüksəksəviyyəli beynəlxalq konfrans iyulun 12-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, iyulun 11-də başlayan konfransda Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk, Avropa İttifaqına və "Şərq Tərəfdaşlığı"na üzv olan altı tərəfdaş ölkənin yüksəkvəzifəli şəxsləri, akademik dairələrin, qeyri-hökumət təşkilatlarının və biznes sektorunun nümayəndələri iştirak ediblər.

Azərbaycanı tədbirdə Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev, İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov təmsil edib.



İki gün davam edən konfransda "Şərq tərəfdaşlığı" proqramının nailiyyətləri, 2020-ci ilə qədər əməkdaşlıq planları və cari geosiyasi vəziyyət müzakirə olunub. Bundan başqa, əməkdaşlığın əsas istiqamətlərinə həsr olunmuş tematik sessiyalar təşkil edilib. İştirakçılar əməkdaşlığın gücləndirilməsi üçün və 2020-ci ildən sonra Avropaya inteqrasiya proseslərinin təşviqi ilə bağlı yeni ideyalar barədə fikir mübadiləsi aparıblar.

Tədbir iştirakçıları, həmçinin demokratik proseslər, Qara dəniz regionunda təhlükəsizlik və bölgədə davam edən münaqişələr, tərəfdaşların Aİ ilə iqtisadi inteqrasiyanın daha da dərinləşdirilməsinə yönəlmiş nəqliyyat, energetika və digər iqtisadi sahələr üzrə layihələri nəzərdən keçiriblər.

M.Məmməd-Quliyev konfransda və panel iclasda çıxış edərək Azərbaycanın Avropa İttifaqı ilə, eləcə də "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlığı barədə məlumat verib.

# Azərbaycanda "qara qızıl" dəyərini itirir

## Söhbət neftin qiymətindən yox, iqtisadi inkişafdakı rolundan gedir

"Qara qızıl" dediyimiz neftin iqtisadi inkişafda etibarsız vasitə olduğunu sübut etməyə ehtiyac yoxdur. İlk baxışda kənardakıların həsəd apardığı bu təbii sərvət indiyədək çox az ölkəyə daimi tərəqqi, xalqına əbədi xoşbəxtlik bəxş edib. Əvəzində yaxın tarixin saysız həqiqətləri var ki, neft sahibi olduğu ölkə və xalq üçün sözün həqiqi mənasında qara "qızıl" olub. Onun "parıltı"sı təkcə gözləri qamaşdırmayıb, həm də nəfislərə hakim kəsilib, işğalçılığa, qəsbkarlığa rəvac verib. Görmüsünüzmü, "bir həsir, bir Məmmədnəsir" olan kimsənin küməsinə oğru girsin?

Amma bu "qızıl"ın qaralığının səbəbi təkcə böyük güclərin maraqlarına tuş gəlməsi deyil. Neft, daha doğrusu, onun qiyməti həm də bu güclərin əlində dəfələrlə sınaqdan çıxmış iqtisadi vasitə və alətdir. SSRİ kimi nəhəng ölkənin dünyanın siyasi xəritəsindən silinməsinin bir və əsas səbəbi bu qiymət məsələsi olmadımı?!

Elə fikirləşməyin ki, neftin qiymətinə belə emosional münasibətimiz SSRİ-nin dağılmasına təəssüfümüzdən irəli gəlir. Qətiyyən belə deyil. Sovet İttifaqının süqutunu böyük əksəriyyət kimi biz də tarixin qaçılmaz reallığı kimi qəbul edirik. Amma ortada bu qiymət siyasətinin müstəqil Azərbaycana inkişafının sürət götürdüyü bir zamanda vurduğu zərbə də var və biz onun fəsadlarını indi də yaşayırıq. Nədi, nədi, hansı super gücsə bu sevdaya düşən digər iddialını cəzalandırmaq istəyir.

Bax, elə həm bu, həm də digər səbəblərdən nə neftin özünə, nə də qiymətinə bel bağlayıb yola çıxmaq olmaz. Çünki yarı yolda qalmaq ehtimalı az deyil, xüsusən də o yolun yolçusu çoxdursa...

O üzdən, Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Azərbaycan iqtisadiyyatının lokomotivini dəyişmək lazımdır. Neft-qaz sektoru indiyədək ölkənin sosial-iqtisadi inkişafı üçün nə lazımdırsa edib və hazırda reallaşan layihələrə əsaslanıb deyə bilərik ki, yaxın gələcəkdə də bu missiya onun boynundadır. Amma bir şərtlə - əsas stavka qeyri-neft sektoruna edilməklə.

İddia etsək ki, qarşıya qoyulan məqsədə çatmışıq, ən azından qeyri-ciddi olardı. Bununla belə, qeyri-neft sektorunun inkişafı istiqamətində az işlər görüldüyü iddiasında da deyilik. Təkcə dörd bir ətrafımızdakı sosial infrastruktura baxmaq, regionlara səfərə çıxmaq, dükan-bazarda satılan məhsullara nəzər salmaq yetər ki, ölkədə qeyri-neft sektorunun haradan-haraya gəlib çıxdığına şahidlik edək.

Bu şahidliyi edən həm də rəsmi statistikadır: keçən il ölkə üzrə qeyri-neft sektorunda 24, o cümlədən kənd təsərrüfatında 18, turizm, rabitə və digər sahələrdə 10-13 faizdən çox artım qeydə alınmışdır. Ötən il ÜDM-də qeyri-neft sektorunun payı 46,9 milyard manatlığa çatmışdır. Müqayisə üçün bildirək ki, bu göstərici neft sektoru üzrə 32,9 milyard manat olmuşdur. Bu faktın özü göstərir ki, hələ də haqsız olaraq neft ölkəsi sayılan Azərbaycanda ÜDM-in strukturunda qeyri-neft sektorunun çəkisi "rəqib"i - neft-qaz bölməsindən xeyli üstündür. Deməli, Prezidentin qeyri-neft sektorunun inkişafı üçün hələ neçə il əvvəl başladığı və günü bu gün də davam edən tədbirləri səmərəsiz qalmır, real nəticələr verir.

Lakin dövlət başçısı əldə olunanlarla kifayətlənməməyi tövsiyə edir və bunun üçün bütün gərəkli tədbirləri görür. Prezident İlham Əliyev Nazirlər Kabinetinin cari ilin ilk rübünün sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "İqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Beləliklə, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Çünki görülən işlər bunu deməyə əsas verir. Sənaye istehsalı 4,4 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Bax gördüyümüz işlərin nəticəsi budur və sənaye istehsalının, xüsusilə qeyri-neft sektorunda sənaye istehsalının artırılması bizim siyasətimizin bariz nümunəsidir".

Yaxşı haldır ki, nüfuzlu xarici ekspertlər də Azərbaycanın sözügedən istiqamətdə həyata keçirdiyi tədbirləri, onların nəticələrini görür və yüksək qiymətləndirir. KİV-in yaydığı məlumata görə, Beynəlxalq Valyuta Fondunun (BVF) ölkəmizdəki missiyasının rəhbəri N.Tamirisa cari il Azərbaycan üzrə ÜDM istehsalının 2,7, sonrakı illərdə isə 2,1-2,7 faiz civarında artacağını proqnozlaşdırıb. Onun proqnozuna əsasən, həmin artımlar orta hesabla il ərzində 3,3 faizlik inflyasiya fonunda baş verəcək ki, bunu da özlüyündə müsbət tendensiya hesab etmək olar.

O ki qaldı, neft və qeyri-neft sektorlarının inkişafı üzrə proqnozlara, N.Tamirisa cari il neft sektorunun təxminən 2,5 faizədək artacağını güman edir. Missiya rəhbəri bunu "Cənub qaz dəhlizi"nin işə düşməsi üzündən təbii qaz hasilatının artması ilə əlaqələndirir. Amma sonrakı illər neft hasilatının aşağı düşməsi nəticəsində neft-qaz sektorunda artım zəifləyəcək. Hətta təbii qazın qiymətinin neftdən ucuz olması səbəbindən gələn il Avropaya nəqli gözlənilən 10 milyard kubmetr "mavi yanacaq" da həmin tendensiyaya təsir etməyəcək. Əvəzində isə, N.Tamirisaya görə, 2019-2020-ci illərdə qeyri-neft sektorunun inkişafında 2,8 faiz artım qeydə alınacaq. BVF rəsmisi onu da bildirib ki, Azərbaycanda əhalinin sosial güvənliyinin artırılması yöndə atılan son addımlar yaxın 2 il ərzində qeyri-neft sektorunun inkişafına təkan verəcək.

Göründüyü kimi, ölkəmizdə qeyri-neft sektorunun inkişafı dinamik və dönməz xarakter alıb. Tək bu səbəbdən sosial-iqtisadi inkişafımızın bu günü kimi, gələcəyindən də rahatsız olmağa əsas yoxdur.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Bakı Baş Gömrük İdarəsində "KOB Dostu" fəaliyyətə başlayıb

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) "Kiçik və Orta Biznesin Dostu" - "KOB Dostu" Dövlət Gömrük Komitəsinin Bakı Baş Gömrük İdarəsində fəaliyyətə başlayıb.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, iyulun 12-də Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və KOBİA-nın idarə heyətinin sədri Orxan Məmmədov Bakı Baş Gömrük İdarəsinin inzibati binasında "KOB Dostu"nun iş prosesi ilə tanış olub, KOB-ların idxal-ixrac əməliyyatları ilə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd olunub ki, gömrük xidmətlərindən istifadə edən mikro, kiçik və orta sahibkarlar Bakı Baş Gömrük İdarəsində fəaliyyət göstərən "KOB Dostu"na müraciət etməklə idxal-ixrac əməliyyatları, gömrük rəsmiləşdirilməsi və prosedurları, o cümlədən investisiya və ixrac təşviqindən istifadə zamanı gömrük güzəştləri ilə bağlı informasiya, məsləhət, hüquqi yardım, əlaqələndirmə kimi xidmətlərdən istifadə edə biləcəklər. "KOB Dostu"nun Bakı Baş Gömrük İdarəsində fəaliyyəti, həmçinin KOB-ların müvafiq sahə ilə bağlı müraciətlərinin KOBİA-nın və Dövlət Gömrük Komitəsinin iştirakı ilə dövlət-özəl əməkdaşlığı çərçivəsində operativ həll olunmasına imkan verəcək. "KOB Dostu" ilə birgə burada "KOB könüllüləri" də fəaliyyət göstərəcək.

"KOB Dostu" mexanizmi KOBİA-nın mikro, kiçik və orta sahibkarlara mühüm dəstək mexanizmlərindəndir. Artıq ölkənin 14 şəhər və rayonunda KOB dostları fəaliyyət göstərir. KOB dostları mikro, kiçik və orta sahibkarlara mövcud dövlət dəstəyi mexanizmləri, eləcə də KOBİA-nın müxtəlif xidmətləri vasitəsilə dəstək göstərirlər.

# ABŞ-ın "Con Batçelor Şou" radio proqramında ermənilərin antisemitizm əhvali-ruhiyyəsindən və Azərbaycanın tolerantlığından danışılıb

ABŞ-ın məşhur və geniş dinləyici auditoriyasına malik olan "Con Batçelor Şou" radio proqramının növbəti verilişində ermənilərin antisemitizm əhvali-ruhiyyəsindən danışılıb.

AZƏRTAC xəbər verir ki, radioverilişin aparıcısı Con Batçelor İsraildə yəhudi tələbələrə ermənilərin hücum etməsi fonunda ermənilərin antisemitizm əhvali-ruhiyyəsini araşdırıb. O, bu ilin iyun ayında bir qrup erməninin iki yəhudi gənci təkləyərək onlara qarşı təcavüz göstərmələri faktını misal gətirərək bunu pisləyib.

ABŞ-ın Los-Anceles şəhərində yaşayan yazıçı və rejissor Adelle Malka Nazarianla birlikdə apardığı müzakirədə Con Batçelor bildirib ki, müsəlman ölkəsi olan Azərbaycanın İsraillə dostluq münasibətlərinə görə Ermənistan Azərbaycanı ittiham edir.

Azərbaycana bir neçə dəfə səfər etdiyini bildirən aparıcı bu ölkə haqqında silsilə verilişlər hazırladığını və Azərbaycanın Ermənistandan fərqli olaraq tolerant ölkə olduğunu qeyd edərək burada müxtəlif dinlərə mənsub insanların dinc şəraitdə birgəyaşayışını təqdirəlayiq hal kimi yüksək qiymətləndirib. Batçelor Azərbaycanın əhalisinin böyük əksəriyyəti müsəlmanlardan ibarət dünyəvi ölkə olduğunu bildirib. O deyib ki, Azərbaycan dünyanın nadir ölkələrindən biridir ki, burada çoxlu dildə - ingilis, rus, ərəb, ivrit, Ukrayna, gürcü, fars və s. dillərdə danışan insanlara rast gəlmək mümkündür. Bu da ölkədə artıq həyat tərzinə çevrilmiş tolerantlığın yüksək olmasından xəbər verən amillərdən biridir.

Azərbaycanın multikultural və müasir ölkə olduğunu bildirən Batçelor Ermənistanla Azərbaycanı müqayisə edərək Ermənistanın monoetnik və kin dolu ölkə olduğunu deyib. Qondarma soyqırımı kimi yüzillik köhnə bir məsələyə görə ermənilərin hələ də Türkiyə və Azərbaycana yersiz kin bəslədiyi vurğulanıb. Ermənilərin İsrail və Azərbaycana qarşı bu cür kinli münasibətlərinə görə onların dözümsüz olduğu, müasir dünyadan nə qədər geri qaldıqları bildirilib.

Qeyd edək ki, "Con Batçelor Şou" gündəlik həyatda aktual olan beynəlxalq hərbi, siyasi və iqtisadi mövzulara həsr olunur, ABŞ-da federal ABC Radio Şəbəkəsinə daxil olan müxtəlif ştat və şəhərlərdə çoxsaylı radiokanal tərəfindən həm canlı, həm də audioyazı formasında geniş yayımlanır. Həftənin hər günü yayımlanan bu proqram ABŞ-da milyonlarla dinləyici auditoriyasına malikdir. Veriliş 200-dən çox radio tərəfindən təkrar yayımlanır.


## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi

*açıq tender elan edir*

Tender predmeti:

LOT 1 - Qeydiyyat və Notariat Baş İdarəsinin istismarında olan informasiya sistemlərinin şəbəkə infrastrukturunun təmiri, mütəmadi profilaktik işlərinin aparılması, avadanlıq kompleksinə və sistemin proqram təminatına daimi (gündə 24 saat) nəzarət, texniki dəstək və proqram lisenziyalarının yenilənməsi üzrə xidmətlərin göstərilməsi.

LOT 2 - Qeydiyyat və Notariat Baş İdarəsi, dövlət notariat ofisləri və qeydiyyat şöbələri üçün kondisioner, printer və kompüter avadanlıqlarının alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Əsas şərtlər toplusunu Bakı şəhəri, Azadlıq prospekti, 72 ünvanından (əlaqələndirici şəxslər: Həsənov Zaur Rauf oğlu, telefon: 404-42-05, Qasımov Zaur Tofiq oğlu, telefon: 404-42-03) ala bilərlər.

LOT 1: 800 AZN (səkkiz yüz manat)
LOT 2: 300 AZN (üç yüz manat)

Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi
Hesab №: AZ61CTRE00000000000002088403
VÖEN: 1300498771
Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesab: AZ41NABZ01360100000000003944
S.W.I.F.T.BIK: CTREAZ 22
Büdcə təsnifatının kodu: 142340
Büdcə səviyyəsinin kodu: 7

Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *avadanlığa texniki xidmət göstərəcək mütəxəssislərə həmin avadanlığın istehsalçısı tərəfindən verilmiş ixtisas sertifikatı;*
- *əmlakı üzərində həbsin olub-olmaması barədə arayış;*
- *ödənişə yönəlmiş girovun olub-olmaması barədə arayış;*
- *məhkəmənin qərarı ilə kommersiya fəaliyyətinin dayandırılması barədə arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 01 avqust 2019-cu il saat 12:00-a qədər, tender təklifi və bank zəmanəti sənədləri isə 09 avqust 2019-cu il saat 12:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 avqust 2019-cu il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri haqqında Portal vasitəsilə tanış ola bilərlər.

E-şərtlər toplusunu 15 iyul 2019-cu il saat 15:00-dan sonra əldə edə bilərsiniz.

*Tender komissiyası*

# Azərbaycanda növbəti Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçiriləcək

Sentyabrın 28-dən oktyabrın 1-dək Azərbaycanda Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçiriləcək.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşacaq festival dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədi daşıyır. Silsilə tədbirlərdə Nəsimi poeziyası, böyük mütəfəkkirin fəlsəfi ideyaları müxtəlif incəsənət növləri və onların ahəngi vasitəsilə tərənnüm ediləcək.

Xatırladaq ki, Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı ilk dəfə 2018-ci il sentyabrın 27-dən 30-dək keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 11 yanvar tarixli Sərəncamı ilə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə əlaqədar bu il "Nəsimi ili" elan olunub.

Festival, ötənilki kimi, şairin fəlsəfi baxışlarını əks etdirən "Simadan - asimana" və onun öz kəlamından götürülən "Zərrə mənəm, günəş mənəm..." şüarları ilə keçiriləcək. Layihə çərçivəsində həm Nəsiminin doğma diyarı Şamaxıda, həm də paytaxt Bakı və ətraf qəsəbələrdə müxtəlif sənət növləri və bilik sahələrini əhatə edən tədbirlər təşkil olunacaq.

Festivalda beynəlxalq miqyasda tanınmış nəsimişünaslar, şair və alimlər, filosoflar, rəssamlar, musiqi, rəqs və teatr qrupları iştirak edəcəklər.

Rusiyalı psixoloq Aleksey Sıtnikov, italiyalı şair David Rondoni, Azərbaycan əsilli, Böyük Britaniyada yaşayan filosof və rəssam Zeyqəm Əzizov mühazirələrində Nəsimi fəlsəfəsi ilə dünyada məşhur olan bir sıra nəzəriyyə və konsepsiyalar arasında paralellər aparacaqlar.

Festival çərçivəsində, həmçinin almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hess və Böyük Britaniyada yaşayan tədqiqatçı Orxan Mirqasımovun Nəsimi və hürufilik haqda kitablarının təqdimatı olacaq.

Bu il ilk dəfə Nəsiminin bir seçilmiş qəzəlinə tədqiqatçı və şeir biliciləri öz şərhini təqdim edəcək, həmin təfsirlərin müzakirəsi keçiriləcək.

Həmçinin Şamaxı şəhərində İmadəddin Nəsimiyə həsr olunan müasir incəsənət instalyasiyasının açılışı olacaq.

Festival çərçivəsində Mədəniyyət Nazirliyinin "SÖZ" layihəsinin gənc şairlər arasında elan etdiyi Nəsimi ruhunda, yaxud bilavasitə onun şeirlərinə nəzirə olan ən yaxşı poetik əsər müsabiqəsinin nəticələri də elan olunacaq.

Festival günlərində incəsənətin müxtəlif növlərinə dair bir sıra sərgilər açılacaq. Bakıda "Şirvanşahlar Sarayının sirləri" sərgisində yerli və xarici təsviri sənət ustalarının əsərləri - video art, qrafika, instalyasiyalar və kinetik obyektlər nümayiş olunacaq.

Azərbaycan Xalça Muzeyinin festival çərçivəsində söz ustadına həsr etdiyi xalça eskizi müsabiqəsinin yekun sərgisi də açılacaq. Ekspozisiyada müsabiqənin qalibi olan 3 əsər əsasında toxunulan xalçalar, təqdim edilən işlər arasından münsiflər heyətinin seçdiyi xalça eskizləri nümayiş olunacaq.

Bakının Qala qəsəbəsində istifadəsiz sənaye anbarında isə "Danışan divarlar" incəsənət layihəsi çərçivəsində yaradılmış əsərlərin təqdimatı olacaq. Bu layihə çərçivəsində Azərbaycan, Braziliya, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların divarlar üzərində "urban/street art" (şəhər/küçə incəsənəti) janrında yaratdığı əsərlərlə tanışlıq olacaq.

"Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Daşın nəğməsi" IV Beynəlxalq heykəltəraşlıq simpoziumu və "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda VIII Beynəlxalq "Tullantıdan sənətə" sərgisi keçiriləcək.

Festival çərçivəsində Heydər Əliyev Mərkəzində sərgilər, o cümlədən Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin fərdi sərgisi açılacaq. Rəssamın məşhur "Ölümsüzlük otağı" ("Ölümsüzlük odası") əsəri də ekspozisiyada nümayiş olunacaq. Heydər Əliyev Mərkəzində, həmçinin festivalın qala konserti keçiriləcək.

Festival günlərində keçirilən tədbirlərdə Azərbaycan incəsənət ustaları ilə yanaşı, ABŞ, Çin, Almaniya, Böyük Britaniya, Gürcüstan, Misir, Ukrayna, Fransa, Kanada, İordaniya və dünyanın bir sıra başqa ölkələrindən gələn ifaçılar da maraqlı proqramlarla çıxış edəcəklər.

Azercell

## abunəçilərinin nəzərinə

13.08.2019-cu il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində mövcud olan "Hər Yerə", "Socar", "Dövlətcell", "Hədsiz", "Hədsiz Zəng", "Hədsiz İnternet", "Biznes 200", "Standart", "Bizimkilər" və fakturasız xətt sistemində mövcud olan "Hər Yerə" və "Bizimkilər" tarif paketlərində zənglərə 60 saniyəlik hesablama intervalı tətbiq olunacaqdır.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin sifariş, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

# İcbari Sığorta Bürosu son 6 ayda 300 milyon manat kompensasiya ödənişlərini icra edib

Ölkəmizdə baş vermiş sığorta hadisələri nəticəsində icbari sığorta müqaviləsi olmayan, naməlum və ya oğurlanmış avtonəqliyyat vasitəsinin sürücüsü tərəfindən sağlamlığa zərər vurulduqda və icbari sığorta müqaviləsinin tərəfi olan sığorta şirkəti iflas etdikdə, İcbari Sığorta Bürosu tərəfindən kompensasiya ödənişləri verilir.

İflas halı istisna olmaqla kompensasiya ödənişini tələb etmək və almaq hüququna zərərçəkən şəxslər (yolnəqliyyat hadisəsi nəticəsində zərər çəkən fiziki şəxslər - fiziki şəxs öldüyü halda, onun ailə üzvləri) malikdirlər.

2019-cu ilin ilk altı ayı ərzində İcbari Sığorta Bürosunun icraatına qəbul edilmiş 174 kompensasiya tələbindən 98 tələb üzrə kompensasiya icraatı başa çataraq qanunvericiliklə müəyyən edilmiş qaydada kompensasiya ödənişləri verilmişdir. Həmçinin 40 kompensasiya tələbi üzrə icraat 2018-ci ildə başlansa da, bu tələblər üzrə icraat 2019-cu ildə başa çatdığından ödənişlər 2019-cu ilə təsadüf etmişdir.

Cari ilin ilk 6 ayı ərzində 35 ölüm halına görə 138 000 manat, 18 ağır dərəcəli xəsarət halına görə 28 380 manat, 31 az ağır xəsarət halına görə 43 703,32 manat, 4 halda əlillik dərəcəsinə görə 11 500 manat, 10 halda yüngül dərəcəli xəsarətə görə 6 416,67 manat kompensasiya ödənişi verilmişdir. Ümumilikdə 2019-cu ilin ilk altı ayı üzrə zərərçəkən və üçüncü şəxslərə cəmi 227 999,99 manat kompensasiya ödənişi olunmuşdur. 25 kompensasiya tələbi üzrə ödənişin verilməsindən imtina edilmiş, 51 tələb isə baxılma mərhələsindədir.

2018-ci ilin müvafiq dövrü ərzində 60 ölüm halına görə 233 750 manat, 11 ağır dərəcəli xəsarət halına görə 16 200 manat, 36 az ağır dərəcəli xəsarət halına görə 53 750 manat, 7 halda əlillik dərəcəsinə görə 17 500 manat, 12 halda yüngül dərəcəli xəsarətə görə 8 125 manat, 126 tələb üzrə cəmi 329 325 manat məbləğində kompensasiya ödənişləri verilmişdir. Göstəricilər müqayisə edildikdə, verilmiş kompensasiya ödənişləri üzrə 30,8% azalma müşahidə olunur.

2019-cu ilin ilk altı ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə ölüm halları ilə bağlı ödənişlərdə 41%, şəxsin az ağır xəsarət alması halında 18,7%, əlillik dərəcəsi alması halında 34,3%, yüngül dərəcəli xəsarət alması halında 21% azalma, ağır xəsarət alması halında 75% artım qeydə alınmışdır.

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası ilə əlaqədar inteqrasiyanın tamamlanması nəticəsində cari ildə sığortalı avtomobillərin sayında nəzərəçarpacaq artım qeydə alınmışdır. Sığortalı avtomobillərin sayında qeydə alınan artım öz növbəsində kompensasiya ödənişləri ilə bağlı halların azalmasına səbəb olmuşdur.

Gələcək illərdə qarşısıalınma tədbirləri ilə bağlı maarifləndirmə işlərinin genişləndirilməsi, o cümlədən digər tədbirlərin həyata keçirilməsi (dövlət qurumları ilə inteqrasiyaların tamamlanması, nəzarət mexanizmlərinin gücləndirilməsi və s.) sayəsində kompensasiya ilə bağlı hadisələrin sayının daha da azalacağı ehtimal olunur.

*"Azərbaycan"*

# Beynəlxalq aləm

## Zelenski və Putin telefonla danışdılar



Ukrayna və Rusiya prezidentləri Vladimir Zelenski və Vladimir Putin telefonla danışmışlar. Bu barədə Rusiya və Ukrayna prezidentlərinin mətbuat xidmətləri məlumat vermişdir.

Kremldə bildirmişlər ki, söhbət Kiyevin təşəbbüsü ilə baş tutub.

Zelenskinin mətbuat xidməti xəbər verir ki, danışıqların əsas mövzusu 2018-ci ilin noyabrında Kerç boğazında baş vermiş münaqişədən sonra Rusiyada həbs edilmiş ukraynalı dənizçilərin azadlığa buraxılması olmuşdur. Söhbət həmçinin Rusiya ərazisində saxlanılan digər ukraynalı vətəndaşların qaytarılmasından getmişdir.

Kremlin məlumatında qeyd olunur ki, iki ölkənin liderləri Ukraynanın şərqində tənzimləmə və hər iki tərəfdə saxlanılan şəxslərin qaytarılması üzrə məsələləri müzakirə etmişlər. Bu işin ekspertlər səviyyəsində davam etdirilməsi barədə razılıq əldə olunmuşdur.

Bundan əlavə, Putin və Zelenski əlaqələrin "normand formatı"nda davam etdirilməsinin mümkünlüyünü müzakirə etmişlər. Həmin gün, danışıqlar öncəsi Rusiya dövlətinin başçısı ukraynalı həmkarının "normand formatı"nın genişləndirilməsi barədə təklifini maraqlı adlandırmışdır. Bundan üç gün əvvəl Zelenski "Facebook"da Putinə Minskdə ABŞ, Böyük Britaniya, Almaniya və Fransanın vasitəçiliyi və bu ölkələrin liderləri - Donald Tramp, Tereza Mey, Angela Merkel və Emmanuel Makronun iştirakı ilə görüşməyi təklif etmişdir.

## BMT-nin 10 əməkdaşı Malidə minaya düşdü



Malidə BMT-nin Çoxprofilli kompleks missiyasının əməkdaşlarını aparan maşın əldəqayırma partlayıcı qurğuya düşmüşdür. Nəticədə on sülhməramlı yaralanmışdır. Onlardan dördünün vəziyyəti ağırdır. Bu barədə missiyanın Tvitterdəki səhifəsində məlumat verilir.

Hadisə ölkənin şimalında yerləşən Kidal şəhəri yaxınlığında baş vermişdir.

Missiya 2013-cü ilin aprelində təhlükəsizlik sahəsində xüsusi vəzifələrin icrası üçün təsis olunmuşdur. Qurumun tərkibinə 15 min nəfər daxildir.

## İstanbul Avropada ən qonaqpərvər şəhərdir



Türkiyənin İstanbul şəhəri Avropanın ən qonaqpərvər şəhəri seçilmişdir. Bu barədə Bazel İdarəetmə İnstitutunun "Dünyanın sosial investisiyaları - 2019" reytinqində məlumat verilir.

Nəticələr internet sorğusu vasitəsilə keçirilmiş onballıq şkala əsasında müəyyənləşdirilmişdir. Əhalisinin sayı 15 milyon nəfərə çatan İstanbul Avropa qitəsində ən qonaqpərvər şəhər seçilmişdir. Türkiyə şəhəri reytinqdə 8,6 bal qazanmışdır. Avropa şəhərləri arasında qonaqpərvərlik reytinqində Paris 8, Moskva 7,5, Berlin 5,3 bal toplamışdır.

Ən qonaqpərvər ölkələr isə Yaponiya və Yunanıstandır. Hər iki ölkə maksimal on bal qazanmışdır. Türkiyə bu reytinqdə 8,1 bal toplayaraq Avropanın ən qonaqpərvər ölkələrindən biri olmuşdur.

## Srebrenitsa soyqırımının 33 qurbanının cəsədi torpağa tapşırıldı



İkinci Dünya müharibəsindən sonra Avropada ən iri faciə kimi tanınmış Srebrenitsa soyqırımının 33 qurbanının cəsədi Poçotaridəki Memorial qəbiristanlıqda torpağa tapşırılmışdır. Soyqırımı zamanı azı 8372 Bosniya vətəndaşı qəddarlıqla qətlə yetirilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

## Sudan hökuməti dövlət çevrilişinin qarşısının alındığını bəyan etdi



Sudanda hakim Keçid Hərbi Şurasının (KHŞ) məlumatına görə, ölkədə silahlı dövlət çevrilişi cəhdinin qarşısı alınmışdır. Bu barədə televiziya ilə müraciətində KHŞ-nin Təhlükəsizlik və Müdafiə üzrə Komitəsinin başçısı, general Cəmaləddin Ömər İbrahim məlumat vermişdir. O demişdir ki, ölkənin təhlükəsizlik xidməti çevriliş cəhdində şübhəli bilinən 12 zabiti, o cümlədən fəaliyyətdə olan 7 və ehtiyatda olan 5 hərbçini həbs etmişdir. Bundan əlavə, zabitlərin dörd köməkçisi saxlanmışdır.

Buna baxmayaraq, qiyamın təşkilatçısı hələ də tapılmamışdır. İbrahim bildirmişdir ki, qiyamçılar Hərbi Şura ilə müxalifət arasında sazişin imzalanmasına mane olmaq istəmişlər.

## Şirələrin qəbulu onkoloji riski artırır



Parisdəki Sorbonna Universitetinin bir qrup fransız alimi bildirir ki, hər gün 100 millilitr qablaşdırılmış şirələrin qəbul olunması onkoloji xəstəliklərin inkişafı riskini 18 faiz artırır. Tədqiqatların nəticələri "British Medical Journal" jurnalında dərc edilmişdir.

Onkoloji xəstəliklər riskini artıran şirələrin siyahısına tərkibində 5 faizdən çox şəkər olan meyvə şirələri, alkoqolsuz içkilər, meyvəli-südlü içkilər, energetiklər, çay və kofe daxildir.

Son 5 il ərzində alimlər 100 mindən çox pasiyenti müşahidə etmiş və bu qənaətə gəlmişlər ki, gündəlik 100 millilitrdən çox şirin içkinin qəbulu xərçəng riskini 18 faiz artırır. Beş ildə hər 1000 nəfərdən 26-na xərçəng diaqnozu qoyulmuşdur.

Tədqiqat çərçivəsində 2193 xərçəng diaqnozundan 693-ü süd vəzi xərçəngi, 291 prostat xərçəngi və 160-ı bağırsaq xərçəngidir.

Alimlərin fikrincə, şirin içkilərin ziyanlı təsirinin səbəbi qanda şəkərin səviyyəsinin yüksəlməsi və orqanizmdə iltihab markerlərinin sayının artmasıdır.

# Hava yağıntılı və küləkli olacaq




Azərbaycanda iyulun 13-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Gecə saatlarında yarımadanın bəzi yerlərində şimşək çaxacağı gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24°, gündüz 26-31° isti, Bakıda gecə 22-24°, gündüz 28-30° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 751 millimetr civə sütunundan 756 millimetr civə sütununa yüksələcək, nisbi rütubət gecə 60-70, gündüz 50-55 faiz təşkil edəcək.

Abşeron çimərliklərində güclü şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 22-23°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 23-24° isti olacağı ehtimalı var.

Azərbaycanın rayonlarının bəzi yerlərində şimşək çaxacağı, əsasən dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 21-25°, gündüz 31-36° isti, dağlarda gecə 12-17°, gündüz 18-23° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində əsasən gecə və axşam şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 33-38° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində əsasən gecə və axşam şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 29-34° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 25-30° isti, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-25°, gündüz 31-36° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-23°, gündüz 30-34° isti, dağlarda gecə 15-20°, gündüz 21-26° isti olacağı gözlənilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi institutun şöbə müdiri t.ü.e.d. professor Kərim Şükürova əzizi

**MƏLAHƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova qayınatası

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova qayınatası

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi komitənin Aparat rəhbəri Cabbar Musayevə anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Mehman Xudaverdiyevə atası

**ƏZİZAĞA XUDAVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Arif Ələkbərov ailəsi ilə birlikdə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Aparat rəhbəri Cabbar Musayevə anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elbrus Quliyev və Rəfael Süleymanov Cabbar Musayevə anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8855
Sifariş 2241
Qiyməti 40 qəpik